Xalqın qəzeti!
# Xalq qəzeti
№ 109 (30225) 25 may 2023-cü il, cümə axşamı
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Biz Avropanın enerji xəritəsinə nəzər salsaq, o, əsasən, Azərbaycanın təşəbbüsləri sayəsində kəskin şəkildə dəyişib. Neft və qaz boru kəmərləri tamamilə yeni vəziyyət yaradır.**

# Əfsanənin reallığa çevrildiyi gün

## 18 il əvvəl Bakı–Tbilisi–Ceyhan kəmərinə ilk neft vuruldu




**Azərbaycanı Cənubi Qafqazın lider dövlətinə çevirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalanarkən ulu öndərin tövsiyəsi ilə Bakı-Tbilisi-Ceyhan boru kəməri əsas ixrac marşrutu kimi seçildi.**

Sonralar ümummilli liderin qətiyyəti sayəsində "Bakı-Tbilisi-Ceyhan" layihəsi həyata vəsiqə aldı. Bunun davamı olaraq ATƏT-in 1999-cu il noyabr ayının 18-də İstanbulda keçirilən sammitində adıçəkilən kəmərin çəkilişi ilə bağlı bəyannamə imzalandı. Beləliklə, "Üç dənizin əfsanəsi" adlandırılan və minilliyin ən böyük neft ixracı marşrutlarından sayılan Bakı-Tbilisi-Ceyhan layihəsinin reallığa çevrilməsi üçün hüquqi baza yaradıldı.

2002-ci il sentyabr ayının 18-də Bakıda, Səngəçal terminalının ərazisində Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları Heydər Əliyev, Eduard Şevardnadze və Əhməd Necdət Sezərin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyuldu. Kəmərin inşası üçün tanınmış podratçı şirkətlə müqavilə imzalandıqdan sonra 2003-cü ilin fevral ayında tikinti işlərinə başlanıldı.

*(ardı 6-cı səhifədə)*



## Azərbaycan beynəlxalq məsələlərin həllində fəal rol oynayır

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Ölkəniz sosial və iqtisadi sahələrdə böyük uğurlar əldə edib. Azərbaycan dünya arenasında haqlı nüfuz qazanıb, beynəlxalq gündəliyin bir çox aktual məsələlərinin həllində fəal rol oynayır.

Rusiya-Azərbaycan münasibətləri müttəfiqlik qarşılıqlı fəaliyyəti səviyyəsinə yüksəlib, müxtəlif istiqamətlərdə konstruktiv ikitərəfli əməkdaşlıq dinamik şəkildə inkişaf edir.

Əminəm ki, biz birgə səylərlə dost xalqlarımızın rifahı naminə tərəfdaşlıq əlaqələrinin bütöv kompleksinin gələcək inkişafını təmin edəcəyik.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və uğurlar, Azərbaycanın bütün vətəndaşlarına xoşbəxtlik və firavanlıq arzu edirəm.

**Hörmətlə,**

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

## Moskva görüşü: mövqe yaxınlığı, yoxsa geosiyasi əsəb oyunu?



Səhifə ⇨ 9

## Ordumuzun qüdrəti, peşəkarlığı və reytinqi qürur mənbəyimizdir

Səhifə ⇨ 9



## Üfüqdə sülh raundu var: Moskvadan adekvat gözlənti



Səhifə ⇨ 4

## Azərbaycan Xalq Cümhuriyyəti erməni şovinizminə qarşı mübarizədə

Səhifə ⇨ 6

## Azərbaycan "yüksək insan inkişafı" ölkəsidir

Səhifə ⇨ 7



## Bakı Enerji Həftəsi dünya energetikasına baxış olacaq



**Mayın 31-də Bakı Enerji Həftəsi öz işinə başlayacaq. İyunun 3-dək davam edəcək həftə çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi ("Caspian Oil&Gas"), 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi ("Caspian Power"), eləcə də 28-ci Bakı Enerji Forumu keçiriləcək.**

"Caspian Oil&Gas" və "Caspian Power" sərgiləri Bakı Ekspo Mərkəzində, Bakı Enerji Forumu isə Bakı Konqres Mərkəzində baş tutacaq. Bu və ya digər məsələlər barədə Bakı Enerji Həftəsinə həsr olunmuş mətbuat konfransında ətraflı məlumat verildi.

*(ardı 7-ci səhifədə)*

## Azad olunmuş ərazilərin dirçəldilməsinə 6 milyard manat sərf olunub

Səhifə ⇨ 7



## Suyu bulandıranlar



Səhifə ⇨ 4

## ABŞ-da defolt təhlükəsi hələ də qalır

Səhifə ⇨ 10

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə və dost xalqınıza ən səmimi təbriklərimi, xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Misir ilə Azərbaycanı illər boyu davam edən möhkəm dostluq əlaqələri birləşdirir. Ümidvaram ki, birgə əməkdaşlıq və sıx koordinasiya sayəsində ikitərəfli münasibətlərimizin həm ölkələrimizin, həm də xalqlarımızın rifahı naminə ümumi maraq kəsb edən sahələrdə böyük irəliləyişinin şahidi olacağıq.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı və davamlı tərəqqi, dost Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

**Dərin hörmət və ehtiramla,**

***Əbdülfəttah əs-SİSİ,***
***Misir Ərəb Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bütün dövlətlərin və xalqların rifahı, habelə Cənubi Qafqaz regionunun insan və iqtisadi potensialının inkişafı üçün davamlı sülh, təhlükəsizlik və sabitlik xüsusi önəm kəsb edir. Mən əminəm ki, Azərbaycan buna əhəmiyyətli dərəcədə töhfə verə bilər.

Bu fürsətdən məmnuniyyətlə istifadə edərək, Sizə əmin-amanlıq, Azərbaycan xalqına isə xoşbəxt və dinc gələcəklə bağlı ən gözəl arzularımı çatdırıram.

**Dərin hörmətlə,**

***Aleksander Van der BELLEN,***
***Avstriya Respublikasının Federal Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi, Azərbaycan xalqına sülh və firavanlıq arzularımı qəbul etməyinizi xahiş edirəm.

İcazə verin, ölkələrimiz və xalqlarımız arasında çoxillik dostluq, səmərəli əməkdaşlıq münasibətlərinin intensiv inkişafından məmnun olduğumu bildirim.

Azərbaycan Respublikasının milli bayramı ölkələrimiz arasında strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş mükəmməl ikitərəfli münasibətlərin yüksək qiymətləndirilməsini təsdiqləmək və onların gələcəkdə də dinamik şəkildə inkişafını arzulamaq üçün xoş bir fürsətdir.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayır, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Rumen RADEV,***
***Bolqarıstan Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Xorvatiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi, vətəndaşlarınıza tərəqqi və firavanlıq arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Xorvatiya ilə Azərbaycanı çoxillik əməkdaşlıq və dostluq bağlayır. İnanıram ki, biz qarşıdakı dövrdə ümumi əlaqələrimizi inkişaf etdirmək üçün daha çox çalışacağıq.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Zoran MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

İcazə verin, Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və ölkənizin xalqına ən səmimi təbriklərimi çatdırım.

Ölkələrimiz arasında dostluq münasibətləri mövcuddur və inanıram ki, birgə səylərimiz nəticəsində biz bu əlaqələri hərtərəfli inkişaf etdirə biləcəyik.

Zati-aliləri, Sizə uğurlar, Azərbaycan xalqına xoşbəxtlik və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Petr PAVEL,***
***Çex Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Bu əlamətdar bayram münasibətilə Azərbaycan xalqına və dövlətinə daim tərəqqi, firavanlıq və rifah arzulayıram.

Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatının hazırkı sədrliyinə xüsusi diqqət yetirərək, regionun iqtisadi təmərküzləşməsini və inteqrasiyasını təşviq etmək üçün ümumi inkişaf məqsədlərimizin yorulmadan həyata keçirilməsində Zati-alinizin davamlı dəstəyini səbirsizliklə gözləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Xusrav NOZİRİ,***
***İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi***

***

**Möhtərəm cənab Prezident!**

Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərlərinin arzu və iradəsini ifadə edərək Sizə - Azərbaycan xalqının ləyaqətli oğluna, dünyanın tanınmış siyasi xadiminə və Müzəffər Ali Baş Komandana salamlarımızı çatdırır, tariximizin əlamətdar bayramlarından olan

28 May - Müstəqillik Günü münasibətilə təbriklərimizi ünvanlayırıq.

Müstəqillik dövlətini, torpağını və bayrağını şərəfi kimi qoruyub saxlayan hər bir millətin müqəddəs amalıdır. Allaha şükürlər olsun ki, bu gün Azərbaycan xalqı öz tarixinin ən möhtəşəm dönəmini yaşayır. Biz din xadimləri Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində və iqtisadi qüdrətinin artmasında Sizin misilsiz fəaliyyətinizin şahidiyik, ölkədə apardığınız genişmiqyaslı bərpa və yenidənqurma işləri ilə yanaşı, milli-mədəni irsin dirçəlişinə göstərdiyiniz maddi və mənəvi yardım dini dəyərlərə verilən böyük önəm və diqqətin təzahürüdür. Məhz buna görə Azərbaycandakı din-dövlət münasibətləri, multikulturalizm və tolerantlıq ənənələri, etiqad azadlığına hörmət müdrik siyasətin nümunəsi kimi dünya miqyasında yüksək qiymətləndirilir.

Bu siyasətin təməli müstəqil dövlətçiliyimizin qurucusu, bu il 100 illik yubileyini böyük ehtişamla qeyd etdiyimiz görkəmli siyasi xadim, Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur və Zati-alinizin səyləri ilə uğurla davam etməkdədir. Məhz Sizin sayənizdə müstəqil Azərbaycan əksər nüfuzlu beynəlxalq və regional təşkilatlarda layiqincə təmsil olunur, mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir. O cümlədən dünya dinləri nümayəndələrinin təmsil olunduqları ali məclislər - MDB Müsəlmanları Məşvərət Şurasının, Qafqaz Xalqları Ali Dini Şurasının iclasları, Dünya Dini Liderlərinin Beynəlxalq Sammiti Bakıda keçirilir və dinlərarası dialoqun, multikulturalizmin, sivilizasiyalararası əməkdaşlığın bariz nümunəsini təcəssüm etdirir. Qloballaşma və inteqrasiya proseslərinin geniş vüsət aldığı müasir dünyada islamofobiya, antisemitizm, ksenofobiya hallarının müşahidə olunduğu, terrorçuluq, separatçılıq, dini radikalizm, dindən sui-istifadə edərək münaqişələr yaratmaq kimi bəşər sivilizasiyasını təhdid edən hadisələrin yaşandığı bir zamanda dünyaya təqdim etdiyimiz multikulturalizm modeli və mədəniyyətlərarası dialoq çağırışları müstəqil Azərbaycan dövlətinin gücünü və qüdrətini nümayiş etdirir.

Biz din xadimləri fəxr edirik ki, adı tarixin qızıl səhifəsinə Qarabağ Fatehi kimi yazılan Müzəffər Ali Baş Komandan İlham Əliyevin sayəsində böyük Zəfərin şahidi olmuşuq. Bölgənin qısa zaman içərisində yenidən qurulması, işğaldan azad olunmuş Şuşanın 2023-cü ildə türkdilli dövlətlərin mədəniyyət paytaxtı elan edilməsi – bunların hamısı Zati-alinizin yenilməz nüfuzunun və əzminin göstəricisidir. Biz bu səbəbdən Azərbaycan dövlətinin gələcəyinə böyük inamla, ümidlə baxırıq və Zati-alinizin tövsiyəsi, Azərbaycan dövlətinin dəstəyi ilə Türk Dövlətləri Təşkilatı nəzdində Müsəlman Dini İdarə Rəhbərləri Şurasının yaradılmasını siyasi və ictimai baxımdan böyük nailiyyət hesab edirik.

Zati-aliləri, fürsətdən istifadə edərək, 28 May - Müstəqillik Günü ərəfəsində böyük ehtiram hissi ilə Sizə və ailənizə uzun ömür, cansağlığı, şərəfli fəaliyyətinizdə uğurlar arzulayırıq. Biz dindarlar Azərbaycan xalqının gələcəyi və rifahı naminə Sizin fəaliyyətinizi hər zaman bəyənir və dəstəkləyirik. Əminik ki, Uca Yaradanın köməyi və Sizin rəhbərliyinizlə Azərbaycan xalqı dünya miqyasında daha böyük uğurlara imza atacaq, dövlət müstəqilliyimiz əbədi qalacaq, haqqın qalibiyyəti daim Zati-alinizlə olacaqdır!

Uca Yaradan hər zaman yardımçınız olsun! Amin.

**Dərin hörmət və ehtiramla,**

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri***
***Milix YEVDAYEV,***
***Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri***
***Arximandrit Aleksiy NİKONOROV,***
***Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi***
***Yepiskop Vladimir FEKETE,***
***Roma Katolik Kilsəsinin Azərbaycandakı Apostol prefekturasının ordinarisi***
***Aleksandr ŞAROVSKI,***
***Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri***
***Robert MOBİLİ,***
***Alban-Udi Xristian Dini İcmasının sədri***

# İtaliya Respublikasının Prezidenti Zati-aliləri cənab Sercio Mattarellaya

**Hörmətli cənab Prezident,**

Emilia-Romanya regionunda baş vermiş güclü daşqınlar nəticəsində insan tələfatı və çoxsaylı dağıntılar barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İtaliya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 may 2023-cü il**

# İqtisadi Şuranın növbəti iclası



**Mayın 24-də Azərbaycan Respublikası İqtisadi Şurasının növbəti iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində cari ilin ötən dövründə iqtisadi vəziyyət, qlobal və regional iqtisadi proqnozlar, Azərbaycanda 2023-cü il və ortamüddətli dövr üçün sosial-iqtisadi artım proqnozları, o cümlədən neft-qaz sektorunun proqnozları, habelə vergi inzibatçılığının təkmilləşdirilməsi, investisiya təşviqi və iqtisadi sahədə şəffaflığın təmin edilməsi ilə bağlı dəyişikliklərin layihəsi, Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin indikatorları üzrə görülmüş işlər, icra olunmalı tədbirlər və digər cari məsələlər müzakirə olunub.

İclasda iqtisadiyyat naziri Mikayıl Cabbarovun məruzəsi və "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya"-nın Katibliyinin hesabatı dinlənilib.

İclasın yekununda müzakirə olunan məsələlər barədə qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

***"Xalq qəzeti"***

# Ceyhun Bayramov ATƏT PA-nın prezidenti ilə görüşdü



**Mayın 24-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransda iştirak məqsədilə ölkəmizdə səfərdə olan ATƏT Parlament Assambleyasının prezidenti Marqareta Sederfeltin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə ATƏT Parlament Assambleyasında Azərbaycanla münasibətlərin əməkdaşlıq perspektivləri və gündəlikdə duran əsas məsələlər, ATƏT Parlament Assambleyasının Azərbaycan-Ermənistan arasında normallaşma prosesinə mümkün töhfələri ətrafında müzakirələr aparılıb.

Nazir Ceyhun Bayramov bölgədə mövcud vəziyyət, ölkəmiz tərəfindən aparılan genişmiqyaslı bərpa və quruculuq layihələri barədə qarşı tərəfi məlumatlandırıb. Ermənistanın təxribatlarına və prosesləri ləngitmək səylərinə baxmayaraq bölgədə sülhün və sabitliyin təmini istiqamətində, o cümlədən sülh müqaviləsinin imzalanması, bütün kommunikasiyaların açılışı və digər məsələlərdə Azərbaycan tərəfindən atılan addımlar barədə məlumat verib.

ATƏT Parlament Assambleyasının Azərbaycanla əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd edən M.Sederfelt, həmçinin regionda sülhün və təhlükəsizliyin təmin olunmasının vacibliyindən söz açıb, ATƏT Parlament Assambleyasının sülhü, sabitliyi, parlament diplomatiyasını təşviq etdiyini, regionda sülhün təmin olunması istiqamətində çalışdığını vurğulayıb.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

# Milli Məclisin nümayəndə heyətinin Serbiyaya səfəri başlayıb




**Mayın 24-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Serbiya Respublikasına rəsmi səfər edib.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, səfər çərçivəsində Milli Məclis sədrinin Serbiya Prezidenti, bu ölkənin Milli Assambleyasının spikeri və Baş naziri ilə görüşləri nəzərdə tutulur.

Nümayəndə heyəti ümummilli lider Heydər Əliyevin Belqraddakı abidəsini ziyarət edəcək, 28 May - Müstəqillik Gününə həsr olunmuş tədbirə qatılacaq.

Parlament nümayəndə heyətinə Milli Məclisin komitə sədri Sadiq Qurbanov, Azərbaycan-Serbiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Məlahət İbrahimqızı, deputat Əliabbas Salahzadə və digər şəxslər daxildir.

# Məhkəmə arxeologiyası və antropologiyasına dəstək

**AMEA-da Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası, AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu və Beynəlxalq Qızıl Xaç Komitəsinin birgə təşkilatçılığı ilə "Məhkəmə arxeologiyası və məhkəmə antropologiyası: Humanitar tətbiqlər" mövzusunda ilk beynəlxalq konfrans keçirilib.**

Dövlət Komissiyasının BQXK ilə birgə işləyib hazırladığı "Münaqişə ilə bağlı itkin düşmüş şəxslərin qalıqlarının tapılması və identifikasiyası üzrə pilot layihə" multidissiplinar humanitar məhkəmə ekspertizası yanaşması olub, BQXK-nın texniki məsləhət və dəstəyi ilə Dövlət Komissiyasının koordinasiyası ilə həyata keçirilir. Layihə çərçivəsində aidiyyəti qurumlar itkin düşmüş şəxslərin axtarılması, insan qalıqlarının götürülməsi, analizi və identifikasiyası üzərində birgə işləyərək Azərbaycan tarixində ilk olan məhkəmə arxeologiyası və məhkəmə antropologiyası yanaşmasının əsasını qoymuş olublar.

Məqsəd müxtəlif ölkələrdən olan mütəxəssisləri bir araya gətirərək həm texniki biliklərin, həm də sahə təcrübəsinin bölüşülməsi yolu ilə Azərbaycanda məhkəmə arxeologiyası və məhkəmə antropologiyasının inkişafına dəstək verməkdir. Eyni zamanda, konfrans yeni nəsil tədqiqatçıları da bu mövzudakı müzakirələrə qatılmağa təşviq edir.

İkigünlük beynəlxalq konfransda müxtəlif ölkələrdən olan iştirakçılar məhkəmə arxeologiyası və antropologiyası ilə bağlı bilik və təcrübələrini bölüşüblər.

# RF XİN: Nikol Paşinyanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması nəzərdən keçirilir

**Rusiya Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması barədə bəyanatlarını onun mövqeyinin təsdiqi kontekstində nəzərdən keçirir. Bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə deyib.**



RF XİN-in təmsilçisi qeyd edib ki, Ermənistan-Azərbaycan məsələsinin nizamlanmasında vasitəçi kimi Rusiya üçün dövlətlərin, xüsusən də Ermənistanın bu mövzuda dəqiq mövqeyinin olması mühümdür. "Biz ümumilikdə Ermənistanın baş nazirinin bəyanatlarını 2022-ci il oktyabrın 7-də Praqada Azərbaycan, Ermənistan, Fransa və Aİ liderlərinin iştirakı ilə keçirilən görüşdə onun tutduğu mövqeyin təsdiqi kimi nəzərdən keçiririk".

M.Zaxarova xatırladıb ki, bu görüşdə Sovet İttifaqının keçmiş respublikaları arasında inzibati sərhədlərin dövlətlərarası sərhədlər qismində tanındığı 1991-ci ilin Alma-Ata Bəyannaməsinə istinadla birgə bəyanat qəbul olunub. O əlavə edib ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada keçirilən sonuncu görüşü bir çox məsələlər üzrə onların mövqeyini yaxınlaşdırmağa imkan verib.

# Ermənistan – Azərbaycan gərginliyi: Tənzimləmədə Rusiya vasitəçiliyi

## Cənubi Qafqazda sülhə doğru, yaxud Kremlin keçmişdən bu günə barışıq missiyası

**Bu gün Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Moskvada Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə görüşəcəklər. Bu, Kremlin sülh tənzimlənməsi xətti üzrə iki Cənubi Qafqaz ölkəsi liderinin 44 günlük müharibədən sonrakı sayca dördüncü təmasıdır. Bundan əvvəl tərəflər 2021-ci ilin yanvarın 11-də Moskvada, noyabrın 26-da Soçidə və 2022-ci il oktyabrın 31-də yenidən Soçidə görüşmüşdülər. Əlbəttə, görüş siyahısına müharibənin başa çatmasını təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli onlayn təması da əlavə etmək mümkündür. Çünki bu görüş savaşdan sonra münaqişənin nizamlanmasının Rusiya tərəfi baxımından çıxış nöqtəsi kimi müstəsna əhəmiyyətə malikdir.**



### Ulu öndərin Qarabağ təşəbbüsləri və dəyişən vəziyyət

Əvvəla, ondan başlayaq ki, ümumən, Azərbaycan və Ermənistan lidelərinin Qarabağ münaqişəsi, eləcə də iki ölkə arasındakı münasibətlərin normallaşması xətti çərçivəsindəki görüşlərin intensivlik xəttini, əsasən, iki mərhələyə bölmək olar. Birinci mərhələ ulu öndər Heydər Əliyevin prezidentliyi dövrünə təsadüf etmişdi. Məlum olduğu kimi, həmin vaxt şərtlər başqa idi. Ancaq Prezident Heydər Əliyevin səriştəsi və bacarığı ilə Qarabağ danışıqlarının, xüsusən, 1996-1999-cu illər aralığındakı mərhələsi ölkəmiz adına böyük diplomatik dividend dövrü olaraq dəyərləndirilə bilər.

Ulu öndərin müstəsna səyləri nəticəsində dünya birliyi həmin vaxtadək Qarabağın Ermənistana məxsusluğuna dair erməni tərəfin təlqin etdiyi fikirlərin yalan mahiyyətini anladı. İrəvan rəhbərliyi də hələ o zaman beynəlxalq ictimaiyyətin Qarabağın Ermənistana aid olmadığı qənaətinə gəldiyini duymağa başladı. Bununla bağlı Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın və həmin dövrdə onun müşaviri işləyən Jirayr Liparidyanın geniş yayılmış açıqlamaları var.

Ancaq 1998-ci ildə Ter-Petrosyanın istefası, Robert Koçaryanın hakimiyyətə gəlməsi, 1999-cu ildə isə Ermənistanda gerçəkləşmiş parlament terroru ilə Azərbaycanla münasibətlərdə yumşalmaya meyilli siyasi kəsimin məhvi danışıqların gedişinə, eləcə də sülhə nəinki ciddi maneçilik törətdi, bütövlükdə, prosesi blokladı.

### Ermənistanın danışıq imitasiyası

Buzlar əriməyə 2008-ci ildə başladı desək, bəlkə, bir o qədər də yerinə düşməz. Ancaq fakt budur ki, həmin ildən başlayaraq, Azərbaycan və Ermənistan lidelərinin görüşlərində intensivlik xətti götürüldü. Bu intensivlikdə başlıca rolu Rusiya vasitəçiliyi oynadı.

Əlbəttə, Rusiya vasitəçiliyinin 2008–2016-cı illəri əhatə edən dövrü intensivlikdəki səmərəlilik baxımından 2020-ci ildən sonrakı dinamika ilə müqayisə oluna bilməz. Yəni, 2020-ci ildə Azərbaycanın gücü öz sözünü demişdi. Müvafiq olaraq müharibəyə qədərki Rusiya vasitəçiliyinin konkret faydalar gətirdiyini də söyləmək mümkünsüzdür. Hərçənd, Azərbaycan dövlətinin 2008-ci ildən başlayaraq danışıqlar təşəbbüsü artıq güclənmiş ölkəmizin Qarabağ dirənişinin əzmi kimi meydana çıxmışdı. Ermənistan bunu nə duya bildi, nə də qəbul etdi. Nəticə etibarilə aşağıda vurğuladığımız nizamlama prosesində irəliləyiş kimi diqqətə çatdıracaqlarımız, əslində, böyük ölçüdə İrəvanın sülh danışıqlarını uzatması, yaxud danışıqları imitasiyası kimi görünə bilər.

Beləliklə, 2008-ci ildən indiyədək Rusiya, Azərbaycan və Ermənistan liderlərinin iki ölkə arasındakı münaqişəli durumun aradan qaldırılması ilə bağlı 16 üçtərəfli görüşü keçirilib. Yəni bugünkü Moskva görüşü sayca 17-cidir. 16 görüşdən 14-ü Rusiyada, biri Moldovada, biri də 2020-ci ilin noyabrında onlayn formada təşkil olunub. 2008-2012-ci illərdəki görüşlərdə Rusiya tərəfindən vasitəçi qismində o zamankı Prezident Dmitri Medvedev, 2014-cü ildən hazırkı dövlət başçısı Vladimir Putin iştirak edib.

2008-2016-cı illərdəki üçtərəfli təmaslara Ermənistandan prezident Serj Sarkisyan qatılıb. 2018-ci ildə Ermənistan konstitusiyasına düzəlişlərdən, nəticədə hökumət ölkənin ali icra hakimiyyəti orqanına çevrildikdən sonra danışıqlarda Ermənistanı həmin il iqtidara gəlmiş Nikol Paşinyan təmsil etməyə başlayıb.

### "Meiendorf"dan 44 günlük müharibəyə doğru

2008-ci il noyabrın 2-də Rusiya Prezidenti Dmitri Medvedevin təşəbbüsü ilə "Meiendorf" qəsrində dövlət başçıları – İlham Əliyevlə Serj Sarkisyan arasında görüş keçirildi. Tərəflər gələcək görüş prinsiplərinin müəyyən olunduğu bəyannaməni imzaladılar. Bu, Qarabağ məsələsi üzrə danışıqlarda münaqişədə iştirak edən ölkələrin nümayəndələrinin imzaladığı ilk sənəd oldu. Bəyannamədə prezidentlər ATƏT-in vasitəçilik səylərinin zəruriliyini önə çəkdilər. Onlar, həmçinin sülh yolu ilə nizamlanmaya nail olunmasının vacibliyini, prosesin hüquqi qüvvəyə malik beynəlxalq təminatlarla gerçəkləşməsinə sadiqliklərini bildirdilər.

2009-cu il iyunun 4-də Dmitri Medvedevin iştirakı ilə Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsindəki qeyri-rəsmi şam yeməyində Cənubi Qafqaz liderləri yenidən bir araya gəldilər. Burada əvvəl ikitərəfli, sonra üçtərəfli danışıqlar aparıldı. Bundan 11 gün sonra liderlər Moskvada Qarabağ münaqişəsinin sülh yolu ilə həllini müzakirə etdilər. Həmin il iyulun 18-də dövlət başçıları İlham Əliyev və S.Sarkisyan D.Medvedevlə üçtərəfli görüş keçirdilər. Görüşdən sonra Azərbaycan və Ermənistan prezidentləri Qarabağ probleminin həllinin gələcək yollarının konstruktiv müzakirəsinə hazır olduqlarını bildirdilər.

Prezident İlham Əliyev və Ermənistanın dövlət başçısı Serj Sarkisyanın Rusiyanın, daha doğrusu, Prezident Dimtri Medvedevin vasitəçiliyi ilə 2009-cu ildəki növbəti görüşü oktyabrın 9-da MDB-nin Kişinyov sammiti çərçivəsində reallaşdı. Həmin görüş bağlı qapılar arxasında keçdi və nəticələri açıqlanmadı.

2010-cu ildə Qarabağ münaqişəsinin həllinin mübahisəli prinsiplərinin formalarını yazılı şəkildə rəsmiləşdirmək barədə razılıq əldə olundu. Bu, tərəflərin 2010-cu il yanvarın 25-də Soçidəki görüşü zamanı baş verdi. Həmin il iyunun 17-də onlar Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda bir daha üz-üzə gəldilər. Oktyabrın 27-də isə Həştərxanda növbəti üçtərəfli danışıq aparıldı. Burada ATƏT-in Minsk qrupunun həmsədrlərinin köməyi ilə hərbi əsirlərin mübadiləsini və həlak olanların meyitlərinin qaytarılmasını nəzərdə tutan etimad tədbirlərinə dair xüsusi bəyannamə qəbul edildi.

2011-ci il martın 5-də Soçidə aparılmış danışıqların yekunu olaraq Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında birgə bəyanat qəbul edildi ki, sənəddə xüsusilə hərbi əsirlərin mübadiləsini mümkün qədər tez başa çatdırmaq barədə razılıq əldə olundu. Həmin il iyunun 24-də Kazanda isə üç dövlətin başçısı Dağlıq Qarabağ nizamlanmasının əsas prinsipləri layihəsinin razılaşdırılması üzrə işlərin gedişini nəzərdən keçirdilər. Danışıqlar nəticəsində qəbul edilmiş birgə bəyanatda tərəflər mövqelərin yaxınlaşması üçün ümumi nöqtələrin axtarışını davam etdirməyə razılaşdıqlarını bildirdilər.

Azərbaycan, Rusiya və Ermənistan liderlərinin növbəti görüşü də Soçidə gerçəkləşdi. 2012-ci il yanvarın 23 -də baş tutmuş həmin görüşdə Qarabağ münaqişəsinin həllinin gələcək yolları ətrafında müzakirə aparıldı. Dövlət başçıları görüşün yekunlarına dair birgə bəyanata imza atdılar.

Soçi ikiillik fasilədən sonra Cənubi Qafqaz liderlərinin Rusiya dövlət başçısının vasitəçiliyi ilə keçirilmiş növbəti görüşünün ünvanı kimi də yadda qaldı. Belə ki, 2014-cü il avqustun 10-da reallaşmış görüşdə Rusiyanı Prezident Vladimir Putin təmsil etdi. Görüş tərəflərin, necə deyərlər, mətləbə əvvəlki görüşlərdəkindən daha çox yaxınlaşmaları ilə əlamətdar səciyyə daşıdı. Onlar yaxın gələcəkdə Qarabağ münaqişəsinin güzəştli və sülh yolu ilə həllinə ümid etdiklərini bildirdilər.

Lakin ümid ümid olaraq da qaldı. Çünki haqqında söz açdığımız görüşdən sonra Ermənistan rəhbərliyi, ancaq, gözləntiləri puça çıxarmaqla məşğul oldu. Nəticə etibarilə, danışıqlarda növbəti ikiillik fasilə yarandı. Nəhayət, 2016-cı il iyunun 20-də Rusiya, Azərbaycan, Ermənistan prezidentləri Sankt-Peterburqda bir araya gəldilər. Nəzərə alaq ki, bu görüşə təkan verən həmin ilin "Aprel müharibəsi" oldu. O müharibə ki, 2020-ci ildə Ermənistanın üzləşəcəyi fəlakətin ilk siqnalı idi.

Qeyd edək ki, 2018-ci ildə inqilab nəticəsində hakimiyyətə gəlmiş Nikol Paşinyan əvvəl Azərbaycan tərəfdən danışıqları davam etdirmək üçün vaxt istədi, sonra isə destruktiv mövqe tutdu ki, bu, yekun nəticədə 44 günlük müharibə reallığını doğurdu. Müharibədə İrəvanın rüsvayçı məğlubiyyətini təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat Azərbaycan, Rusiya və Ermənistan liderləri formatındakı danışıqlarının ən böyük faydası kimi tarixə düşdü.

Beləliklə, videokonfrans vasitəsilə keçirilmiş görüş zamanı imzalanmış birgə bəyanata əsasən, Azərbaycan və Ermənistan tərəfləri öz mövqelərində dayandı, bölgəyə Rusiya Federasiyasının sülhməramlıları yerləşdirildi. Həmçinin, 2020-ci ilin dekabrına kimi Kəlbəcər, Ağdam və Laçın Azərbaycanın nəzarətinə keçdi.

### Kremlin postmüharibə dövrü vasitəçiliyi

2021-ci il yanvarın 11-də V.Putinin təşəbbüsü ilə Moskvada Azərbaycan və Ermənistan liderləri arasında görüş keçirildi. Tərəflər 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın icrası ilə bağlı məsələlərə nəzər saldılar və regiondakı problemlərin həlli üçün atılacaq addımlar müzakirə edildi. Görüşdə Qarabağda infrastruktur layihələri ilə bağlı birgə bəyanat imzalandı və sənədin icrası baş nazir müavinləri səviyyəsində üçtərəfli işçi qrupuna həvalə olundu.

2021-ci il noyabrın 26-da Rusiya Prezidentinin təşəbbüsü ilə Soçidə növbəti üçtərəfli təmas reallaşdı. Qarabağda hərbi əməliyyatların dayandırılması ilə bağlı bəyanatın imzalanmasının ildönümünə təsadüf etmiş görüşdə yeni birgə bəyanat da qəbul edildi. Sənəddə Azərbaycan-Ermənistan sərhədində sabitliyin və təhlükəsizliyin səviyyəsini artırmaq üçün addımlar atılmasına dair razılıq ifadə olundu. Əsas nəticə isə ölkələr arasında sərhədlərin demarkasiyası və delimitasiyası mexanizminin yaradılması ilə əlaqədar oldu. Rusiya prosesə məsləhətçi yardım göstərməyə hazırlığını bildirdi. Qeyd edək ki, Soçidə V.Putin Azərbaycan Prezidenti və Ermənistanın baş naziri ilə ayrı-ayrılıqda da görüşlər keçirdi.

Nəhayət, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin sonuncu üçtərəfli görüşünün üzərinə gələk. Görüş ötən il oktyabrın 31-də Soçidə baş tutdu. Soçi Sammitindən sonra keçirilmiş brifinq zamanı V.Putin bildirdi ki, hələlik iki ölkə arasında sülh müqaviləsi yoxdur. Ancaq o, sammiti gələcək mümkün razılaşmalar üçün çox yaxşı atmosfer yaradan faydalı görüş kimi qiymətləndirdi. "Sülh müqaviləsinə gəlincə, o, hələ yoxdur. Və burada bu sənədin əsas tərkibi haqqında danışmaq tezdir. Ona görə ki, bu, yəqin hər iki tərəfin istəyi və Rusiyanın vasitəçiliyi ilə nail olacağı güzəştlər predmetidir", – deyən Putin Rusiyanın Ermənistan və Azərbaycan arasında vəziyyətin nizamlanmasına yönəlmiş istənilən səyləri dəstəklədiyini açıqladı.

Rusiya Prezidenti, həmçinin, sərhədlərin delimitasiyası və demarkasiyası üçün ilkin şərtlərin tapıldığını dedi və Qarabağda yerləşmiş sülhməramlıların bölgədə qalma məsələsinə toxundu. Məlumdur ki, N.Paşinyan avantüraya əl ataraq, sülhməramlıların uzun müddətə Qarabağda qalmasını təklif etmişdi. Onun təklifi, faktiki olaraq, sıradan çıxdı. Putin isə Rusiyanın problemlərin həlli üçün SSRİ Müdafiə Nazirliyinin Baş Qərargahının ən dəqiq xəritələri təqdim etməyə hazır olduğunu bildirdi. Rusiya Prezidenti, həmçinin Soçi təması zamanı razılığa gəlinməyən məsələlərin mövcudluğunu da vurğuladı.

Bəli, Rusiya Prezidentinin də bildirdiyi kimi, razılığa gəlinməyən məqamlar var. Ancaq Soçi görüşündən fərqli olaraq, hazırda Ermənistan bir çox məsələlərdə razılığa gəlmiş kimi görünməkdədir. Bu baxımdan ölkəmizin ərazi bütövlüyünün tanınmasından tutmuş, Bakının İrəvanı razılığa gətirmək naminə hərəkətə keçirdiyi təzyiqlərin əməli nəticələr verməsinədək, müxtəlif cəhətlərin üzərində dayanmaq mümkündür. Ona görə də bu gün keçiriləcək Moskva görüşünün Cənubi Qafqazda çoxdan gözlənilən sülhə çatmaq baxımından daha pozitiv notlarla başa çatacağına inanmaq istəyirik.

***Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"***

# Ermənistanın KTMT sancısı

## Hayların bu qurumda qalmaları bir dərd, getmələri isə başqa dərddir...



**44 günlük Vətən müharibəsindən sonra Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxması ilə bağlı müxtəlif fikirlər səslənməkdədir. Yalnız müxalifət deyil, hətta Ermənistan iqtidarında təmsil olunan bəzi qüvvələr də hesab edirlər ki, KTMT-də təmsilçilik ölkələrinin maraqları baxımından heç bir önəm daşımır. Lakin KTMT haqqında ən qalmaqallı açıqlamaları Ermənistanın baş naziri Nikol Paşinyan verib. O, 2022-ci ilin oktyabrın 29-da hakim "Mülki Müqavilə" partiyasının qurultayında KTMT-nin mövcudluğunu inkar edərək deyib: "KTMT mövcud deyil, çünki KTMT-nin üzv dövlətlərin sərhədləri daxilində qapalı olan məsuliyyət zonası var. Əgər dövlətlərdən birinin sərhədi yoxdursa, deməli, KTMT-nin məsuliyyət zonası yoxdur, yəni təşkilatın özü də yoxdur".**

Paşinyan 2023-cü ildə də KTMT-ni hədəf seçən bir neçə qalmaqallı açıqlamalar səsləndirib. Yeri gəlmişkən, Ermənistanın baş naziri bugünlərdə mətbuata verdiyi açıqlamada Ermənistanın KTMT-dən çıxması məsələsinin öz aktuallığını itirmədiyini qeyd edib. O, bildirib ki, "Ermənistanın KTMT-yə üzvlüyünün dayandırılması və ya dondurulması haqda qərarı de-yure qəbul edəcəyini istisna etmirəm".

### Moskva: "Ölkənizin maraqlarına hörmət qoyun"

Ermənistanın KTMT ilə bağlı tərəddüdlərinin davam etdiyi bir zamanda maraq doğruan məqamlardan biri də Rusiyanın baş verənlərə münasibətidir. Rusiya Dövlət Dumasının beynəlxalq məsələlər komitəsi sədrinin birinci müavini Dmitri Novikov "Qazeta.ru"ya müsahibəsində elə bu barədə danışıb. KTMT-dən çıxmağın Ermənistanın maraqlarına cavab vermədiyini bildirən Novikov Paşinyan hakimiyyətinə ölkəsinin mənafeyi haqqında düşünməyi tövsiyə edib: "Hesab edirəm ki, Ermənistanın KTMT-dən çıxması ölkənin milli maraqlarına uyğun gəlmir. Əgər hazırkı Ermənistan hakimiyyəti məhz bu quruluşa - öz ölkələrinin, öz xalqının maraqlarına hörmət etmək zərurətinə əməl edərsə, o zaman KTMT-dən çıxmaqdan söhbət gedə bilməz".

Dmitri Novikov Ermənistanın Rusiya ilə müttəfiqlik münasibətləri əsnasında üzərinə düşən öhdəlikləri yerinə yetirməsinin vacibliyini də qeyd edib. Duma təmsilçisi açıqlamasında Rusiyanın Ermənistana mümkün təzyiqləri haqqında heç nə deməsə də, əslində söylədiklərini Moskvanın Paşinyana ciddi xəbərdarlığı kimi dəyərləndirmək mümkündür. Heç şübhə yoxdur ki, Novikov KTMT-dən çıxmağın Ermənistanın maraqlarına cavab vermədiyini deməklə, həm də bunun müqabilində Rusiyanın cavab addımlarının mümkünlüyünə eyham vurur.

### KTMT-dən çıxmaq siyasi intihar ola bilər

Aydındır ki, Rusiyanın rəqib hesab etdiyi NATO-nun sürətlə genişləndiyi bir zamanda, KTMT-nin, Ermənistanın bu qurumdan çıxması ilə "qan itirməsi" Kreml üçün arzuedilməzdir. KTMT həm hərbi, həm də siyasi çəkisinə görə NATO-dan qat-qat geridə qalsa da, bu qurum Rusiyanın özünü lider kimi hiss etdiyi, təsəlli tapdığı koalisiyadır. Ermənistanın mövcud çevrəni tərk etməsi hər şeydən öncə Moskvaya arxa çevirməsi demək olacaq.

Bundan başqa, bu addım KTMT-nin perspektivsiz, gələcəyi olmayan koalisiya imicini daha da gücləndirəcək ki, belə bir görüntü Kremlin maraqlarına ziddir. Digər tərəfdən, Ermənistanın KTMT-dən çıxmasının ölkənin Qərblə münasibətlərinə müsbət təsir göstərəcəyi də birmənalıdır. Elə ona görə Qərb bu məsələdə Ermənistanı həvəslə dəstəkləyir.

### Rusiyanın İrəvana təzyiqləri nə ola bilər?

İlk addımlardan biri kimi Ermənistanı öz hərbi-siyasi dəstəyindən məhrum etməsini göstərmək mümkündür. Nəzərə alaq ki, Ermənistanın bu dəstəkdən asılı olduğu hamıya məlumdur. Xatırladaq ki, Ermənistanın İran və Türkiyə ilə sərhədləri, hava məkanı bu gün də rus hərbçiləri tərəfindən qorunmaqdadır. Gümrüdəki 102-ci rus hərbi bazası tənqidlərə rəğmən Ermənistanın təhlükəsizliyinin əsas qarantı hesab olunur. Sərhədlərini belə müstəqil şəkidə qoruya bilməyən Ermənistanın Rusiyanın hərbi dəstəyi olmadan öz sabitliyini təmin etməsi real görünmür.

Rusiya iqtisadi sferada da İrəvana ciddi təzyiq imkanlarına malikdir. Ermənistanın əsas xidmət sahələri, qabaqcıl nəqliyyat sektoru rus şirkətlərinin nəzarətindədir. 2022-ci ildə iki dövlət arasında ticarət dövriyyəsi iki dəfə yüksəlib ki, bu da Rusiyanın Ermənistan iqtisadiyyatındakı artan rolundan xəbər verir. İkincinin ümumi ixracatının təxminən yarısı – 45 faizi birincinin payına düşür. Bu isə o deməkdir ki, Rusiyanın cırtdan partnyorundan məhsul idxalını əngəlləməsi, Ermənistanın iqtisadi baxımdan məhvi üçün kifayətdir.

Kremlin bütün bunların xaricində də İrəvana çox sayda bilavasitə və dolayı təzyiq imkanları var ki, bu təzyiqlər qarşısında davam gətirmək mümkünsüzdür.

Bütün bunların fonunda Ermənistanın KTMT-də qalması bir dərd, getməsi isə başqa itki sayıla bilər. Görünən odur ki, hər iki halda İrəvan üçün xilas yolu görünmür.

***Seymur ƏLİYEV***

**Cənubi Qafqazda geosiyasi və hərbi maraqları toqquşan güclərin bölgədə dayanıqlı sülhün və uzunmüddətli sabitliyin təmin olunması istiqamətində təşəbbüs və cəhdləri özünün həlledici mərhələsinə yaxınlaşmaqdadır. Bu gün çox güman ki, Azərbaycan və Ermənistan arasında ümidləri göyərmiş sülhün kulminasiya nöqtəsində – Kremldən görünən "diplomatik savaş meydanı"nda rəqiblərinə güzəştə getməyə hazırlaşmayan vasitəçinin "həlledici hücumqabağı" taktikasının şahidi olacağıq. Ev sahibinin bu taktikasının danışıqların budəfəki üçtərəfli formatında sülh sazişinin imzalanması ilə yekunlaşması Bakı üçün strateji əhəmiyyət kəsb edir. Elə faydasız dirənişində özünə tərəfdaş və himayədar axtarışından yorulmuş İrəvan üçün də...**

# Üfüqdə sülh raundu var: Moskvadan adekvat gözlənti



**Özünü Vaşinqton və Brüsseldən üstün və ədalətli sayan vasitəçi Rusiyanın Ermənistan-Azərbaycan sülh danışıqlarında konkret nəticəyə nail olmaqdan başqa variantı yoxdur**

Azərbaycan və Ermənistan arasında davam edən sülh dialoqunun bu raundunda Rusiyanın boynuna götürdüyü öhdəliklər; Moskvanın tərəflər arasında əsas vasitəçi kimi atacağı konkret addımlar; Bakı və İrəvanın şimal qonşularından gözləntiləri...

***Bu tezislər, eləcə də Kreml üçün həqiqət anı sayıla biləcək, Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli Moskva görüşünün görünən və görünməyən tərəfləri barədə fikirlərini qəzetimizin oxucuları ilə "Caliber.az" saytının siyasi analitiki Orxan Amaşov bölüşür.***



### *"Ermənistan özünün suverenliyini məhz kommunikasiya xətləri üzərində qurmağa çalışır"*

–Ermənistan baş nazirinin məlum mətbuat konfransındakı açıqlamaları daxili elektoratı bu gün Moskvada müzakirəyə çıxarılacaq mövzulara və əldə olunması mümkün sayılan nəticələrə hazırlamaq məqsədini daşıyırdı. Nikol Paşinyan çox maraqlı siyasi operatordur, oyunçudur. Onda böyük dövlət xadimi xüsusiyyətlərinin olduğunu düşünmürəm. Amma daxili auditoriyanı manipulyasiya etmək, cəmiyyəti idarə etmək, özü üçün mümkün qədət lüks üstünlüklər qazanmaq istiqamətində, o, son iki il yarımda olduqca böyük vərdişlər əldə edib. Bu vərdişlərin, özünü ifadə etmək bacarığını Moskva görüşündəki fəaliyyətindən görəcəyik. Əgər sülh gündəliyinin müxtəlif parametrlərinə nəzər yetirsək, bizə elə gəlir ki, müəyyən bir dinamikanı görə bilərik. Burada əsas məsələ Rusiyanın eksklüzivliyinin tədricən zəifləməsidir. Bunu nədə müşahidə edirik? Birincisi, Moskva anlayır ki, sülh müqaviləsi istiqamətində dominant dinamika Brüsseldən və Vaşinqtondan gəlir. Bu, artıq etiraf olunur, Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun mayın 19-dakı çıxışında da qeyd edildi. Sülh və dövlətlərarası münasibətlərin təsis olunması ilə bağlı bir sənəd üzərində iş aparılır. Bu işin böyük hissəsi Vaşinqtonda görülüb, indi Moskvada da gedir. Sual ondan ibarətdir ki, bu, necə bir sənəd olacaq: çərçivə sənədi, yoxsa sülh müqaviləsi?

### *"Paşinyan sülh prosesində müsbət bir fikir söyləyəndə dərhal mürtəce reaksiya ilə üzləşdiyini görürük"*

Siyasi ekspertin qənaətinə görə, Paşinyan sülh dialoqunda hər dəfə hansısa mütərəqqi addımı atanda daxildən və xaricdən, müxtəlif cəbhələrdən təzyiqlərlə üzləşir:

– Ona təzyiq göstərən irticaçı kəsim ya Qarabağın separatçı klanı, ya da Rusiya ilə sıx təmaslara malik qüvvələr tərəfindən olur. Amma bu kəsim özündə Ermənistan cəmiyyətinin mütləq əksəriyyətinin fikrini əks etdirmir. Əgər biz Ermənistandakı ümumi ictimai fikirdən danışsaq, indi orada müəyyən bir rəy formalaşıb. 2021-ci ildə, yəni İkinci Qarabağ müharibəsindən sonra Ermənistanda seçkilər keçirildi və onda Paşinyanın reytinqi son dərəcə aşağı düşmüşdü. Buna baxmayaraq, o, seçkini uddu. Bu fakt onu göstərir ki, Nikol Paşinyan nə qədər nüfuzdan düşsə də, keçmiş Qarabağ klanına cəmiyyətin inamsızlığı və nifrəti o həddə idi ki, Paşinyan daha məqbul fiqur kimi görünürdü. Fəqət, bu, heç də o demək deyil ki, İrəvan sülhə hazırdır. Ən azı, revanşist koalisiya buna heç bir şəkildə inanmır. Ermənistanda bütövlükdə ictimai fikri tam ehtiva edən belə bir rəy var ki, bəli, biz müharibəni uduzmuşuq, Azərbaycan üstün mövqedədir. Amma sülh müqaviləsini nəyə görə yaxın üç-dörd ayda imzalamalıyıq? Axı bu mürəkkəb məsələdir, Qarabağ ermənilərinin hüquqları, təhlükəsizliyi nəzərə alınmalı, beynəlxalq mexanizm olmalıdır. Yəni, biz sülh prosesini nə üçün sürətləndirməliyik? İctimai rəydə belə bir amil də var: bəli, biz uduzmuşuq, məğlubiyyətimizi anlayırıq, amma gəlin sülh sazişini indi imzalamayaq. Çünki şərtlər dəyişə, bizim üçün yeni, müsbət konyuktura formalaşa bilər. Nikol Paşinyanın özü də ictimai fikrin bu hissəsi ilə razılaşır. Digər tərəfdən, bunu açıq şəkildə ifadə etməsə də, anlayır ki, əgər indiki tarixi məqamda, yəni üç-dörd aylıq vaxt çərçivəsində bir pəncərə açılıb. Vaşinqtonda, Brüsseldə görüşlər oldu və sülhə müəyyən zəmin, konstruktiv mühit yarandı. Və onu da başa düşür ki, məhz indiki şəraitdə sülh müqaviləsini imzalamaq Ermənistanın maraqlarına uyğundur.

### *"Sülh sənədini imzalamaq Paşinyandan iradə, siyasi qüvvələrin konsolidasiyasını tələb edir və özündə risk amilini daşıyır"*

Orxan Amaşov sülhə mane olan müxtəlif qüvvələrin ümumi spektrinə, eləcə də, onların hansı məqsədləri güddükləri məsələsinə də aydınlıq gətirdi:

– Burada bir çox amillər kombinasiya şəklində fəaliyyət göstərir. Birincisi, Ermənistan elektoratı 2021-ci ildə Paşinyana səs versə də, bu, müharibəni, keçmiş Qarabağ klanını rədd etmək istəyənlərin səsi idi. O elektorat sülhə hazır deyildi. İndi İrəvan sülhə müxtəlif formalarda məcbur edilə bilər. Yerlərdə vəziyyətin dəyişməsini, ictimaiyyətin danışıqların gedişindən qane olmamasını, Paşinyanın özünün bunu etiraf etdiyini gördük. Onun davranışında bu cəhətlər də özünü göstərdi. Parlamentə müraciət edən baş nazir bildirdi ki, real vəziyyət bundan ibarətdir: Əgər biz Moskvada müəyyən kompromislərə getməsək, vəziyyətimiz daha da pisləşəcək. Ardınca ona qarşı təzyiqlər, mitinqlər, ittihamlar başlayır, müxalifət ayağa qalxır. Sonra durum gərginləşir və Paşinyan yenidən parlamentə qayıdır. Bu çevrə qapanmalıdır. İndi buna real imkan yaranıb. Hesab edirəm ki, Moskva görüşündə Brüsseldə əldə edilmiş müəyyən razılıqlar təsdiqlənəcək, amma konkret hansısa sənədin imzalanmasını gözləmirəm.

Qarşıdakı iyun və iyul aylarında tərəflərin çərçivə sənədini imzalaması ehtimalı var. Yəni, Kişinyov və Brüssel görüşlərindən bunu gözləmək mümkündür. Sual ondan ibarətdir ki, həmin sənəd hansı formada imzalanacaq, onun parlamentlərdə ratifikasiyasına ehtiyac yaranacaqmı, Ermənistan üçün nə şəkildə hüquqi qüvvəyə malik olacaq? Təbiidir ki, bu, ayrı söhbətin mövzusudur.

### *"Rusiyada sülhə formal yanaşma var: Avropada, Amerikada danışıqlar apara bilərsiniz, amma imzalı sənəd bizim platformamızda olacaq"*

Siyasi ekspert güman edir ki, liderlərin Moskva görüşünün yekunu kimi, Rusiya tərəfinin təşəbbüsü ilə yeni üçtərəfli bəyanat imzalana bilər:

– Rusiya daim təkrarlayır ki, danışıqlar üçtərəfli formata uyğun aparılmalıdır. Bəli, üçtərəfli format vacibdir, amma bu format Brüssel və Vaşinqtonda reallaşan danışıqlara uyğun düzəlişlər edilməlidir. Düzəlişlər o şəkildə ola bilər ki, bu gün Moskvada imzalanmasını güman etdiyimiz bəyanata Vaşinqton və Brüssel xəttindəki yeniliklər də əlavə edilsin. Rusiyanın sülh prosesində inhisarçı mövqeyinə gəlincə, Kreml özü etiraf edir ki, Brüssel danışıqlarının nəticələri nəzərə alınacaq.

Azərbaycan və Ermənistan arasında kommunikasiya xətlərinin açılmasında da Rusiya aparıcı mövqeyə sahib olmaq istəyir. Amma Brüssel formatında keçirilən dialoqda kommunikasiya xətlərinin qarşılıqlı açılması suverenlik prinsipinə əsaslandığı vurğulanır. Azərbaycan Laçın yolunda özünün nəzarət-buraxılış məntəqəsini qurdu və eyni addımı İrəvana da təklif etdi. Nəzərə alsaq ki, Rusiya sülh prosesində eksklüzivlik hüququndan imtina etməyə hazırlaşmır, onda keçid dövrü üçün belə formulə tətbiq oluna bilər. Yəni, Rusiya komunikasiya xətləri üzərində nəzarətini qismən saxlayır, son nəticədə isə bu hüquq Ermənistana keçir. Bu, sadəcə bir ehtimaldır. Moskvanın ciddi təzyiq edəcəyi gözləniləndir. Qarabağda sülhməramlıların müvəqqəti yerləşdirildiyi ərazilərdə Azərbaycanın mövqeyinə uyğun addımlar atılmalıdır. Rusiya özünü erməni sakinlərin yaşadığı ərazidə təhlükəsizliyin və sabitliyin təminatçısı sayırsa, onların Bakı ilə dialoquna mane olmamalıdır. Bütün hallarda Moskva ikitərəfli və üçtərəfli sülh danışıqlarında əldə edilən irəliləyişlə razılaşmalı olacaq.

***Siyasi analitik Orxan Amaşov sülh dialoqunda Bakının ümidlərinin iyun, yaxud iyul aylarında gerçəkləşə biləcəyini proqnozlaşdırsa da, indi bütün diqqət sülh danışıqlarının kulminasiyadan "razvyazka"ya keçməli olduğu Moskvaya yönəlib. Əgər Rusiya bu prosesdə əsas vasitəçi statusunu qoruyub saxlamaq istəyirsə, sülhə doğru mütləq real addım atmalıdır. Kreml bu zaman özündə ona etiraz cürətini tapacaq İrəvanı ram etməkdən ötrü əlindəki bütün rıçaqları, eləcə də tutarlı "kopromat"ı dövriyyəyə buraxmalı olacaq. Bakı isə ondan, nəhayət, xoş məram və ədalətli final gözləyir.***

*Hazırladı:*
*İmran BƏDİRXANLI,*
*"Xalq qəzeti"*

# Suyu bulandıranlar



**Gözlənildiyi kimi, baş nazir Nikol Paşinyanın mayın 22-də keçirdiyi mətbuat konfransında Azərbaycanın 86,6 min kvadratkilometr ərazisinə Qarabağın da daxil olduğunu etiraf etməsindən sonra Ermənistandakı revanşistlərin və Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyəti zonasında yaşayan separatçıların ona etirazları güclənib. 44 günlük Vətən müharibəsi zamanı qorxudan qaçıb gizlənənlər, döyüşməyə cəsarəti çatmayanlar, müharibəni dayandırmaq xahişi ilə müxtəlif ölkələrin dövlət başçılarına, ələlxüsus, Rusiya Prezidentinə yalvaranlar indi gizləndikləri koğuşlardan çıxaraq və o günləri unudaraq dil pəhləvanlarına çevriliblər. Onlar ayrı-ayrılıqda bəyanatlar, müsahibələr verərək Paşinyanın yanaşmasının qəbuledilməz olduğunu bildiriblər.**

## Qarabağ klanı "bəlkə də qaytardılar" xülyasında

Baş nazirlə söz duelinə ilk olaraq, Qarabağ "parlamenti" çıxıb. Oyuncaq qurum Paşinyan mətbuat konfransında sözünü bitirər-bitirməz "növbədənkənar sessiya" çağırıb. Elə həmin axşam toplaşan və gecəyarıyadək davam edən "sessiya"nın qəbul etdiyi "bəyanat"da Paşinyanın Qarabağın Azərbaycanın tərkib hissəsi kimi tanınması ilə bağlı fikirləri rədd edilib. Bu "bəyanat"ı faktiki olaraq, ultimatum kimi də qəbul etmək olar. Orada N.Paşinyanın açıqlamalarının "Artsax respublikası"nda böyük hiddət və qəzəb doğurduğu, bu əsasda tərtib ediləcək hər hansı sənədin qəbuledilməz və dəyərsiz olduğu vurğulanıb. Həmçinin "bəyanat"-da bütün ermənilər Nikola fəlakətli addımlar atmağa imkan verməməyə, onun mövqeyini pisləməyə çağırılıb. Digər çağırış isə Ermənistanın keçmiş liderlərinə və Qarabağdakı eks-"qlavar"lara edilib: "Əks halda, sizin susmağınızı Ermənistanın baş naziri ilə razılaşma əlaməti kimi qiymətləndirəcəyik".

Bundan əlavə, Paşinyanın mövqeyini Qarabağın "parlament rəhbəri" Artur Tovmasyan da ayrıca pisləyib. O, bütün dünyadakı hayları, eləcə də Ermənistan ictimaiyyətini "Qarabağ ermənilərinin yaşamaq üçün sarsılmaz və qətiyyətli iradəsini" dəstəkləməyə çağırıb.

Gecə ultimatumundan sonra, demək olar ki, bütün indiki və keçmiş separatçı başçılar İrəvana qarşı çıxıblar. İlk olaraq son vaxtlar məlum qüvvələr tərəfindən yenidən aktivləşdirilən Ruben Vardanyan dillənib. O, Rusiyanın "Dojd" telekanalının efirində deyib: "Paşinyan hakimiyyətə gələndə söz verdi ki, heç kimin belə bir qərar verməyə haqqı olmayacaq, qərarı ancaq xalq verəcək. Hesab edirəm ki, bu bəyanat onun həm Ermənistan xalqının, həm də "Artsax xalqı"nın (?) boynuna biçməyə çalışdığı şəxsi fikridir". Ruben əlavə edib ki, çox sayda insan birləşərək referendum keçirilməsini tələb edəcək: "Müharibədə məğlub olan insanın həmin vəziyyətdən çıxması psixoloji cəhətdən çətindir. O başa düşmür ki, dedikləri təkcə Azərbaycanın ərazi bütövlüyünün tanınması deyil, bunun ardınca dayandırılması mümkün olmayan bir çox faciəli hadisələr baş verəcək. Onun etdikləri həm Qarabağda yaşayanlar, həm də Ermənistan üçün fəlakətli nəticələrə gətirib çıxaracaq. Qarabağda baş verənlər Ermənistanda baş verənlərə birbaşa təsir edəcək. Qarabağdan sonra növbəti mərhələ Ermənistanın işğalı (?) olacaq".

Ermənistandakı Qarabağ klanının başçıları, "miatsum" ("birləşmək") şüarı ilə əvvəlcə Xankəndidə, sonra İrəvanda hakimiyyəti mənimsəyərək, 25 il ərzində öz varidatlarını artırmaqla, şəxsi ambisiyalarını təmin etməklə məşğul olan Robert Koçaryan və Serj Sarkisyan da Paşinyanın bəyanatlarını pisləyib və onların həyata keçirilməsinin mümkünsüzlüyünü bildiriblər.

Qarabağın keçmiş "qlavarları" Arkadi Qukasyan və Bako Saakyan da yaydıqları birgə bəyanatda Ermənistan hakimiyyətinin siyasətini "qəbuledilməz" adlandırıblar: "Heç kimin bizim və uşaqlarımızın gələcəyinə dair qərar verməyə mənəvi haqqı yoxdur. "Artsax" Ermənistan baş nazirinin mayın 22-də təqdim etdiyi yanaşmaları qəbul etməyib və qəbul etməyəcək. Öz vətənində ləyaqətlə yaşamaq hüququ uğrunda mübarizəni, əvvəllər olduğu kimi, bundan sonra da bütün mümkün vasitələrlə davam etdirəcəyik".

## Arutyunyan da Paşinyana qarşı

Nəhayət, qondarma rejimin başçısı Arayik Arutyunyan da dilə gəlib. O, Ermənistan hakimiyyətinə müraciətində yenə də "müstəqillik, xalqın öz müqəddəratını təyinetmə hüququ və suverenlik" nağılından dəm vurub: "Vəziyyət çətindir, lakin ümidsiz deyil və "Artsax" hakimiyyəti xarici və daxili çağırışlarla üzləşməmək üçün mümkün praktiki addımlar atır və atacaq. Biz Ermənistan hakimiyyətini "Artsax"ı Azərbaycanın bir hissəsi kimi tanımaq üçün hər hansı hərəkət və bəyanatdan çəkinməyə çağırırıq".

O, Qarabağın daxili siyasi həyatına toxunaraq, son günlər gərginlik yaratmaq cəhdlərinin edildiyini diqqətə çatdırıb. Belə çətin böhran şəraitində "növbədənkənar prezident və parlament seçkiləri"nin təşkili ilə bağlı hər cür müzakirələri, son günlər "parlament sədri"nin təklif etdiyi etimad referendumunun təşkili ilə bağlı fikir mübadiləsini dayandırdığını deyib.

Maraqlıdır ki, Arutyunyan müraciətində Paşinyanın adını çəkməyib, sadəcə olaraq Ermənistan rəhbərliyinə çağırış edib. Digərlərindən fərqli olaraq, Arutyunyan Paşinyanı ermənilərin milli maraqlarına xəyanət etməkdə suçlamayıb.

Qarabağda son günlər fəallaşan Samvel Babayanın rəhbərlik etdiyi "Vahid vətən" partiyasının yaydığı bəyanatda isə deyilir: "Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması üzrə danışıqlar prosesinin "nailiyyətləri" o yerə çatıb ki, "Artsax" artıq satışdadır. "Artsax xalqı"nın (?) hüquqi və siyasi kollektiv iradəsinin pozulmasının hər hansı təzahürlərini, yaxud şıltaq sövdələşməni qətiyyətlə pisləyirik".

## Separatçılara dil verənlər

Göründüyü kimi, Azərbaycanla müharibə nəticəsində Ermənistanda və Qarabağda ciblərini dolduran, sadə ermənilərin övladlarının həlak olduğu, yaralandığı halda, müharibədən qazancla çıxan, obrazlı desək, bulanıq suda balıq tutanlar hazırda revanşist əhval-ruhiyyə ilə köhnə əyyama qayıtmaq xülyasındadırlar. Ancaq diqqət çəkən məqam ondadır ki, Ermənistan cəmiyyətinin və Qarabağ ermənilərinin heç də hamısı onların səsinə səs vermir. Əksinə, siyasi qüvvələri arasında Paşinyanın mövqeyini dəstəkləyənlər də yetərincədir.

Erməni xalqı Paşinyanın səsinə səs verərək 2018-ci ildə Qarabağ klanını Hayastan siyasi səhnəsindən süpürüb atıb. 2021-ci ilin iyununda növbədənkənar parlament seçkisində haylar koçaryanlara, sarkisyanlara deyil, müharibəni uduzmuş Paşinyana etimad göstərdi. Paşinyan hazırda ölkənin legitim baş naziridir. Xalq ona öz taleyini və Ermənistan dövlətinin gələcəyini etibar edib.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev** də "Xalq qəzeti"nə açıqlamasında Paşinyana etiraz edənlərin böyük potensialının olmadığını bildirib. Qeyd edib ki, burada geosiyasi amillər daha



çox rol oynaya bilər, nəinki daxildəki hansısa müqavimət göstərənlər: "Paşinyan müharibədən sonra növbədənkənar seçkilərə getdi, yenidən seçildi. Qarabağ məsələsi ilə bağlı etirazlar keçən ilin aprelində Paşinyanın verdiyi açıqlamalardan sonra da var idi. Ona görə də ayrı-ayrı şəxslərin etiraz bəyanatları nəticəsində orada nəyinsə köklü şəkildə dəyişəcəyini gözləmirəm".

Fərid Şəfiyev hesab edir ki, terror aktları və çevriliş cəhdləri isə ayrı məsələdir: "Açığı, heç çevriliş də gözləmirəm. Amma Paşinyana və onun ətrafındakı adamlara terror və ya hansısa hücumlar ola bilər. Qarabağdakı ermənilərə gəldikdə isə onlar çoxdandır həlledici faktor deyil. Onların kimlər tərəfindən idarə olunduğu da məlumdur. Odur ki, yaranmış vəziyyətdə mən onları ümumiyyətlə, nəzərə almağın tərəfdarı deyiləm".

*Səxavət HƏMİD,*
*"Xalq qəzeti"*



# Heydər Əliyev-Azərbaycan dövlətinin qurucusu, milli neft strategiyasının banisi…

## SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə ulu öndərdən danışır

**Görkəmli geoloq Xoşbəxt Yusifzadə elmi-praktik fəaliyyətinin miqyası və önəmi ilə ölkəmizin neft sənayesinin canlı əfsanəsinə çevrilib. Bakı neftinin taleyini özünün həyat amalı seçən alimin ömrünün 70 ili Azərbaycan sənayesinin bu şöhrətli sahəsi ilə bağlı olub. Təkcə onu demək lazımdır ki, Xoşbəxt müəllim ölkəmizdə milyardıncı və 2 milyardıncı ton neftin hasil olunmasında iştirak etmiş nadir soydaşlarımızdan biridir.**



Milli neft geologiyasının lideri sayılan Xoşbəxt Yusifzadənin birbaşa iştirakı ilə Xəzər dənizinin Azərbaycan, Türkmənistan və Rusiya sektorlarında 20-dən çox neft və qaz yatağı kəşf olunub. Dünyada məşhur "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının aşkar edilib xarici şirkətlərlə birgə istismara verilməsi də bu böyük alimin adı ilə sıx bağlıdır. "Əşrəfi", "Qarabağ", nəhəng "Şahdəniz" qaz-kondensat, iri "Abşeron", "Ümid" kimi yataqların kəşf edilməsində də onun xidmətləri danılmazdır. Bütün bunların dəyəri olaraq 2022-ci ilin dekabrından geoloq alimin şərəfinə quraşdırılmış "Akademik Xoşbəxt Yusifzadə" tankeri Xəzərdə neftdaşıma donanmasına daxil edilib. Bununla, Xoşbəxt müəllim sağlığında gəmiyə adı verilmiş ilk soydaşımız sayılır.

Uzun illərdən bəri dənizdə neftçıxarmanın rəhbərlərindən biri olmuş, müstəqillik illərində isə Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti vəzifəsində çalışan akademik Xoşbəxt Yusifzadənin karyera və şöhrət yolu ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövrü və Moskvada ali dövlət postunda çalışdığı illərlə sıx bağlı olub. Beləliklə, "Heydər Əliyev ili"ndə növbəti müsahibimiz ulu öndərlə uzun illər yaxın ünsiyyətdə olmuş, onun rəhbərliyi altında çalışmış, etimadını yüksək səviyyədə doğrultmuş kadrlardan biri – neft sənayesinin qocaman fatehi Xoşbəxt Yusifzadədir.

**– Sizinlə, "Heydər Əliyev ili"nin – 2023-cü ilin may ayında görüşürük. Aradan keçən illər bu tarixi şəxsiyyətin necə böyük ideya və əməllərə sahib olduğunu dönə-dönə xatırladır. Heydər Əliyevlə ilk görüşünüzü necə xatırlayırsınız?**

–Adı dünyanın müasir tarixinə müstəqil Azərbaycan dövlətinin qurucusu kimi yazılmış Heydər Əliyev təmsil etdiyim yaşlı nəslin gördüyü və yaxşı tanıdığı ən parlaq, ən zəkalı və ən müdrik insan, həm də mürəkkəb dünya siyasətində ən görkəmli simalardan biri idi. Onunla ilk tanışlığım 1967-ci ildə olmuşdu. Ulu öndər o vaxt Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri idi. Türkiyənin o zamankı Baş naziri Süleyman Dəmirəl Moskvada keçirdiyi rəsmi görüş və danışıqlardan sonra Azərbaycana gəlmişdi. Bu zaman o, dəniz neftçilərinin işi ilə tanış olmaq istəmişdi. Süleyman Dəmirələ dəniz yataqları barəsində məlumat vermək isə mənə həvalə olunmuşdu.

O vaxt hörmətli qonağı Qum adasında müşayiət edən rəsmi şəxslərdən biri də DTK sədri Heydər Əliyev idi. Onda Türk dünyasının iki böyük oğlu ilə bir gündə tanış olmuşdum. Sonralar bizim çox görüşlərimiz oldu. Tale mənə bütün həyatını Azərbaycan xalqının tərəqqisinə həsr etmiş bu unudulmaz insanın istəklərini gerçəkləşdirməkdə yaxından iştirak etmək, tapşırıqlarını yerinə yetirmək, rəğbətini qazanmaq və ondan yüksək diqqət və qayğı görmək xoşbəxtliyini nəsib edib.

**–Heydər Əliyevin 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçilməsi ilə cəmiyyətdəki hərtərəfli canlanma və yüksəliş neft sənayesindən də yan keçmədi. Neft sənayesinin yenidən inkişafı, Azərbaycan neftinin itirilmiş şöhrətini bərpa etmək uğrunda mübarizə ... Yadınızda qalanlardan danışın.**

– Ötən əsrin altmışıncı illərində Azərbaycana gələn xarici qonaqların əksəriyyəti dənizdəki neft mədənlərini görmək, neftçilərimizlə görüşüb söhbət etmək istəyirdilər. Bir az əvvəl adını çəkdiyim Türkiyənin o zamankı Baş naziri Süleyman Dəmirəlin 1967-ci ilin sentyabrında Bakı səfərində maraq göstərdiyi sahələrdən biri də bu idi. Bu, təbii bir istək idi, çünki Azərbaycan dənizdə neftçıxarmanın pioneri kimi böyük şöhrət qazanmışdı. Amma bununla belə, həmin illərdə respublikamızın neft sənayesində vəziyyət ürəkaçan deyildi. Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayanda respublika iqtisadiyyatının bütün sahələrində, o cümlədən neft və qaz sənayesində böyük tənəzzül hökm sürürdü. Belə təsəvvür yaranırdı ki, Azərbaycan nefti daha heç kəsi maraqlandırmır və Moskva respublikada neft sənayesinin inkişafına vəsait ayırmaq istəmir.

Belə bir vaxtda - 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçilmiş Heydər Əliyev geriliyi aradan qaldırmaq üçün mübarizəyə başladı. 1970-ci ildə Azərbaycan KP MK-nın plenumunda Heydər Əliyevin məruzəsi də göstərdi ki, respublika rəhbərliyi neftimizin itirilmiş şöhrətini bərpa etmək, iqtisadiyyatı sürətlə inkişaf etdirmək xəttini götürmüşdür. Həmin plenumu mən yaxşı xatırlayıram və yadımdadır ki, məruzəsində Heydər Əliyev neft sənayesinin işini ətraflı təhlil etdi, uzunmüddətli geriliyin səbəblərini göstərdi, görüləcək işlərin proqramını verdi. Beləliklə də hərtərəfli düşünülmüş, qlobal tədbirlərin həyata keçirilməsinə start verildi. Ötən əsrin 70-80-ci illərində neft sənayesi üçün müxtəlif təyinatlı 400-dən çox gəmi alındı. Bunların arasında kran gəmiləri, o cümlədən 2500 ton gücündə "Azərbaycan" kran gəmisi, borudüzən və seysmik gəmilər, sərnişin gəmiləri və s. var idi. O vaxt dünyada analoqu olmayan Dərin Dəniz Özülləri Zavodu inşa edildi. Geoloji-kəşfiyyat işləri üçün neftçilərin sərəncamına əvvəlcə "Xəzər" özüqalxan qazma qurğuları, sonra isə "Şelf" tipli üzən qazma qurğusu verildi...

Bütün bunlar 1970-ci ildən bilavasitə dənizin içərilərinə doğru istiqamətləndirilmiş mühüm təşkilati tədbirlərin məntiqi davamı idi. Həmin il Azərbaycanın Neft Sənayesi Nazirliyi ləğv olundu və əvəzində "Azərneft" və "Xəzərdənizneft" istehsalat birlikləri yaradıldı. SSRİ Neft Sənayesi Nazirliyi Azərbaycan neftçilərinin dəniz şəraitindəki iş təcrübəsini nəzərə alaraq, Xəzərin bütün sektorlarında – İranla sərhəddən Şimali Xəzərədək uzanan çox geniş bir ərazidə geoloji-kəşfiyyat, qazma, işlənmə, istismar işlərini və s. bizə həvalə etdi. Beləliklə də Xəzərin dərinliklərində neft və qazla zəngin yataqların kəşf edilməsinə imkan yarandı. İndi adları dünyada məşhur olan "Günəşli", "Azəri", "Çıraq", "Şahdəniz", "Kəpəz" yataqları kəşf olundu.

**–Demək istəyirsiniz ki, az bir zamanda həyata keçirilən proqram xarakterli tədbirlər, o cümlədən neftçilərin dəniz şəraitindəki iş təcrübəsinin öyrənilməsi, onlara göstərilən qayğının və etimadın artırılması Azərbaycanın neft sənayesini də tənəzzüldən qurtardı!**

–Heydər Əliyevin rəhbərliyi dövründə respublikanın neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırıldı. Sovet İttifaqı dağılanadək dənizin Türkmənistan, Qazaxıstan və Rusiya sektorlarında da səmərəli kəşfiyyat işləri aparan Azərbaycan neftçiləri dənizdə 350-dən çox struktur aşkar etdilər. Onlar Xəzərin Azərbaycan sektorunda yeni yataqlarla yanaşı, dənizin Türkmənistan, Rusiya və Qazaxıstan sektorunda onlarca yeni yataqlar kəşf etdilər. Ötən əsrin 70-80-ci illəri neft sənayemizin tarixində, əsasən, bu faktlar və hadisələrlə yadda qalır. Həmin illərdə görülmüş işlərin, yaradılmış infrastrukturun müstəqillik dövründə respublikamız üçün çox böyük faydası oldu.

70-ci illərdə Azərbaycanın yüzlərlə neftçisi SSRİ-nin orden və medallarına, fəxri adlara layiq görüldü. Beş nəfərə Sosialist Əməyi Qəhrəmanı adı verilmiş, bir nəfər isə "Əmək şöhrəti" ordeninin hər üç dərəcəsi ilə təltif olunmuşdu. O illərdə mən də ulu öndərin diqqətindən kənarda qalmadım. Neft sənayesinin inkişafında xidmətlərim iki Qırmızı Əmək Bayrağı və bir "Şərəf nişanı" ordeni ilə qeyd edildi. Ulu öndər insanlara güvənirdi, eyni zamanda, onların zəkasını və əməyini çox yüksək qiymətləndirirdi.

**–Yeri gəlmişkən, qeyd edək ki, ümummilli lider həmişə sizə də güvənib, hətta ən mötəbər məclislərdə dəfələrlə bu böyük etimadın şahidi olmuşuq. Eyni zamanda, sizi mühüm vəzifələrə təyin edib və uzun illər onun rəhbərliyi altında işləmisiniz.**

–Heydər Əliyevin diqqət və qayğısını mən həmişə hiss etmişəm. 1970-ci ildə Azərbaycanda Neft Sənayesi Nazirliyi ləğv olunanda və "Xəzərdənizneft" İstehsalat Birliyi yaradılanda o, məni bu yeni qurumun baş direktorunun müavini - baş geoloq vəzifəsinə təyin etdi. İllər keçdi. Sovet İttifaqı dağıldı və müstəqilliyini elan etmiş Azərbaycanda Dövlət Neft Konserni - "Azərineft" təsis olundu. Bu qurumda mənə birinci vitse-prezident vəzifəsi təklif edildi və mən də təklifi qəbul etdim.

Yadımdadır, 1992-ci ildə Azərbaycan Dövlət Neft Konserninin əməkdaşlarından ibarət mütəxəssislər qrupu "Azəri" neft-qaz yatağının xarici şirkətlərlə birgə işlədilməsinə dair danışıqları davam etdirmək üçün ABŞ-ın Hyuston şəhərinə getmişdi. Orada eşitdik ki, Azərbaycanda hakimiyyət "cəbhəçi"lərin əlinə keçib və onlar neft sənayesində də bəzi dəyişikliklər ediblər. Konsern ləğv olunub, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) təsis olunub və Sənan Əlizadə konsernin prezidenti, mən isə birinci vitse-prezidenti vəzifəsindən azad edilmişik.

1993-cü il iyunun 15-də Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın ictimai-siyasi həyatında baş verən yeni dəyişiklik idi. Bu dövrdə ARDNŞ rəhbərliyində də dəyişiklik oldu. Natiq Əliyev şirkətin prezidenti təyin edildi. Ötən əsrin 60-cı illərinin sonlarından üzü bəri diqqət və qayğısını daim hiss etdiyim ulu öndər o vaxt mənə də böyük etimad göstərdi. Məni yenidən ARDNŞ-nin geologiya, geofizika və yataqların işlənməsi üzrə vitse-prezidenti təyin etdi. Bizim o qədər görüşlərimiz olub ki! Həmişə məni gülə-gülə qarşılayıb, gülə-gülə xoş təbəssümlə salamlayıb, işimi, təcrübəmi yüksək qiymətləndirirdi.

**–Ötən əsrin 90-cı illərində – böhranlı illərdə yeni milli neft strategiyası ideyasının ortaya çıxması hansı reallıqlardan doğurdu?**

–1991-ci ilin sonunda dünyanın siyasi xəritəsində böyük dəyişiklik baş verdi. Sovet İttifaqı dağıldı. Keçmiş müttəfiq respublikalar müstəqillik əldə etdilər. Azərbaycan da öz milli müstəqilliyini elan etdi. Lakin bu vaxt respublikada acınacaqlı bir vəziyyət yaranmışdı. Keçmiş ittifaq respublikaları ilə əlaqələr qırılmış, maliyyə və texniki təchizat məsələləri son dərəcə kəskinləşmiş, iqtisadiyyat iflic olmuşdu. Siyasi həyat qeyri-sabit idi, işsizliyin və yoxsulluğun səviyyəsi təşviş doğururdu. Belə bir mürəkkəb şəraitdə respublika iqtisadiyyatını neft-qaz sənayesi xilas edə bilərdi. Amma o dövrdə neft və qaz sənayesinin özü də ağır böhran içində idi.

Azərbaycanda müstəqilliyi, suverenliyi, dövlətçiliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir, - söyləyən ulu öndər yaxşı bilirdi ki, ağır vəziyyətdən çıxmaq üçün dünyanın nəhəng, qüdrətli şirkətlərini, onların maddi və texniki potensialını Azərbaycana cəlb etmək lazımdır. Amma bu olduqca çətin bir məsələ idi. Ən önəmlisi də zorən müharibəyə cəlb edilmiş və daxili çəkişmələrin tüğyan etdiyi, hakimiyyət böhranının yaşandığı bir ölkəyə gəlmək, burada iş görmək, sərmayə yatırmaq hər kəsin risk edəcəyi məsələ deyildi. Bu niyyətdə olanlar da böyük təşviş içərisində idilər. Yəni ki, sabitliyin olmadığı bir məkanda hansısa uğurlu və gələcəyi olan bir işdən danışmaq olduqca mücərrəd və ümidsiz idi.

Reallıq belə idi və o vaxt Azərbaycanda ikinci dəfə siyasi rəhbərliyə gələn Heydər Əliyev vəziyyətin mürəkkəbliyini hamıdan yaxşı görürdü. Ulu öndərin yeni neft strategiyası o vaxt onun gərgin düşüncələrinin məhsulu kimi meydana gəldi. Bu strategiyanın təməli isə "Azəri", "Çıraq", "Günəşli" (dərinsulu hissə) yataqları ehtiyatlarının mənimsənilməsinə başlamaqla qoyuldu.

**– Yəqin xatırlayırsız ki, neft-qaz hasil etmək üçün xarici şirkətlərlə işbirliyinin qurulması dünya təcrübəsində geniş yayılmış bir üsul olsa da, Azərbaycanda buna münasibət birmənalı deyildi.**

– "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin karbohidrogen ehtiyatlarının mənimsənilməsi məsələsi iki variantdan birini seçməyi tələb edirdi: ya gərək ölkəmizin maliyyə-iqtisadi vəziyyətinin düzəlməsi üçün 30-40 il gözləyəydik, ya da xarici neft şirkətlərini respublikaya dəvət etməliydik. Əslində, müharibə və daxili çəkişmələrin, eləcə də hakimiyyətsizliyin yoxsullaşdırdığı respublika bu işlərin öhdəsindən gəlmək gücündə deyildi. Buna görə də Azərbaycan Prezidenti bizi – neftçi mütəxəssisləri ətrafına toplayıb, məsələnin aydınlaşdırılmasının zəruriliyini qeyd etdi, məsləhətləşdi və nəticədə fikir belə oldu ki, xarici neft şirkətlərini ölkəmizə dəvət etmək lazımdır.

Qeyd etməliyəm ki, xarici şirkətlərlə işbirliyinin qurulmasından dünyanın demək olar ki, bütün neft ölkələri – ABŞ, Böyük Britaniya, Norveç və başqaları geniş istifadə edirlər. Bunun səbəbi məlumdur: neft sənayesi böyük sərmayə qoyuluşu tələb edir və heç bir ölkə, xüsusilə də dənizdə bu riskli işə təklikdə getmək istəmir.

Xatırladım ki, Xəzər dənizində xarici şirkətlərlə birlikdə iş görmək ideyası bizdə hələ keçmiş ittifaq dövründə – ötən əsrin 80-ci illərinin sonlarında meydana gəlmişdi. Danışıqların reallaşması Heydər Əliyevin respublika rəhbərliyinə ikinci qayıdışından sonra mümkün oldu. Bütün mürəkkəb məsələlər barəsində dünyanın 7 ölkəsinin 11 məşhur neft şirkəti ilə razılıq əldə edildi. 1994-cü il sentyabrın 20-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi və respublika Prezidenti cənab İlham Əliyevin bilavasitə iştirakı ilə işlənib hazırlanmış və tarixə "Əsrin müqaviləsi" kimi düşmüş məşhur saziş imzalandı. Bununla da Azərbaycanın yeni neft strategiyası həyata vəsiqə aldı. Yeri gəlmişkən deyim ki, Prezident Heydər Əliyevin fərmanı ilə 2001-ci ildən sentyabrın 20-si ölkəmizdə "Neftçilər Günü" kimi qeyd olunur.

*(ardı var)*

***Söhbəti hazırladı:***
***Namiq ƏHMƏDOV,***
***"Xalq qəzeti"***

# Azərbaycan Xalq Cümhuriyyəti erməni şovinizminə qarşı mübarizədə

**Çox gərgin və mürəkkəb beynəlxalq vəziyyətdə istiqlaliyyət əldə etmiş Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) xarici siyasətinin əsas istiqamətlərini beynəlxalq aləmdə gənc dövlətin tanınmasına nail olmaq və qonşu dövlətlərlə mehriban münasibətlər yaratmaq təşkil edirdi. Azərbaycan diplomatiyasının ilk addımı respublikanın suverenliyinin elan edilməsi haqqında qabaqcıl xarici dövlətlərə məlumat vermək oldu. Azərbaycan hökumətinin növbəti addımlarından biri 1918-ci il iyun ayının 4-də Osmanlı dövləti ilə sülh və dostluq müqaviləsinin imzalanması idi. Bu müqavilə cümhuriyyətin beynəlxalq nüfuzuna müsbət təsir göstərdi, onun ərazi bütövlüyünün, xalqın fiziki varlığının qorunub saxlanılması üçün zəruri addım oldu.**



Azərbaycan hökumətinin qarşısında duran ən çətin vəzifələrdən biri Ermənistanla normal qonşuluq münasibətləri yaratmaq idi. AXC-nin ciddi güzəştə getməsinə baxmayaraq nankor qonşumuz ərazi iddialarından əl çəkmirdi. O, Azərbaycanın əzəli torpaqları olan Zəngəzur, Naxçıvan və Qarabağa göz dikmişdi. Ermənistanın ərazi iddiaları iki qonşu dövlət arasında sərhəd mübahisələrinin dinc yolla nizama salınmasına mane oldu.

Regionda ziddiyyətləri olan Ermənistan Cənubi Qafqazda hegemonluq iddiasında idi.1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin bolşevik Rusiyası ilə münasibətləri gərgin idi. Azərbaycanın iqtisadi mənafeyi Rusiya ilə münasibətlərin normal olmasını tələb edirdi. 1919-cu ilin mart ayında N.Yusifbəylinin başçılığı ilə yaradılmış yeni Nazirlər Kabineti bir daha Rusiya ilə bərabərlik və müstəqillik əsasında qarşılıqlı münasibətlərin qurulmasını zəruri hesab edirdi. Lakin "böyük dövlətçilik" mövqeyindən əl çəkməyən bolşevik Rusiyası keçmiş imperiyanın ərazisində yaradılmış yeni dövlətləri tanımaqdan imtina edirdi.

1918-ci il oktyabr ayının 30-da Birinci dünya müharibəsində məğlub olan Türkiyə Mudros barışığının Azərbaycan üçün də çox ağır olan şərtlərinə görə ordusunu Azərbaycan ərazisindən çıxarmalı idi. Müttəfiq ordularının komandanı general Tomson türk komandanlığına bir həftə ərzində Bakını, bir ay ərzində isə bütün Cənubi Qafqazı tərk etmək barədə ultimatum verdi. Noyabr ayının 17-də general Tomson başda olmaqla, ingilis qoşunları Bakıya daxil oldular. O, bir neçə gün Bakıda vəziyyətlə tanış olduqdan sonra bildirdi ki, Britaniya komandanlığı Azərbaycan hökumətinə böyük hörmət bəsləyir.

Dəyişilmiş şəraitə uyğun olaraq, Azərbaycan Milli Şurasının öz fəaliyyətini bərpa etməsi və parlamentin fəaliyyətə başlaması AXC-nin çevikliyini, ağır vəziyyətdən çıxmaq bacarığını sübut etdi. General Tomson 1918-ci il dekabrın 26-da yaradılmış yeni hökuməti iki gün sonra tanıdığını bildirdi.

Bakıda fəaliyyət göstərən erməni və rus milli şuraları, digər mürtəce qüvvələr "Vahid və bölünməz Rusiya" şüarı altında çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətini devirməyə çalışırdılar. Onlar bu məqsədlə 1919-cu ilin yanvar ayında L. Biçeraxov başda olmaqla Qafqaz-Xəzər dövləti yaratdılar. Azərbaycan hökuməti 1919-cu il fevralın 28-də müttəfiq dövlətlərin komandanlığına nota verdi. Notada Biçeraxovun qoşunlarının şəhərdən çıxarılması və erməni hərbi birləşmələrinin tərksilah olunması tələb edilirdi. İngilis komandanlığı Azərbaycan hökumətinin tələblərini müdafiə etdi. Biçeraxovun dəstəsi bir gün ərzində Bakıdan çıxarıldı, erməni birləşmələri tərksilah edildi və buraxıldı.

Azərbaycan hökumətinin ən vacib məsələlərindən biri respublikanın beynəlxalq aləmdə tanınmasına nail olmaq idi. Hökumət 1918-ci il dekabrın 28-də Paris Sülh Konfransında iştirak edəcək nümayəndə heyətinin tərkibini təsdiq etdi. Nümayəndə heyətinin sədri Ə.M.Topçubaşov, üzvləri M.Hacınski, Ə.Ağayev, Ə.Şeyxülislamov, C.Hacıbəyli, M.Mehdiyev, M.Məhərrəmov oldular. Nümayəndə heyətinə Paris Sülh Konfransında respublikanı təmsil etmək, Azərbaycan Respublikasının de-fakto tanınmasına nail olmaq, Azərbaycanın milli mənafeyini və suverenliyini qorumaq səlahiyyətləri verilmişdi.

Azərbaycan məsələsi ilk dəfə mayın 2-də İngiltərə, ABŞ, Fransa və İtaliya dövlət başçılarının görüşündə müzakirə edildi. ABŞ prezidenti Vidro Vilson Azərbaycan nümayəndəliyinin Paris Sülh Konfransına buraxılmasının əleyhinə çıxış etdi. Mayın 28-də nümayəndə heyəti V.Vilson tərəfindən qəbul edildi. Görüş zamanı Azərbaycan Respublikasının memorandumu V.Vilsona təqdim edildi. Danışıqlar zamanı yerli şəraiti öyrənmək üçün Cənubi Qafqaza ABŞ-ın xüsusi nümayəndəsinin göndərilməsinin məqsədəuyğun hesab edilməsi söylənildi.

Ermənistan hökuməti ABŞ vasitəsilə Azərbaycana olan ərazi iddialarına nail olmaq istəyirdi. Lakin yerlərdə vəziyyətlə ətraflı tanış olan V.Laskel avqust ayının 29-da Bakıda apardığı danışıqlarda Qarabağ və Zəngəzurun Azərbaycana məxsus olduğunu bildirdi. Naxçıvan, Şərur və Dərələyəzdə ABŞ general-qubernatoru tərəfindən idarə olunan neytral zona yaradılmasını təklif etdi. Oktyabrın 24-də Naxçıvanda ABŞ general-qubernatorluğunun yaradılması və Amerika polkovniki E.Dellinin buraya qubernator təyin edilməsi barədə V.Laskelin bəyanatı elan edildi. Lakin Azərbaycan hökumətinin qəti mövqeyi, Naxçıvan əhalisinin ciddi müqaviməti amerikalıların planlarını puç etdi. Polkovnik Delli isə Naxçıvanda Paris Sülh Konfransının nümayəndəsi kimi fəaliyyət göstərdi.

1919-cu ilin yayında Kolçakın və Denikinin ordularının qələbələri müttəfiq dövlətlərin Omsk hökumətini tanımasını sürətləndirdi. Antanta ölkələrinin Ali Şurası iyun ayının 12-də Omsk hökumətinin tanınması və ona hərtərəfli yardım göstərilməsi barədə nota ilə çıxış etdi. Azərbaycan, Gürcüstan və Şimali Qafqaz respublikaları sülh konfransına etiraz notası göndərdilər. Onlar Kolçak hökumətinin tanınmasının gənc respublikaların həyati mənafeyinə toxunduğunu bildirdilər. 1919-cu ilin payızında Kolçakın ve Denikinin ordularının Rusiya tərəfindən məğlub edilməsi beynəlxalq şəraiti dəyişdirdi. Böyük Britaniyanın baş naziri Lyold Core noyabr ayının 12-də İngiltərə parlamentində çıxışı zamanı Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınmasının mümkün olduğunu bildirdi. O, həmin ideyasını Paris Sülh Konfransında da təkrar etdi. Nəhayət, 1920-ci il yanvarın 11-də Böyük Britaniyanın xarici işlər naziri Lord Kerzonun təklifi ilə Antantanın Ali Şurası Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini de-fakto səviyyəsində tanıdığını bildirdi.

Cənubi Qafqaz Seymi dağıldıqdan sonra yeni yaranmış dövlətlərin sərhədlərini müəyyən etmək zərurəti meydana çıxmışdı. Ermənistan dövləti öz mövcudluğunun ilk günlərindən Azərbaycana təcavüz etməyə, qədim Azərbaycan torpaqlarını işğal etməyə çalışırdı. 1918-ci ilin yayında türk xalqlarının qəddar düşməni Andronik 8 min nəfərlik hərbi qüvvə ilə Zəngəzura hücum etdi. O, Zəngəzur əhalisindən Ermənistan hökumətinə tabe olmağı, ya da Zəngəzuru boşaltmağı tələb etdi. Azərbaycanın digər bölgələrindən ayrı düşmüş silahlı qüvvələr də bu təklifi rədd etdilər.Andronikin quldur dəstəsi Azərbaycan kəndlərini dağıdır, yandırır, dinc əhalini vəhşicəsinə öldürürdü. Daşnaklar 1918-ci ilin sonlarında Zəngəzurda 115, Cavanşir, Şuşa qəzalarında 21, İrəvan quberniyasında 60-dan çox Azərbaycan kəndini məhv etdilər. 100 mindən çox azərbaycanlı öz doğma yurdlarından qovuldu.

Azərbaycan hökuməti Andronikin dəstələrinin Zəngəzurda və Qarabağda törətdikləri quldurluğun qarşısını almaq üçün təcili tədbirlər gördü. Hökumətin 1919-cu il 15 yanvar tarixli iclasında Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları hüdudlarında Qarabağ general - qubernatorluğu vəzifəsinin təsis edilməsi qərara alındı. General - qubernator təyin edilmiş Xosrov bəy Sultanov fevral ayının 12-də Şuşa şəhərinə gələrək öz vəzifəsinin icrasına başladı. Andronik Gorus şəhərini ələ keçirib ermənilərin "Kiçik Ermənistan"ın paytaxtı adlandırdıqları Şuşa şəhərini tutmağa üç dəfə cəhd göstərdi. Azərbaycanın özünü müdafiə qüvvələri Zabux dairəsində Andronikin quldur dəstələrini darmadağın etdilər. Onu böyük itkilərlə Gorusa çəkilməyə məcbur etdilər.

1919-cu il fevralın 23-də Andronik yenidən böyük bir dəstə ilə Gorusdan Dığ istiqamətinə hərəkət edərək, bütün Zəngəzuru ələ keçirməyə çalışsa da Xosrov bəy Sultanovun qətiyyətli mövqeyi və tədbirləri onu yenidən Azərbaycan ərazisini tərk etməyə məcbur etdi.1919-cu ilin iyun ayında Şuşada erməni Milli Şurasının fitnəkarlığı nəticəsində silahlı toqquşma baş verdi. X.Sultanov erməni Milli Şurasının üzvlərinin Azərbaycanı tərk etmələrinə nail oldu. Azərbaycan hökuməti Qarabağda qan tökülməsinin qarşısını aldı. Erməni millətçilərinin "Dənizdən -dənizə Böyük Ermənistan" planlarına Naxçıvan torpaqları da daxil idi. 1918-ci ilin may-avqust aylarında Andronik 8 min nəfərlik quldur dəstəsi ilə Naxçıvana soxulub "etnik" təmizləmə adı ilə kəndləri top atəşinə tutur, yerli əhalini vəhşicəsinə öldürürdü. Avqust ayının 7-də K.Qarabəkir paşanın başçılığı ilə türk ordusu Naxçıvana daxil oldu. Bununla da Andronik dəstələrinin Naxçıvandakı özbaşnalığına son qoyuldu.

Birinci dünya müharibəsində Türkiyənin məğlub olması türk qoşunlarını noyabrın 1-də Naxçıvanı tərk etməyə məcbur etdi. Naxçıvan bölgəsinin Ermənistan tərəfindən işğal olunması təhlükəsi yerli azərbaycanlıların Araz-Türk Respublikası yaratması ilə nəticələndi. Azərbaycan hökuməti Naxçıvanın müdafiəsi üçün təcili tədbirlər gördü. 1919-cu il fevral ayının 28-də hökumətin qərarı ilə Naxçıvan general-qubernatorluğu yaradıldı. Bəhram xan Naxçıvanski general-qubernator vəzifəsinə təyin edildi.

Ermənilərin Naxçıvan torpaqlarına yiyələnmək cəhdləri 1919-cu ilin yazında daha da qüvvətləndi. İngilis komandanlığının razılığı ilə 1919-cu il may-iyul aylarında Naxçıvan bölgəsində erməni idarəçiliyi yaradıldı. Naxçıvan əhalisi buna kəskin etirazını bildirdi. İyul ayının 25-də Naxçıvan əhalisi güclü hücuma keçərək erməni qoşunlarını əzdi və onları qaçmağa məcbur etdi. Naxçıvan bölgəsindəki "erməni idarəçiliyi" iflasa uğradı.

1919-cu il noyabrın 23-də Tiflisdə Azərbaycanla Ermənistan arasında imzalanan sazişə görə tərəflər silahlı toqquşmanı dayandırmaq və mübahisəli sərhəd məsələsini dinc yolla həll etmək barədə razılığa gəldilər. Ermənistan sazişin şərtlərini pozaraq, yenidən Zəngəzura qoşun yeritdi. Ermənilər 50-dən çox Azərbaycan kəndini dağıdaraq əhalini qaçmağa məcbur etdilər. Azərbaycan ordusunun yerli partizan dəstələri ilə birgə səyləri nəticəsində ermənilərin Qarabağa soxulmaq planları pozuldu və 1920-ci ilin fevral ayında Zəngəzurda qısamüddətli sabitlik yarandı.

"Dənizdən-dənizə Böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan erməni millətçiləri Paris Sülh Konfransında da Azərbaycana qarşı ərazi iddialarından əl çəkmirdilər. Parisdə olan erməni nümayəndələri Ermənistanın ərazisini təkcə Türkiyənin 7 vilayəti hesabına deyil, həm də Gürcüstanın və Azərbaycanın hesabına genişləndirmək istəyirdilər. Onların sülh konfransına təqdim etdikləri ərazi tələblərinə qədim Azərbaycan torpaqları olan Zəngəzur, Qarabağın bir hissəsi və Naxçıvan bölgələri də daxil edilmişdi. Paris Sülh Konfransındakı erməni nümayəndələri Qarabağda, Zəngəzurda, Naxçıvan bölgəsində törətdikləri qanlı cinayətlərini azərbaycanlıların adına çıxarmaqla Azərbaycan Cümhuriyyətini nüfuzdan salmağa çalışırdılar.

Parisdə olan Azərbaycan nümayəndələri erməni–azərbaycanlı münaqişəsini tədqiq etmək üçün beynəlxalq istintaq komissiyasının təsis edilməsi məsələsini qaldırdı. Öz cinayətlərinin üstünün açılacağından qorxuya düşən ermənilər müxtəlif bəhanələrlə bu işi pozdular. Paris Sülh Konfransında ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, iftira və böhtanları Azərbaycan nümayəndəliyi tərəfindən qətiyyətlə dəf edildi.

***Elmar XƏLİLOV,***
***Sumqayıt Dövlət Universitetinin sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, dosent***

# Əfsanənin reallığa çevrildiyi gün

**(əvvəli 1-ci səhifədə)**

Ulu öndərin qalibiyyətli neft strategiyasının ardıcıl şəkildə həyata keçirilməsi üçün misilsiz xidmətlər göstərən Azərbaycan Prezidenti İlham Əliyevin gərgin əməyi sayəsində 2005-ci ilin yazında tikintisi başa çatdırılmış BTC xam neftin nəqli üçün hazır vəziyyətə gətirildi. 2005-ci il may ayının 25-də Səngəçal terminalında Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçılarının iştirakı ilə keçirilən mərasimdə neftin BTC-yə vurulmasına başlanıldı. Həmin gün terminalda quraşdırılmış xüsusi qurğudakı sürgü açıldıqdan sonra kəmərlə ilkin neft axmağa başladı. 2006-ci il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı. İyulun 4-də buradan xam neftlə yüklənmiş ilk tanker yola salındı. Həmin ayın 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihələrindən sayılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi.

2023-cü ilin birinci rübündə Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri vasitəsilə təqribən 53 milyon barel (təxminən, 7 milyon ton) xam neft nəql olunub. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,9 faiz çoxdur. Bütövlükdə isə, 1768 km uzunluğunda olan BTC boru kəməri 2006-cı ilin iyul ayında istismara veriləndən 2023-cü ilin birinci rübünün sonunadək, ümumilikdə, təqribən 4 milyard bareldən çox (539 milyon ton) xam neft nəql edilib. Həmin neft həcmləri Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan limanında 5314 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Hazırda BTC boru kəməri, əsasən, Azərbaycandan "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan hasil edilən xam nefti və "Şahdəniz" yatağından çıxarılan kondensatı daşıyır. Bundan əlavə, BTC vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan və Türkmənistan) də nəql olunur.

***"Xalq qəzeti"***



# DİN BMT qurumları ilə əməkdaşlıq edir



**Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 24-də BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin Mərkəzi Asiya üzrə nümayəndəsi xanım Aşita Mittalın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, nazir BMT-nin bir çox təsisatları ilə nazirlik arasındakı sıx əməkdaşlıq əlaqələrinin mövcudluğunu, ölkəmizin BMT-nin terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlığa, narkotiklərin dövriyyəsinə, qanunsuz miqrasiyaya və insan alverinə qarşı mübarizə üzrə müvafiq konvensiya və protokolların iştirakçısı olaraq, Təşkilatın bir çox xüsusi qurum və orqanları ilə faydalı əməkdaşlıq münasibətlərini davam etdirdiyini vurğulayıb.

Xanım Aşita Mittal Azərbaycanda təhlükəsizlik məsələlərinin uğurla həyata keçirildiyini, hüquq-mühafizə, o cümlədən polis orqanlarının bu istiqamətdə üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldiklərini xatırladıb. O, BMT-nin Azərbaycandakı strukturları ilə Daxili İşlər Nazirliyi arasındakı əməkdaşlığın bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

***"Xalq qəzeti"***



# Azərbaycan “yüksək insan inkişafı” ölkəsidir

**Müstəqillik illərində respublikamızın beynəlxalq aləmə inteqrasiyası, o cümlədən Birləşmiş Millətlər Təşkilatı (BMT) ilə əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi ölkəmizin dünyada nüfuzunu artırıb, iqtisadi potensialını gücləndirib. Bütün bunlar isə əhalinin rifahının daha da yüksəlməsini şərtləndirib. Nəticədə Azərbaycan yoxsulluğun yarıya qədər azaldılması öhdəliyini götürən 128 ölkə arasında bu təşəbbüsü gerçəkləşdirən 18 ölkədən biri olub, 2010-cu ildə “orta insan inkişafı” statusuna malik dövlətlər qrupundan çıxaraq “yüksək insan inkişafı” kateqoriyasında yer alıb.**

Respublikamız bütün bu uğurlara əsaslanaraq və BMT-nin Minilliyin Bəyannaməsinin davamı olaraq “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) qoşulub. Ötən illər ərzində DİM-in icrası ölkədə uğurla davam etdirilib, bu istiqamətdə dünyada 10 ölkədən biri, regionda isə ilk ölkə olan Azərbaycan tərəfindən BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna 3 hesabat təqdim edilib, növbəti hesabatın isə gələn il təqdim olunması nəzərdə tutulub.

Hazırda Minilliyin İnkişaf Məqsədlərinin uğurlu icrası nəticəsində Azərbaycanda yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə enib, ölkənin İnsan İnkişafı İndeksində göstəriciləri isə 30 faiz artıb.

Yeri gəlmişkən, xatırladaq ki, BMT və Azərbaycanın DİM-ə nail olmaq istiqamətində birgə tərəfdaşlığı nəticəsində ölkəmiz indiyədək dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə edən 17 məqsədi, 88 hədəfi və 119 göstəricini prioritetləşdirib. Bundan savayı, 2017 və 2019-cu illərdə iki Könüllü Milli Hesabat təqdim etməklə respublikamız bu sahədə MDB məkanında ilk ölkə olub. Beləliklə, Azərbaycan Hökumətinin ötən dövr ərzində həyata keçirdiyi tədbirlər sayəsində respublikamız “2030 Gündəliyi”nə sadiqliyini nümayiş etdirib.

Azərbaycan Hökuməti tərəfindən DİM-in icrasının institusional və siyasi baxımdan kompleks yanaşma tələb etdiyi nəzərə alınaraq, daha dayanıqlı, əhatəli və şaxələndirilmiş iqtisadiyyatın inkişafı, sosial sahələrin tarazlı tərəqqisinin gerçəkləşdirilməsi üçün səmərəli milli icra mexanizminin formalaşdırılması diqqət mərkəzində saxlanılır. Xatırladaq ki, 2016-cı ildə Prezident İlham Əliyevin BMT-nin Azərbaycan Hökumətinə göstərdiyi dəstəyin əlaqələndirilməsi üçün əsas tərəfdaş kimi fəaliyyət göstərən Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasına dair müvafiq fərman imzalaması da bunun əyani nümunəsidir.

Azərbaycan Hökuməti DİM-in bütün bəndlərinin reallaşdırılmasına xüsusi önəm verir. Məsələn, 16-cı DİM-in tələb etdiyi “Sülh, ədalət və səmərəli institutlar hökumətin və vətəndaş cəmiyyətinin koalisiyası”nı, başqa sözlə, “Açıq Hökumət” Proqramının icrasını zəruri edir. Bu zərurət DİM-in digər bəndlərində də tələb olunur.

Belə bir məqamda onu da deyək ki, uğurlu nəticələrlə yanaşı, korrupsiya yolu ilə əmlakın əldə edilməsi və ondan istifadə halları tam aradan qaldırılmayıb. Belə halların ölkənin iqtisadi inkişafına mənfi təsir göstərdiyini dəfələrlə bildirən Prezident İlham Əliyev 2023-cü il 28 fevral tarixli sərəncamı ilə “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nı təsdiqləyib.

Hazırda ölkəmizdə icrası diqqətdə saxlanılan layihələrdən biri “yaşıl iqtisadiyyat”ın inkişaf etdirilməsi ilə bağlıdır. Azərbaycanın regionda ilk dəfə BMT-nin forumuna təqdim etdiyi 3 könüllü milli hesabatda “yaşıl artım”a nail olunması ilə bağlı öhdəlik götürməsi də bu məqsədin prioritetliyindən irəli gəlir.

Azərbaycanın “yaşıl iqtisadiyyat”a önəm verməsi, eyni zamanda, respublikamızın bununla əlaqədar Paris sazişinə qoşulması ilə bağlıdır. Yeri gəlmişkən, həmin sənədə əsasən, baza ili 1990-cı il olmaqla 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyasının 35 faiz azaldılması əsas məqsəd kimi qarşıya qoyulub və artıq bu öhdəlik 40 faizə çatdırılıb.

Qeyd edək ki, 2050-ci ilə qədər xalis “sıfır emissiya”ya çatmaq üçün 2030-cu ilə qədər bərpaolunan enerji, texnologiya və infrastruktura ildə 4-6 milyon ABŞ dolları vəsaitin cəlb edilməsi nəzərdə tutulub.

İqtisadiyyat Nazirliyi tərəfindən artıq bu istiqamətdə fəaliyyətə başlanılıb. Bununla bağlı BMT-nin İnkişaf Proqramının Azərbaycan ofisi inteqrə edilmiş maliyyə çərçivəsində müştərək proqramın icrasına üstünlük verib. Bu proqram çərçivəsində investisiyaların ekosistemə müsbət təsirinin tədqiqi məqsədilə hesabatlar hazırlanıb.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

### Ekspert rəyi



**Emin BAĞIROV,**
**ETN-nin Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, fəlsəfə doktoru**

Azərbaycan hökuməti 10 illik “Azərbaycan 2030: Milli Sosial-İqtisadi İnkişaf” strategiyasına uyğun olaraq dayanıqlı və rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafına, inklüziv cəmiyyətin qurulmasına, insan kapitalının təkmilləşdirilməsinə, “yaşıl” inkişafa doğru irəliləməyə və infrastrukturun təkmilləşdirilməsinə daim sadiqlik nümayiş etdirir. Bu, Azərbaycanın 2017, 2019 və 2020-ci illər ərzində BMT-yə Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə dair ünvanladığı üç hesabatında da aydın nəzərə çarpır.

Xatırladım ki, Azərbaycan sonuncu hesabatda mövqeyini yaxşılaşdıraraq 50-ci yeri tutub. Qeyd etmək istəyirəm ki, respublika üzrə Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşdırılması üzrə növbəti hesabatın BMT-yə 2024-cü ilin iyun ayında təqdim olunması planlaşdırılıb.

Hazırda Dayanıqlı İnkişaf Məqsədlərinə investisiya cəlb edilməsi üçün İnvestisiya Xəritəsi layihəsi həyata keçirilir. Bundan əsas məqsəd beynəlxalq və yerli investorlar üçün Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə kapital yatıra biləcək yüksək potensiala malik sahələri müəyyənləşdirmək və bunun üçün tövsiyələr formalaşdırmaqdır.

Dayanıqlı İnkişaf Məqsədləri sırasında təhlükəli tullantıların saxlanılması və utilizasiyası, o cümlədən neft qalıqlarının təmizlənməsi də xüsusi yer tutur. Təhlükəli tullantıların idarə edilməsi, təmizlənməsi və saxlanılması xidmətlərini reallaşdıran müəssisələrin tikintisi və istismarı, o cümlədən neft qalıqlarının təmizlənməsi, burada yığılmış neft məhsulunun qalıqlarının müvafiq neft qalıqları təchizatçısına qaytarılması, yaxud bərk tullantı yanacağa çevrilməsi imkanları var.

Hesabatda infrastruktur sahələri üzrə investisiya imkanları üzrə təklif edilən digər sahə əsas ticarət marşrutları boyu ticarət-logistika mərkəzlərinin yaradılmasıdır. Məhsulların düzgün saxlanılmasını və bazarlara vaxtında, təhlükəsiz şəkildə çatdırılmasını gerçəkləşdirmək üçün bir məntəqədə saxlamaq, nəqliyyat və tranzit-gömrük xidmətlərini təklif edən əsas quru və dəmir yolu ticarət marşrutları ilə bağlı logistika mərkəzlərinə investisiya qoyuluşunu həyata keçirmək mümkündür.

Azərbaycan Hökumətinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi layihələr “Yaşıl enerji” və “Yaşıl iqtisadiyyata keçid” prinsiplərinə uyğundur. Bununla yanaşı, 44 günlük Vətən müharibəsindən sonra düşməndən təmizlənən ərazilərimizdə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir, soydaşlarımızın öz doğma torpaqlarına qayıdışı istiqamətində tədbirlər görülür. Həmin ərazilərə investisiyaların cəlb olunması çox vacib məsələlərdən biridir. Bu məsələnin də yer aldığı İnvestor Xəritəsinin və yaxud investisiya platformasının formalaşdırılmasının isə Azərbaycanda iqtisadi inkişafa öz mühüm töhfəsini verəcəyi gözlənilir.

**2022-ci ildə gömrük orqanlarının xətti ilə dövlət büdcəsinə 5 milyard 654,6 milyon manat məbləğində vəsait daxil olmuşdur ki, bu da 4 milyard 605 milyon manat proqnozla müqayisədə 1 milyard 49,6 milyon manat və ya 22,8 faiz, 2021-si illə müqayisədə 1 milyard 311,6 milyon manat və ya 30,2 faiz çoxdur.**

## Gömrük daxilolmaları 1 milyard manatdan çox artıb



Bu barədə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabatda bildirilib.

Hesabat dövründə gömrük orqanlarının xətti ilə proqnozla nəzərdə tutulduğundan artıq daxilolmalara səbəb əsasən idxalın həcminin əvvəlki illə müqayisədə 2 milyard 834,1 milyon ABŞ dolları və ya 24,2 faiz artması ilə izah olunur.

***“Xalq qəzeti”***

## Ötən il sosial-iqtisadi inkişafa 2,4 milyard manat xərclənib

**Ötən il Azərbaycanda “2022–2026-cı illərdə Sosial-İqtisadi İnkişaf Strategiyası”nın icrası üçün 2 milyard 418,7 milyon manat vəsait xərclənib.**



Bu barədə “2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat”da bildirilib. Sənədə əsasən, həmin vəsaitin 1 milyard 532,5 milyon manatı və yaxud 63,4 faizi cari xərclər, 610 milyon manatı və yaxud 25,2 faizi dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərclərindən, 276,2 milyon manatı və yaxud 11,4 faizi isə “Avtomobil Yolları” Məqsədli Büdcə Fondundan ayrılmış vəsait hesabına formalaşıb.

***“Xalq qəzeti”***

**2022-ci ildə dövlət əsaslı vəsait qoyuluşu və işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası xərcləri 5 milyard 945,8 milyon manat təşkil edib. Bu da əvvəlki ilə nisbətən 26,9 faiz artım deməkdir. Bu, “Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında” qanun layihəsinə və Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabata Hesablama Palatasının rəyi"ndə əksini tapıb.**

## Azad olunmuş ərazilərin dirçəldilməsinə 6 milyard manat sərf olunub



Hesabatda qeyd edilib ki, 2022-ci ildə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən, ümumilikdə, 4 milyard 311 milyon manat vəsait ayrılıb. Ötən il işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihələrinin icrasına dövlət əsaslı vəsait qoyuluşundan yönəldilmiş vəsaitin həcmi 467,1 milyon manat olub.

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üzrə icra edilən layihələrə əlavə olaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən hesabat ilinin oktyabr ayında 276 milyon manat, dekabr ayında isə 100 milyon manat, “Azərbaycan Dəmir Yolları” QSC tərəfindən isə 91 milyon manat yönəldilib.

Bütövlükdə isə, “Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nə daxil olan layihələrin icrası xərcləri üzrə ilin sonuna icra edilmiş məbləğ 2 milyard 665,41 milyon manat təşkil edib ki, bu da təsdiq edilmiş göstəricinin 99,8 faizinə bərabərdir.

***“Xalq qəzeti”***

# Bakı Enerji Həftəsi dünya energetikasına baxış olacaq

## *Müxtəlif tədbirlərdə 37 ölkədən 326 şirkət iştirak edəcək*

**(əvvəli 1-ci səhifədə)**

“Iteca Caspian” şirkətinin satış ürə direktoru Orxan Əhmədov bildirdi ki, Bakı Enerji Həftəsi çərçivəsində keçiriləcək tədbirlərdə 37 ölkədən 326 şirkət iştirak edəcək. Azərbaycanda beynəlxalq sərgilərin keçirilməsi təşəbbüsünün ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürüldüyünü diqqətə çatdıran O. Əhmədov dedi ki, 1994-cü ildə keçirilən ilk sərgidən etibarən ulu öndər bu mötəbər beynəlxalq tədbiri dəstəkləyərək onun daimi iştirakçısı olub. Qeyd olundu ki, ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi bütün sərgilərin proqramlarında öz əksini tapacaq. Bakı Enerji Həftəsinin təşkilatçıları və iştirakçıları Azərbaycanın sərgi sənayesinin formalaşmasında ümummilli liderin rolunu heç vaxt unutmur və xatirəsini dərin ehtiramla yad edirlər. Bu məqsədlə Bakı Enerji Həftəsi çərçivəsində Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş poçt markası buraxılıb. Eyni zamanda, tədbir çərçivəsində Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş stend nümayiş olunacaq.

Yeri gəlmişkən, ənənəvi olaraq bu il də Bakı Enerji Həftəsində yüksək rütbəli qonaqların iştirak edəcəyi gözlənilir. Bu barədə məlumat verən “Iteca Caspian” şirkətinin layihə rəhbəri Aynurə Nəzərli qeyd etdi ki, Bakı Enerji Həftəsinin bir çox dünya ölkələrindən olan şirkətləri, yüksək səviyyəli qonaqları, dövlət xadimlərini və beynəlxalq enerji ekspertlərini Bakıya toplaması təsadüfi deyil. Belə ki, Azərbaycan paytaxtı artıq uzun müddətdir ki, nüfuzlu tədbirlərin təşkil edildiyi, mühüm qərarların və əməkdaşlıq məsələlərinin müzakirə edildiyi məkana çevrilib. Bundan əlavə, Azərbaycanın enerji sahəsində həyata keçirdiyi uğurlu siyasət nəticəsində respublikamız təkcə özünün deyil, digər ölkələrin də enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Bakı Enerji Həftəsinin nüfuzunu və yüksək statusunu onun sponsorlarının genişlənən tərkibinin də təsdiq etdiyini vurğulayan A. Nəzərli bildirdi ki, SOCAR-ın baş sponsorluğu ilə keçirilən Bakı Enerji Həftəsinin sponsorları AbuDhabi Port, ACWA Power, Ansaldo Energia, AZEL SYSTEMS, Azeri M-I Drilling Fluids, AZFEN, Baku Steel Company, bp, Caspian Drilling Company, Caspian Marine Services, Equinor, EP Absheron, Intertek, Global Energy Azerbaijan, GL, Inpex, KOLIN Construction, MASDAR, Tekfen, Total Energies, Turkish Petroleum, Uniper, Ural Steel şirkətləridir. Bakı Enerji Forumunun intellektual tərəfdaşı qismində Boston Consulting Group çıxış edir. BMW brendini təmsil edən Improtex Motors şirkəti isə forumda yeni elektrik avtomobil modelini təqdim edəcək.

Qeyd olundu ki, “Caspian Oil&Gas” sərgisi artıq uzun illərdir ki, neft, qaz və enerji sektorunda əhəmiyyətli əməkdaşlıqlar üçün bir platformaya çevrilib. Hər il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin açılış mərasimində iştirakı isə sərginin yüksək statusunu bir daha təsdiqləyir. Uzun illər uğurla təşkil edilən sərgiyə ABŞ, Böyük Britaniya, Türkiyə və digər ölkələrin birinci şəxsləri öz təbrik məktubları göndərirlər. Eyni zamanda, Bakı Enerji Həftəsində, ənənəvi olaraq, yüksək rütbəli qonaqlar iştirak edirlər.

“Caspian Oil&Gas” sərgisində Xəzər regionunun əsas neft-qaz layihələri və regionda enerji təhlükəsizliyi müzakirə olunacaq. Sərginin əhatə etdiyi mühüm mövzulara neft və qaz yataqlarının işlənməsi, neft və qazın nəqli və hasilatı, boru kəmərinin təhlükəsizlik sistemlərinin təmin edilməsi, neft-qaz emalı, enerji sektorunda tikinti-quraşdırma işləri, innovativ texnologiyalar, maliyyə və hüquqi xidmətlər, kimya sənayesi və s. daxildir.




“Caspian Oil&Gas” ilə eyni günlərdə təşkil ediləcək Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi– “Caspian Power”də beynəlxalq və yerli şirkətlərin energetika və bərpaolunan enerji mənbələrinin inkişafı və istifadəsi sahəsindəki yeniliklər və bununla bağlı təkliflər əks olunacaq. Sərgidə günəş enerjisi, külək enerjisi, geotermal enerji, istilik energetikası, nüvə enerjisi, maşınqayırma və enerji avadanlıqları, elektrik nəqliyyat vasitələri və elektromobillər, enerji və resurslara qənaət edən texnologiyalar və digər mövzular müzakirə olunacaq.

Bu il təşkil olunacaq Bakı Enerji Həftəsi çərçivəsində Naxçıvan şəhərində mühüm mövzuları əhatə edən sessiyalar keçiriləcək. Belə ki, ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi sessiya şəhərin tarixi əhəmiyyətini əks etdirəcək. Bundan başqa, dövlət səviyyəsində Naxçıvanı “yaşıl enerji” zonasına çevirmək planlaşdırılır. Bu baxımdan sessiyalar zamanı Naxçıvana sərmayə qoyuluşu və enerji ixracı məsələləri müzakirə olunacaq.

Enerji həftəsinə Bakı Enerji Forumu ilə yekun vurulacaq. Forumda həm Azərbaycan, həm də Xəzər regionu üçün vacib olan enerji məsələləri müzakirə olunacaq. 600-dən çox nümayəndənin iştirak edəcəyi tədbir zamanı keçid dövründə qlobal enerji təhlükəsizliyi, Azərbaycanın enerji sektorunun Avropanın enerji təhlükəsizliyi və enerji balansında rolu və s. daxil olmaqla keçid dövründə yeni enerji şərtləri ilə bağlı müzakirələr aparılacaq. Yeni qlobal enerji nizamının inkişaf ssenarilərinə həsr olunmuş “dəyirmi masa”da isə qlobal enerji keçidi prosesi, enerji böhranı zamanı enerji keçidinin sürətləndirilməsi yolları kimi mövzular müzakirə olunacaq. Bundan əlavə, tədbir zamanı Xəzər regionunun bərpaolunan enerji mənbələri və potensialı, onlardan istifadə imkanları, bərpaolunan enerji mənbələrinin infrastrukturunun inkişafı, “yaşıl enerji” sahəsində həyata keçirilən layihələr də diqqət mərkəzində olacaq.

Qeyd edək ki, Xəzər regionunun ən nüfuzlu enerji tədbiri olan Bakı Enerji Həftəsinin təşkilatçısı Böyük Britaniyanın “Iteca Caspian”, və “Caspian Event Oraganisers” və onların beynəlxalq tərəfdaşları olan “ICA Events”, CEM FZ LLC şirkətləridir. Bundan əlavə, Azərbaycan Respublikasının Energetika Nazirliyi və SOCAR tədbirə rəsmi dəstək göstərəcək.

***Mirbağır YAQUBZADƏ,***
***“Xalq qəzeti”***

# Təbatəbailər Güney Azərbaycanda

**NATO-nun düşüncə mərkəzlərindən biri olan RAND korporasiyasının ötənilki hesabatında təqdimatın altında "Ariana Təbatəbai" imzası qoyulmuşdu. Təbatəbai soyadı Azərbaycan dini düşüncə tarixinə, xüsusilə də Güney Azərbaycanda milli azadlıq hərəkatının və şiə dini inancının tarixçəsində xüsusi yer aldığına görə diqqətimizi cəlb etdi.**

RAND Korporasiyası "bütün dünyada icmaları təhlükəsiz, daha sağlam və firavan etməyə kömək etmək üçün ictimai siyasət problemlərinin həlli yollarını araşdıran, inkişaf etdirən" tədqiqat qurumudur. Qeyd etdiyimiz politoloji yazıda Rusiya, İran və Çin münasibətləri təhlil olunurdu. Bizi maraqlandıran isə tədqiqatın müəllifi oldu.



"Tərəfsiz və obyektiv" RAND korparasiyasının təhlilçisi düşüncələrini vizuallaşdırmaq üçün İran Xorasanında yaşayan bir qohumu, fotoqraf Nazənin Təbatəbainin bir kompozisiyasını da saytda yerləşdirmişdi. Şəkildəki yazıda oxuyuruq: "İran Süleymaninin öldürülməsinə necə cavab verəcək və eskalasiya harada bitəcək?" Çox duyğusal bir mənzərədir. Avropanın mühüm düşüncə mərkəzlərində ekspert olaraq qəbul edilən bu gənc babalarının klan ənənələrinə sadiq qalaraq mühacirət həyatı yaşasa da irançılıq təəssübünü itirməmiş və onu yeni imkanlar və şərtlər daxilində yaşatmaqdadır.

Kimdir bu ekspert? O, 1945-ci ildə Təbriz şəhərində ruhani ailəsində anadan olmuş Cavad Təbatəbainin qızıdır. "Azərbaycan Təbatəbailəri" kimi tanınan bu ailədə ana dilini bilmirlər və bir sıra hallarda bu dilə nifrət etdiklərini də gizlətmirlər. Cavad Təbatəbai Azərbaycan Milli Hərəkatının qələbəsindən 3 gün sonra anadan olmuş və az bir müddətdən sonra ailə Qum şəhərinə köçmüşdür.

Cavad Tehran Universitetini bitirmiş, professor olaraq uzun müddət çalışmış, Hegel fəlsəfəsindən doktorluq müdafiə etmiş, İslam Ensiklopediyasının baş redaktoru olmuşdur. Bu alim də ABŞ-da yaşamasına baxmayaraq, irançılıq və fars hegemonlugu düşüncəsindan kənara çıxa bilməmişdir. Lakin bəzi təhlilçilər onu liberal və millətçi adlandırmışlar.

Kimdir bu təbatəbailər? Bəzi mənbələr hesab edir ki, onlar Bağdaddan XIX əsrin əvvəllərində İrana gəlmiş və ilk olaraq Kaşan şəhərində məskunlaşmışlar. Belə ki, Bağdadda, Nəcəfdə bu nəslin davamçıları uzun müddət şiə alimləri kimi tanınmışlar. Seyid Cəfər Təbatəbai 1835-ci ildə özünə İranın Kaşan şəhərinin mərkəzində inşası 10 il çəkən böyük bir imarət tikdirmişdir. Bu imarətin Huma quşu əfsanəsini xatırlatması göstərir ki, onun sahibləri İraqdan gəlmiş ərəb olsalar da, Sasani dövrünün ənənələrinin qoruyucusudurlar. Kaşanda tikilən bu imarət "Təbatəbailər evi" kimi tanınır. Bir hissəsi xalça alverçisi olan bu ailə Təbriz şəhərində də yaşamış, onların Azərbaycan türkləri ilə uzun və maraqlı əlaqələri olmuşdur.

Bir qədər də qədimə getdikdə məlum olur ki, İran və fars hegemonlugunu



müdafiə edən bu ailə, əslində, ərəb kökənlidir. Şəcərələrində göstərilir ki, Sadat Tabatəbai nəsli Həsən bin Əliyə qədər davam edən bir ailədir. Təbatəbailərin əcdadı İbrahim, deyilənlərə görə, nitqində olan qüsura görə "Kəbə" əvəzinə, "Təbə" tələffüz edərmiş və bu səbəbdən də onun davamçıları Təbətəbailər adlandırılmışlar. İran cografiyasında məskunlaşmış bu ailənin bəzi üzvləri "Diba" və "Kia" soyadı da daşımışlar ki, bunların da hər birinin ayrıca tarixçəsi var.

Sadat ailəsindən İraqa köçmüş Əl Həkim və Zəvari Tabətabailəri isə sonralar Azərbaycana və Təbrizə gəlmişlər. Bu ailənin üzvləri Börücərd, Yəzd, Təbəristan, Diləm, Rey şəhərlərinə də yerləşmişlər. Uzun müddət biri-biri ilə qız verib-almaq yolu ilə qohumluqlarını saxlayan bu tayfa müxtəlif siyasi, ideoloji və bəzi iqtisadi layihələrin mərkəzində olmuşlar. Çox dərinə getmədən qeyd edək ki, Yəməndəki Husi idealogiyası da bu tayfa ilə bağlıdır.

Dövlət çevrilişi, dini nəzəriyyəçilik, ölkə rəhbərliyi, professorluq, diplomatiya, xəyanət kimi hadisə və mövqelər bu ailənin varlığında özünü geniş göstərir. Avropa tarixində Mediçi ailəsinə bənzər bir klan modeli qurmuş təbatəbailər Güney Azərbaycanda xüsusi nüfuz qazanmışlar. Lakin Mediçilər kimi tarxi abidələr, muzeylər, sənət əsərləri, mədəniyyət abidələri miras qoymamışlar.

Qeyd olunduğu kimi, Təbatəbailər Güney Azərbaycanda XIX əsrin II yarısından fəal yer tutmaga başlamışlar. Nəsrəddin şahın icazəsi ilə 1858-ci ildə Melkom xanın (erməni əsilli) təşkil etdiyi "Fərəmuşxana"nın (masson cəmiyyəti) ölkədə irtica tətbiq etdiyini, hakimiyyətin əleyhinə təbligat apardıgını və ölkəni dagıtmaq istədiyini şaha çatdırmışlar. Nəsrəddin şah cəmiyyətin fəaliyyətini yoxlamaq üçün iki hörmətli üləmanı bu məsələni araşdırmaga məsul etmişdir. Seyid Sadiq Təbatəbai və Seyid İsmayıl Behbəhani fəramuşxanələrin məqsəd və vəzifələrini araşdırmış, dinə və dövlətə heç bir təhlükə olmadıgını bildirmişlər. Buna baxmayaraq, 1861-ci ilin oktyabrında şah "Masson lojasının" (təşkilatın) üzvlərini sərt şəkildə cəzalandıraraq onu ləğv etmişdir.

1905–1911-ci illər Məşrutə İnqilabının təşəbbüskarlarından biri olmuş Seyid Məhəmməd Təbatəbai Oyanış Lojasına qatılaraq Fransanın Böyük Şərqinin lojalar sisteminə daxil olmuşdur. XX əsrin əvvəllərində Qacar dövlətində, xüsusilə də Güney Azərbaycanda ruhaniyyət siyasi partiyaların rəhbəri, məscidlər isə təşkilat ofisi funksiyasını yerinə yetirmişdir. İdeoloji mərkəz Qum şəhəri olmuşdur. Seyid Ziyaəddin Təbatəbai (1888–1969) İranda dövlət xadimi kimi təqdim olunsa da, bir neçə ay Qacar dövlətinin baş nazir olmuşdur.

O, 1921-ci ildə dövlət çevrilişinə rəhbərlik etmiş, sonra ölkədən qaçmışdır. İngiltərə xüsusi xidmətinin dəstəyi ilə qəzet redaktoru olmuş, vəziyyəti korlayan kimi ölkədən qaçmışdır. 1941-ci ildə Rza xanın istefasından sonra yenidən İrana gəlmiş, sonra yenidən ölkədən qaçmış, ömrünün sonuna qədər mühacirətdə yaşamışdır. Bir çox ədəbiyyatda məşrutəçi kimi təqdim olunan Seyid Məhəmməd Tabatəbai Seyid Sadiq Tabətəbəinin ogludur.

Bu gün Avropada poker ustasından tutmuş, televiziya ulduzları, şahmat ustasından tutmuş, rok musiqiçisinə qədər Tabətəbai soyadını daşıyanlar var.

***Pərviz KAZIMİ,***
***BDU-nun dosenti***

# Məhsa Əmininin məzarına qarşı vandallıq

**Ötən ilin sentyabrında polis zorakılığına məruz qalan və həyatını itirən iranlı qadın Məhsa Əmininin məzarına qarşı vandallıq edilib.**



BBC telekanalı xəbər verir ki, Məhsa Əmininin Saqqız şəhərindəki Açı qəbiristanlığında yerləşən məzarının başdaşı üzərindəki şüşə lövhə naməlum şəxslər tərəfindən sındırılıb. Bununla bağlı məlumatı və fotoşəkli instaqram sosial şəbəkəsində onun qardaşı yayıb və bildirib ki, bu, bacısının məzarına qarşı törədilən ikinci vandallıqdır. Əşkan Əmini vandallara müraciət edərək yazıb ki, onlar bacısının qəbirüstü fotoşəklini dəfələrlə silsələr də, onun ailəsi başdaşını bərpa edəcək.

Xatırladaq ki, Tehranın əxlaq polisi tərəfindən başını örtmədiyinə görə həbs edilən 22 yaşlı Məhsa Əmininin zorakılığa məruz qalması və həyatını itirməsi İranda hakimiyyətə qarşı kütləvi iğtişaşlara səbəb olmuşdu.

# 4 il uzanan ölüm hökmü

**"Əhvazın Azadlığı Uğrunda Ərəb Hərəkatı"nın keçmiş lideri Həbib Çaab 4 ildir edam hökmü altındadır.**



"Tasnim" agentliyinin yaydığı məlumata görə, bu hökm yenidən qüvvədə saxlanılır. Son proses təqsirləndirilən şəxslərin apelyasiya şikayəti əsasında başlanıb. Belə ki, məhkəmə keçmiş liderin işinə baxıb və proses nəticəsində Çaabın edam hökmünün qüvvədə qalması və yekun elan edilməsi barədə qərar qəbul edib. O, separatçı qruplaşmaya rəhbərlik etməkdə, həmçinin Xuzistan əyalətində (İslam Respublikasının cənub-qərbində) "çoxsaylı terror əməliyyatları" təşkil etməkdə ittiham olunur.

Xatırladaq ki, Çaabın rəhbərlik etdiyi "Əhvazın Azadlığı üçün Ərəb Hərəkatı" 2018-ci il sentyabrın 22-də Əhvaz şəhərində hərbi parada hücum da daxil olmaqla, bir sıra terror aktları həyata keçirib. Agentliyin yaydığı məlumata görə, bu hadisələrdə 25 insan həlak olub, 269 nəfər yaralanıb.

***H.RƏHİMZADƏ***

# "Hərəkət edən tabut"lar

**İranda iki həftə ərzində aparılan araşdırmada yollarda baş verən qəzalar nəticəsində 871 nəfərin həyatını itirdiyi məlum olub.**



Avtoqəzalarda həlak olanların yarıdan çoxu İranda yığılan və yerli istehsal sayılan "Pride" və "Peugeot" avtomobillərinin sürücü və sərnişinləridir. İran parlamentinin sədri Məhəmməd Baqir Qalibaf millət vəkillərinin tənqidlərinə cavab olaraq, ölkədə avtomobil istehsalında ciddi çatışmazlıqların olduğunu etiraf edib.

Son illər İran vətəndaşları bu ölkədə istehsal edilən yerli avtomobillərə "hərəkət edən tabut" adı veriblər.

***R.GƏNCƏLİ***

# Vətənin mərd və namuslu oğlu



**1946-cı il dekabrın 12-də imperialist dairələrin dəstəyi ilə Tehran şah rejiminin amansızlıqla devirdiyi Azərbaycan Milli Hökumətinin baş prokuroru Firidun İbrahiminin edam edilməsindən 76 il keçir.**

Xalq yazıçısı Mirzə İbrahimov yaradıcılığının zirvəsi sayılan "Gələcək gün" romanının qəhrəmanı barədə 1949-cu ildə "Kommunist" (1991-ci ildən "Xalq qəzeti") qəzetinin 4 iyun sayında "Firidun İbrahimi" başlıqlı ayrıca bir məqalə də çap etdirmişdi. Böyük ədibin "Azərbaycanın mərd və namuslu oğlu" adlandırdığı qəhrəmanından bəhs edən həmin yazını Firidun İbrahiminin şəhadənin ildönümündə ixtisarla oxucularımıza təqdim edirik:

## Firidun İbrahimi

...Amerikan-ingilis tankları və təyyarələri ilə Cənubi Azərbaycana soxulmuş, onun şəhər və kəndlərini xarabazara çevirən İran işğalçı orduları Təbrizi qana boyamışdılar. Qəhrəman demokratlar amansızcasına təqib olunurdular. Onları günün günortaçağı sorğusuz-sualsız güllələyir, arvad və uşaqlarını diri-diri quyulara atır, qızlarını soyundurub küçələri gəzdirirdilər. Mürtəcelər canlı insan bədənindən məşəllər düzəldir və demokratların evlərini talan edib yandırırdılar. Təbriz məhbəsləri ağzına qədər adamla dolu idi.

Məhbəslər və dar ağacları İran ordusu və zabitlərinin Təbrizə gətirdiyi "hədiyyə" idi. Sübh açılarkən bu məhbəslərdən çıxarılanlar dar ağaclarında öz şərəfli və namuslu həyatlarını başa vururdular... Belə bir zamanda məhbuslardan birisinə səhər tezdən asılacağını bildirmişdilər. Bütün gecəni ölüm hökmü altında yaşayan və yoldaşlarına insanın xalq qarşısındakı borcundan, mübarizə və həyatın şirinliyindən danışan məhbus sübh açılarkən durub səliqə ilə üzünü qırxmış, təmiz köynək geyib təzə qalstuk bağlamışdır. Təəccüblə:

– Bu nə üçün? – deyən yoldaşına o, belə cavab vermişdir:

– Biz təmiz və aydın bir həyatla yaşadıq, nə üçün dar ağacı altına əzgin və çirkli gedək?!

Bu qəhrəmanın adı Firidun İbrahimidir. O, Azərbaycan Demokrat Firqəsinin üzvü, milli dövlətin prokuroru idi. Onu şəxsən tanıyanlar bilir ki, Firudin ancaq bu cür hərəkət edə bilərdi. O, Azərbaycanın milli azadlıq və İranın demokratik inkişaf idealına qəti iman gətirənlərdən idi.

Firudin 1918-ci ildə Astarada doğulmuşdu. Yeddiillik məktəbi orada qurtarmış, sonra Tehran darülfünununun hüquq fakültəsində ali təhsil almışdı. Həyatı əvvəldən xalq ilə bağlı olmuşdu. Hələ uşaq ikən, atası mütərəqqi görüşləri üçün müstəbid Rza xan tərəfindən Azərbaycandan sürgün edilmişdi.

1945-ci ilin axırları, Cənubi Azərbaycanda demokratik dövlətin yaranmasının ilk günləri idi. Belə bir zamanda Firidun İbrahimi Pişəvəri tərəfindən yenicə prokuror təyin edilmişdi. O, bir yandan köhnə, pozğun əxlaqlı prokuror işçilərini yeni, xalq üçün yaşayan məsləkli və vicdanlı adamlarla əvəz edir, o biri yandan qəddar düşmənlərin, xarici imperialistlərin satqın nökərləri olan mürtəcelərlə amansız mübarizə aparırdı.

Onun ilk atəşin çıxışı Azərbaycan xalqının cəlladı, silahsız Urmiya demokrat-kəndlilərini tankların altında əzmiş sərhəng Zəngənənin mühakiməsində olmuşdu. Firidun aydın və kəskin dəlillərlə Zəngənənin cinayətlərini sübut edərək ona ölüm cəzası tələb etmişdi.

Bir müddət sonra başqa bir canilər dəstəsi Təbriz xalq məhkəməsinin qarşısında durmuşdu: bu dəstəyə təbrizlilər arasında məşhur olan Qarnıyırtıq Kazım başçılıq edirdi. Onun dəstəsi, gecə adamların qabağını kəsib başından papağını, əynindən paltarını çıxarır, həyansız evlərə soxularaq cavan qız və gəlinləri zorlayırdılar. Bu dəstənin mühakiməsində də Firidun atəşin çıxış edərək siyasi qatillər, əhalinin əmin-amanlığını pozanlar, ictimai müaşirət qanunlarını və əxlaqını saymayanlarla amansız olmağı tələb etmişdi.

Firidun açıqfikirli, qabağıgörən, Azərbaycan, fars və fransız dillərini mükəmməl bilən bir dövlət xadimi idi. Onun geniş məlumatı vardı. Tarix, fəlsəfə və ədəbiyyat elmlərinə dərindən bələd idi. O, ağıllı yazıları və məruzələri ilə xalqın məhəbbətini qazanmışdı. Firidun İbrahimi son dərəcə təvazökar, xoşrəftar, mədəni bir insan və yaxşı yoldaş idi. Düzlük və sədaqət onun xasiyyətinin əsas cəhətləri idi.

Firidun Azərbaycan xalqının azadlıq mübarizəsinə son nəfəsinə qədər sadiq qaldı. O, gənc və saf həyatını xalqımızın qəddar düşmənləri olan İran mürtəceləri əleyhinə, vətənin azadlığı və səadəti yolunda mübarizədə qurban verdi. Azərbaycan xalqını böyük övlad məhəbbəti ilə sevən Firidun İranda yaşayan başqa xalqlara da azad və xoşbəxt həyat arzu edirdi.

Firidun Azərbaycanda demokratik hərəkat başlananda da, xalq hakimiyyəti yarananda da, Tehran irticası müvəqqəti qalib gəlib dar ağacları quranda da bu əqidə ilə yaşadı. O, ölümlə üz-üzə gəldikdə belə bu ümidini itirmədi. O, Azərbaycan demokrat firqəsi Mərkəzi Komitəsinin binasını canilərdən qoruyaraq atışdığı zaman bu əqidə ilə yaşayırdı.

Tehran mürtəceləri xalqın qəzəbindən qorxaraq Firidunu səhər saat beşdə Təbrizin Səttarxan xiyabanının başlanğıcında Gülüstan bağının ağzında edam etdilər. Buna baxmayaraq qocaman Təbriz öz sadiq oğlu ilə ləyaqətlə vidalaşdı. Onun məğrur halda dar ağacına getdiyini görənlər ayaq saxlayır, uşaqlar və qocalar böyük bir kədər içində dayanıb başını aşağı dikir, başıçadralı qadınlar uşağını qucağına basaraq: "Ah, Firidun!" – deyə göz yaşı tökürdülər. Çünki nəcibürəkli Firidunu xalq böyük bir məhəbbətlə sevirdi.

Tehran mürtəceləri öz xarici ağalarının əmri ilə Azərbaycanın bu mərd və namuslu oğlunu Təbrizdə dar ağacından asdılar. Onların amansızcasına qətl etdiyi minlərlə qəhrəman kimi Firidunun də adı və xatirəsi xalqın qəlbində əbədi olaraq yaşayır və qocalardan körpələrə qədər hamını "intiqam, intiqam!" deyə mübarizəyə çağırır.

***Mirzə İBRAHİMOV,***
***Xalq yazıçısı***

# Moskva görüşü: mövqe yaxınlığı, yoxsa geosiyasi əsəb oyunu?

## Sülh, sülhməramlılar və ...Rusiya–Qərb tənzimləmə xəttində uzlaşma

**Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyan arasında bu gün Moskvada Rusiya Prezidenti Vladmir Putinin vasitəçiliyi ilə keçiriləcək görüş ətrafında müxtəlif fikirlər var. Hiss olunur ki, nəinki Bakının və İrəvanın, bütövlükdə, regionun siyasi dairələri görüşə müstəsna önəm verməkdədirlər. Hər halda ortada, bütövlükdə, Cənubi Qafqazda sülh gündəliyi kimi vacib mövzu var.**

Bölgənin bir sıra siyasi müşahidəçiləri V.Putinin münaqişə tərəflərini Moskvaya dəvət etməsinin ani qərar olduğu düşüncəsindədirlər. Mövcud xüsusda Ermənistan– Azərbaycan münaqişəsinin nizamlanmasının Rusiya və Qərb versiyaları təhlil olunmaqdadır. Rusiya Prezidentinin təşəbbüsünün gözlənilməzliyi isə konkret olaraq, ABŞ Dövlət katibi Antoni Blinkenin fəal iştirakı ilə Qərb platformasında keçirilən son yüksək səviyyəli görüşlə əsaslandırılmaqdadır. Bu əsaslandırmada ziddiyyətli duruma münasibətdə Qərbin və Rusiyanın mövqelərinin uzlaşması amili də ön plana çıxmaqdadır.

Təsəvvür edin: Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi İmanqali Tasmaqambetov bildirir ki, KTMT Ermənistanla Azərbaycan arasında tezliklə sülhün imzalanmasına ümidlidir. Onun sözlərinə görə, Cənubi Qafqazdakı vəziyyətlə bağlı mütəmadi danışıqlar aparılır. Baş katib mövcud xüsusda danışıqların növbəti turunun Avropada baş tutmasına diqqət çəkib. “Məmuniyyətlə qeyd olundu ki, həm Azərbaycan, həm də Ermənistan 1991-ci il Alma-Ata Bəyannaməsinə əsasən, iki ölkə arasındakı sərhədləri praktiki olaraq tanıyır. Ümid edirik ki, bu danışıqlar sülh müqaviləsinin imzalanmasına gətirib çıxaracaq. Bundan sonra ölkələr sərhədin delimitasiyasına başlayacaqlar”, – deyən Tasmaqambetovun Azərbaycan-Ermənistan nizamlamasının “Brüssel formatı” ilə həmrəyliyi təəccüb doğurmaqdadır zamlamanın eyni gündəliyin mövcudluğunu açıqladığı aydındır.

Ancaq siyasi təhlilçilər həm Ermənistanın XİN rəhbərinin söylədiklərinə, həm də ümumi ab-havaya nəzərən, indiki situasiyada gözlənilən alternativ irəli sürmək, vəziyyətə gərginlik xüsusiyyətləri gətirmək baxımından Rusiyanın passiv mövqedə dayandığını vurğulamaqdadırlar. Ermənistanın “168. am” xəbər portalına açıqlama verən gürcüstanlı politoloq Kaxa Qoqolaşvili də məhz bu məqamın üzərində dayanıb. O bildirib ki, Rusiyanın passivliyi qəribədir və indiki görüşlər də (Rusiya, Ermənistan və Azərbaycan XİN rəhbərlərinin mayın 19-da Moskvada danışıqları və ölkə liderlərinin bugünkü danışıqları nəzərdə tutulur – red.) göstərir ki, Moskva Qərbin substantiv işindən narahat idi.

Kaxa Qoqolaşvilinin sözlərinə görə, Vaşinqtonda keçirilən danışıqlardan əvvəl (Azərbaycan və Ermənistan XİN rəhbərlərinin 1-4 may danışıqları – red.) Rusiya ciddi vasitəçilik təşəbbüsü ilə çıxış etməyib. Çox güman, Qərbin bu məsələni həll edəcəyinə inanmayıb və hesab edib ki, mövcud xüsusdakı tənzimləmə fonunda yekun sülh sazişi imzalana bilməz. Gürcü politoloq hesab edir ki, Brüsseldə keçirilmiş Əliyev-Paşinyan görüşündən sonra Şarl Mişelin bəyanatı Qərbin nizamlanmaya nail olmaq yolunda aydın iradəsinin və siyasi proqramının mövcudluğunu ortaya qoydu. Bu isə rus sülhməramlılarının müvafiq nəticələrlə uyğun şəkildə Qarabağı tərk etmələri deməkdir.



Məlumdur ki, Azərbaycan-Rusiya-Ermənistan formatında sonuncu danışıqlar ötən il oktyabrın 31-də Soçidə, oktyabrın 6-da Praqadakı dördtərəfli görüşdən (Azərbaycan Prezidenti İlham Əliyev, Fransa Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel, Ermənistanın baş naziri Nikol Paşinyan – red.) sonra baş tutub. Bu görüşdə də tərəflər münasibətlərin normallaşması baxımından məhz 1991-ci ildə imzalanmış Alma-Ata Bəyannaməsini əsas götürüblər. Eyni zamada, o da vurğulanmalıdır ki, bu gün Moskvada delimitasiya və demarkasiya məsələləri müstəvisində üzərində dayanılacağı ehtimal olunan SSRİ Müdafiə Nazirliyi Baş Qərargahının 1975-ci il xəritəsi də, ilk dəfə məhz Soçi görüşü zamanı gündəmə gəlmişdi.

Məlumdur ki, Soçi görüşündən əvvəl, konkret olaraq, 2022-ci ilin avqustunda ATƏT-in Minsk qrupunun rusiyalı həmsədri İqor Xovayev Qarabağa status (erməni tarixi) məsələsindən söz açmışdı. Amma görüş göstərdi ki, Moskva tərəfindən irəli sürülmüş bu təşəbbüs təxirə salınıb. Bu, eləcə də digər məqamlar isbatlayır ki, hazırda Qərb və Rusiya tənzimləmə xətti arasında prinsipial fərq yoxdur.

Yeri gəlmişkən, bir müddət əvvəl Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan da bəyan etmişdi ki, ölkəsi bu iki platforma arasında fərq qoymur, sülh prosesi eynidir, əsas olan sülh müqaviləsi layihəsi və onun başlıca müddəalarıdır. “Ermənistan platformalar arasında fərq qoymur, sülh prosesi birdir, danışıqlar eyni sülh sazişi layihəsi və onun prinsipləri ətrafında gedir. Biz platforma irəli sürən və bu prosesdə körpü rolunu oynamağa çalışan bütün paytaxtlara minnətdarıq. Ermənistan üçün Moskvada, Brüsseldə və ya Vaşinqtonda danışıqlar aparmaq sualı qoyulmur”, – deyən Mirzoyanın Rusiya, ABŞ və Avropa İttifaqının himayəsi altında ayrı-ayrılıqda davam edən nizamlamanın eyni gündəliyin mövcudluğunu açıqladığı aydındır.

“Etiraf etmək lazımdır ki, Blinkenin vasitəçiliyi olmasaydı, tərəflərin, o cümlədən, Makronun rolunu, mürəkkəb gündəmi və Brüssel platformasında problem ətrafındakı fikir ayrılıqlarını nəzərə alsaq, indiki durum yaranmazdı”, – deyən K.Qoqolaşvilinin fikrincə, ABŞ Dövlət katibinin Vaşinqton danışıqlarında şəxsi iştirakı Putinin Moskvada üçtərəfli təmasın təşkili təşəbbüsünü doğurub. Deməli, Moskva görüşü uzun sürən diplomatik hazırlığın nəticəsi deyil, sadəcə, obyektiv duruma reaksiyadır və Moskva müxtəlif xəritələrdən istifadə edərək, prosesi Qərbdən Rusiyaya yönəltməyə çalışacaq.

Gürcü politoloq onu da bildirib ki, hazırkı mərhələdə Kreml Qərb platformasında üçtərəfli bəyanatlardan heç bir söz getməməsindən xüsusilə narahatdır. Ona görə Moskva prosesə Rusiya faktorunu cəlb etməyə, bu bəyanatları xatırlatmağa və ya ən yaxşı halda imzalanma ehtimalı çox az olan yeni oxşar sənəd əldə etməyə çalışacaq.

Maraqlıdır ki, K.Qoqolaşvili də danışıqların məzmununun bir-birindən fərqlənməməsinə baxmayaraq, hazırda Rusiya ilə Qərb vasitəçiliyi arasında Azərbaycan-Ermənistan münasibətlərinin nizamlamasına yönələn ziddiyyətin olmadığı qənaətini bölüşməkdədir. Ancaq müxtəlif regional maraqlar baxımından müəyyən fərqli yanaşmalar mümkündür. “Ola bilsin ki, Rusiya tərəfi yeni təkliflə çıxış etməyi planlaşdırır. Bu yaxınlarda Moskvanın nümayəndəsi regiona səfər edib. Proseslər pərdə arxasındadır, nəticələr, adətən, çox sonra görünür”, – deyən gürcü politoloq vurğulayıb ki, Rusiyanın marağı Qarabağda sülhməramlıların saxlanılmasıdır. Buna görə də sülh müqaviləsinin imzalanması prosesi başa çatmazdan əvvəl müxtəlif hadisələrlə dolu əsəbi geosiyasi oyun gözlənilir.

***Ə.RÜSTƏMOV, “Xalq qəzeti”***

**Son zamanlar beynəlxalq aləmdəki əsas informasiya agentlikləri, reytinq mərkəzləri və sorğu təsisatları elə intensiv şəkildə işləyirlər ki, günün yeni xəbər eşitmədiyimiz saatı qalmır. Təbii ki, biz həmin xəbərlərin nəinki hamısına reaksiya vermirik, hətta əksəriyyəti ilə maraqlanmırıq da. Ancaq “Global Firepower Index” təşkilatının elektron səhifəsində verilmiş dünya ordularının reytinq göstəricisi ilə həm maraqlandıq, həm də fəxr etdik.**

***Azərbaycan Ordusu dünyanın ən güclü ordularının sırasındadır – həm təchizat, həm döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib. 44 gün ərzində bir nəfər də olsun geri addım atmayıb, bir nəfər də olsun fərari olmayıb. Bizim ordumuz budur. Bizim xalqımız budur.***

***Azərbaycan Prezidenti İlham Əliyevin xalqa 10 may 2023-cü il tarixli müraciətindən***

# Ordumuzun qüdrəti, peşəkarlığı və reytinqi qürur mənbəyimizdir



Xatırladaq ki, dünyanın ən tanınmış və nüfuzlu təşkilatlarından olan bu qurumun elektron bazasında ölkələrin silahlı qüvvələri haqqında məlumatlar, həmin məlumatların təhlili və yekunu öz əksini tapır. Son reytinq göstəricisində bildirilir ki, Azərbaycan Ordusu dünyanın ən güclü əlli ordusu sırasındadır. Həm də bu nəticə ordulara aid olan əlli faktorun (nüvə potensialı istisna olmaqla) təhlili nəticəsində hasil olub. Bizim fərqinə vardığımız və fəxr etdiyimiz digər məqam isə həmin siyahıdakı ilk onluqda Türkiyə Silahlı Qüvvələrinin də olmasıdır. Qardaş ölkənin ordusu səkkizinci yerdədir.

Bizim üçün qürurverici məqamlardan biri də odur ki, Azərbaycan Ordusu Belarus ( 52-ci yer) Argentina ( 55-ci yer) və Yunanıstan ( 57-ci yer) kimi oturuşmuş dövlətlərin silahlı qüvvələrindən də irəlidədir. Bu təhlillər iki yüzə yaxın ölkənin hamısında yox, bilavasitə güclü silahlı qüvvələrə malik 106 ölkə arasında aparıldığına görə Ermənistan həmin siyahıya düşməyib. Çünki Azərbaycan əsgəri 2020-ci ilin payızında Ermənistan ordusunu darmadağın edib və onlar bir də çətin ki, güclü ordular siyahısına düşə bilsinlər.

Bəli, Azərbaycan Ordusu cənab Ali Baş Komandanımızın da dediyi kimi, 2020-ci ilin payızındakı səviyyəsinə nisbətən, indi daha güclü, daha müasir və peşəkardır. Bu göstəricilərin artırılması istiqamətində görülən işlər bir an belə ara vermədən davam etdirilir. Elə bu sətirlərin qələmə alınması ərəfəsində də Müdafiə Nazirliyinin elektron saytına baxdım ki, görək hansı yeniliklər var. Məlum oldu ki, təkcə mayın 23-də qeydə alınan üç xəbərin hamısı Ermənistan ordusu üçün əlçatmazdır.

Məsələn, həmin gün saytda verilən xəbərlərin birincisində bildirilirdi ki, Azərbaycan ilə Bolqarıstan arasında hərbi təhsil sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Belə ki, Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin rektoru, general-leytenant Heydər Piriyev ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikasının Milli Müdafiə Universitetinin rektoru general-mayor İvan Malamovla görüşüb. Görüşdə ölkələrimiz arasında hərbi təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

Bəli, Azərbaycan Ordusu xaricdən təkcə silah, sursat, texnika və ya hərbi təyinatlı başqa vasitələr almır, həm də hərbi təhsilimizin dünya təcrübəsi səviyyəsinə qaldırılması istiqamətində mühüm addımlar atılır. Ermənistan ordusuna isə on illər boyu Rusiyanın, İranın və Fransanın anbarlarında qalmış köhnə silahlardan bir az göndərirlər, vəssalam. Həmin silahları işlədə biləcək köhnə “ermənistanlılar” isə ya Azərbaycana qovulub, ya da özləri hansısa xarici ölkəyə qaçıblar.

Nazirliyin həmin gün yaydığı başqa bir xəbərə nəzər salaq. Azərbaycan Ordusunun Baş Qərargah rəisinin Pakistana rəsmi səfəri başlayıb. Bildirilir ki, Müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-polkovnik Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunları Komandanı, ordu generalı Asim Munirin dəvəti ilə mayın 23-də bu ölkəyə rəsmi səfərə gedib.

Yəni, ordumuzun daha da qüdrətləndirilməsi və müasirləşdirilməsi üçün güclü dövlətlərin hərbi təcrübəsindən bəhrələnirik. Ermənistan rəhbərliyi isə 44 günlük İkinci Qarabağ müharibəsi dövründə silahlı qüvvələrinin 25 faizini təşkil edən 11 min hərbçinin nə üçün fərarilik etdiyinin səbəblərini axtarmaqla məşğuldur.

Başqa bir xəbərdə isə oxuyuruq ki, Komando Dağ Təlim Mərkəzində Heydər Əliyev adına Hərbi İnstitutun 4-cü kurs kursantlarının iştirak etdiyi “Komando başlanğıc kursu” davam edir. Kursantlar təlim sahəsində silahların döyüşə hazır vəziyyətinə gətirilməsi, eləcə də şərti düşmən hədəflərinin aşkar olunaraq atəşlə məhv edilməsi vərdişlərini təkmilləşdirirlər. Həmçinin yaşayış məntəqələrindəki döyüş şəhərciyində müasir döyüş üsulları, dağçılıq və digər fəaliyyətlər real döyüş şəraitinə uyğun məşq etdirilir. Bu məqsədlə Türkiyə modelinin tətbiq edilməsi ilə keçirilən komando hazırlığı kursunda əsas diqqət kursantların nəzəri biliklərinin və səhra vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

Yəqin ki, diqqətli oxucu “yaşayış məntəqələrindəki döyüş” ifadəsinin fərqinə vardı. Biz əsgərlərimizə yaşayış məntəqələrindəki döyüş təcrübəsini ona görə öyrədirik ki, mülki əhaliyə ziyan dəyməsin. Ermənistan ordusunun rəhbərliyi isə şəxsi heyətə gecə yarısı, yatmış şəhərə raket atmağın sirlərini öyrədir. Çünki Azərbaycan Ordusu ilə üz-üzə gəlməyin nəticələrini yaxşı bilir.

Bu məqamda onu da xatırladaq ki, mayın 15-də Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə keçirilən xidməti müşavirədə Azərbaycan–Ermənistan şərti sərhədi və Qarabağ iqtisadi rayonunda mövcud əməliyyat şəraiti təhlil edilib. Kəlbəcər istiqamətində baş vermiş son



döyüş toqquşmalarına toxunan Müdafiə naziri qarşı tərəfə layiqli cavab verildiyini, Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatların genişlənməsinin qarşısının qətiyyətlə alındığını və ona xeyli zərər vurulduğunu qeyd edib. Nazir baş verə biləcək silahlı insidentlərə qarşı bundan sonra da sərt cavab tədbirlərinin görülməsi barədə aidiyyəti vəzifəli şəxslərə göstəriş verib.

Fikrimizcə, mayın 15-də keçirilmiş həmin tədbir haqqında xəbərin oxucusu Azərbaycana nisbətən Ermənistanda daha çox olub. Çünki orada “Nazir baş verə biləcək silahlı insidentlərə qarşı bundan sonra da sərt cavab tədbirlərinin görülməsi barədə aidiyyəti vəzifəli şəxslərə göstəriş verib” – ifadəsi də var.

Bu sətirləri Ali Baş Komandanımızın dilindən eşitdiyimiz fikirlərlə tamamlamaq istəyirik: “Ordumuzun maddi-texniki təchizatı, döyüş qabiliyyəti, orduda vətənpərvərlik ruhu yüksək səviyyədədir. Bu gün biz ən qabaqcıl texnologiyalara malik olan texnika alırıq, silahlar alırıq və alacağıq. Ordumuz üçün nə qədər vəsait ayırmaq lazımdırsa, biz o qədər də ayıracağıq. Dilənçi Ermənistandan fərqli olaraq, biz ordumuzu öz hesabımıza təmin edirik, müstəqil ölkə kimi yaşayırıq. Onlar isə başqa yolu seçiblər, bu, müstəmləkə yoludur, bu, onların seçimidir”.

***İttifaq MİRZƏBƏYLİ, “Xalq qəzeti”***

# Türkiyədə seçkilər: 28 maya 3 gün qalır

**Türkiyədə prezident seçkilərinin ikinci turu finiş mərhələsinə qədəm qoyub. Seçkilərin mümkün gözləntiləri hər yerdə ciddi müzakirə olunur. Bu səbəbdən ölkədə ictimai-siyasi gərginlik artır. Nəticələr Türkiyə dövləti və xalqı üçün böyük önəm daşıyır. Bu səbəbdən həyəcan və məsuliyyət də güclənir.**



Bugünlərdə prezidentliyə namizədlər ölkənin ayrı-ayrı şəhərlərinə səfərlər edir, orada seçicilərlə görüşür, onları səsvermə günü "sandıq başına gələrək" ən doğru seçim etməyə çağırırlar. Təbii ki, iddiaçılar "doğru seçim" dedikdə, özlərini nəzərdə tuturlar.

Prezidentliyə iddiaçılar seçicilərlə görüşlər zamanı özlərinin və təmsil etdikləri seçki bloklarına qoşulan partiyaların uğurlarını yada salır, bu zaman rəqibi tənqid etməyə çalışır və bu yolla tərəfdarlarının sayını artırmağa cəhd edirlər. Bu, səsvermə ərəfəsində təbii və normal haldır. Hər şey sivil və demokratik qaydalar çərçivəsindədir.

Türkiyədə hazırda hər bir səs uğrunda mübarizə gedir. Böyük mitinqlərdə prezidentliyə namizədlərin tərəfdarları öz favoritlərini dinləyir və alqışlayırlar. Vətəndaşlar Vətəni daha güclü və qüdrətli görmək, özlərinin və ailələrinin, eləcə də bütün xalqın daha yaxşı yaşamasını istəyirlər. Hər iki namizəd xalqın etimadını doğruldacağı ilə bağlı çox sayda vədlər verir.

Seçki texnoloqlarının fikrincə, seçkilərdə çox şeyi namizədlərin natiqlik bacarığı həll edir. Qərb jurnalistləri dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın rəqibi CHP lideri Kamal Kılıçdaroğlu ilə müqayisədə daha mükəmməl natiqlik sənətinə yiyələndiyini qeyd edir, seçkiləri təşkil etmək və qalib gəlmək sahəsində R.T.Ərdoğanın böyük təcrübəyə malik olduğunu vurğulayırlar.

Son rəy sorğuları göstərir ki, AKP lideri seçkilərin birinci mərhələsində olduğu kimi, ikinci turunda da daha çox seçici "oy"u (səsi) əldə etməyə şanslıdır. Bununla bərabər, səsvermə zamanı gözlənilməz nəticələrin və sürprizlərin baş verə biləcəyini də heç kəs istisna eləmir. Sivil, demokratik dövlətlərdə seçkilərin özəlliyi nəticələrin son anadək kütlə üçün qeyri-müəyyən olmasındadır.

Yeni, xalqın siyasi iradəsi hər şeyin fövqündə olmalıdır. Türkiyə yüksək seçki mədəniyyətinə malik olan ölkədir. 14 may seçkiləri bunu bir daha bariz şəkildə nümayiş etdirdi. Mayın 28-də seçkilərin azad, şəffaf şəraitdə keçiriləcəyinə heç kəs şübhə etmir. Hətta Qərbdə də etiraf edirlər ki, "Ərdoğan Türkiyəsi" "köhnə qitəyə" demokratiya dərsi verib. Qürurverici reallıqdır, deyilmi?

Bu gün iddiaçıların qarşısında duran ən əsas vəzifə öz tərəfdarlarının ikinci turda da fəal iştirak etmələrini təşviq etməkdir. Burada hər hansı bir passivlik, yaxud etinadsızlıq ağır nəticəyə səbəb ola bilər. Prezidentliyə hər iki namizəd özünün seçki taktikasında bunu nəzərə almağa çalışır.

Təsadüfi deyil ki, AKP-nin lideri R.T.Ərdoğan dünən Malatyada çıxışı zamanı tərəfdarlarına müraciətlə deyib: "Arxayınlaşmaq olmaz. Əksinə, səslərimizə sahib çıxacağıq. Mən malatyalılara inanıram!"

O, həmçinin bu il fevralın 6-da baş verən dəhşətli zəlzələdən zərər çəkən vətəndaşlara müraciət edərək deyib ki, "seçki qutularında özünü göstərən iradənizin başımızın üstündə yeri var. Bizim vəzifəmiz heç bir ayrı-seçkilik etmədən sizə xidmət göstərməkdir. 21 ildir bunu edirik".

R.T.Ərdoğan sonra vurğulayıb ki, dövlət və xalq həmrəyliyi nəticəsində zəlzələnin vurduğu yaralar sürətlə sağalır: "Zəlzələ baş vermiş ərazilərdə 910 mindən çox çadır, 117 min konteyner qurulub. Həmçinin 13 min iş yeri açılıb. Hataydakı dövlət xəstəxanası 57 gün ərzində istifadəyə verilib. Oktyabr-noyabr aylarında insanlar yeni evlərinə qovuşacaqlar. Ümumilikdə, 650 min mənzil inşa ediləcək".

Xatırladaq ki, zəlzələ baş verən bölgələrdə seçicilərin çoxu birinci turda R.T.Ərdoğanı dəstəkləyiblər. Müxalifət isə bunun əksini gözləyirdi. Bir sıra müxalifət yetkililəri əsəblərini cilovlaya bilməyərək zəlzələ bölgələrindəki seçicilərini aşağılayan fikirlər səsləndiriblər. Dövlət başçısı bunu yanlış yanaşma hesab edərək pisləyib.

Bugünlərdə CHP lideri Kamal Kılıçdaroğlu da əhali ilə tez-tez görüşlər keçirir. O, seçiciləri ona səs verməklə "daha modern Türkiyə" qurmağın mümkün olacağına inandırmağa çalışır. Ana müxalifətin lideri iqtidarı Avropa İttifaqı və NATO ilə münasibətlərdə nöqsanlara yol verməkdə günahlandırır.

Qarşı tərəf təbii ki, bunu təkzib edir. R.T.Ərdoğan Türkiyəni dünyanın ən güclü 10 dövlətindən biri üçün başladıqları uğurlu yolun tən ortasına çatdıqlarını vurğulayır, ölkə vətəndaşlarını qəlb və zəkaları ilə bu böyük missiyaya qoşulmağa səsləyir.

Bu arada müxalifətçi "Zəfər" Partiyasının sədri Ümit Özdağ prezident seçkilərinin ikinci turunda "Millət İttifaqı"nın namizədi Kamal Kılıçdaroğlunu dəstəkləyəcəklərini açıqlayıb. O, tərəfdarlarını CHP liderinə səs verməyə çağırıb.

***Məsaim ABDULLAYEV, "Xalq qəzeti"***

## Ekspert rəyi



**Ceyran CƏFƏRLİ, media eksperti, politoloq**

Mayın 14-də Türkiyədə keçirilən seçkilər bütün dünyaya göstərdi ki, qardaş ölkə demokratik inkişaf yolundadır. Hesab edirəm ki, son seçkilər Türkiyənin möhtəşəm inkişaf və tərəqqi epoxasına qədəm qoyduğunu nümayiş etdirir. Bu millət tarixdə hər zaman sözünü deməyi bacarıb və bu gün də bacarır!

Türkiyə həm də gələcəyin dövlətidir. Onun liderliyi ilə böyük bir coğrafi ərazidə Böyük Turan qurula bilər. Müstəqil Azərbaycanın isə türk dünyasında xüsusi yeri və missiyası var. Xalqımızın 2020-ci ilin payızında erməni işğalçıları üzərində parlaq qələbəsi ölkəmizin təkcə türk dünyasında deyil, bütün dünyada nüfuzunu artırıb. Bu gün Türkiyə-Azərbaycan qardaşlığı digər türk dövlətləri üçün də parlaq nümunədir.

Azərbaycan Türkiyədəki seçkilərə çox həssas münasibət var. Məlum olduğu kimi, mayın 14-də baş tutan seçkilərdə prezidentliyə namizədlərdən heç biri 50 faizdən çox səs toplamadığı üçün səsvermənin ikinci turu mayın 28-də keçiriləcək. Bu mərhələdə "Cümhur İttifaqı"nın prezidentliyə namizədi, hakim Ədalət və İnkişaf Partiyasının sədri və hazırkı dövlət başçısı Rəcəb Tayyib Ərdoğan və "Millət İttifaqı"nın namizədi, müxalif Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıçdaroğlu mübarizə aparacaq. İkinci turda ən çox səstoplayan namizəd növbəti 5 il üçün Türkiyə Prezidenti seçiləcək.

Yeri gəlmişkən, Türkiyənin xaricdəki diplomatik nümayəndəliklərində prezident seçkilərinin ikinci turunda səsvermə prosesi dünən başa çatıb. Türkiyəli seçicilər üçün 73 xarici ölkədəki 151 nümayəndəlikdə 167 seçki məntəqəsi qurulub. Xaricdə yaşayan 3 milyon 423 min 759 seçicinin 1 milyon 763 min 973-ü səsvermədə iştirak edib. Xarici ölkələrdən gətirilən bülletenlər Türkiyədə səsvermə başa çatdıqdan sonra sayılacaq.

Türkiyə vətəndaşları qanunlara hörmət edən, intizamlı və ədalətli insanlardır. İnanırıq ki, müdrik türk xalqı seçkilərin ikinci turunda da yüksək fəallıq nümayiş etdirərək ən layiqli namizədə səs verəcək.

**"2002-ci ildə hakimiyyətə gələn Rəcəb Tayyib Ərdoğan Türkiyə xalqının öz liderinə inamı, etimadı nəticəsində 21 ildir ki, ölkəsini uğurla idarə edir". Bunu Türkiyənin Polis Akademiyaları Məktəbinin müəllimi, Dr. Rasim Koç "Xalq qəzeti"nə açıqlamasında bildirib.**

# 21 ildir Ərdoğan dövləti uğurla idarə edir

Rasim Koç deyib ki, Türkiyə Cümhuriyyəti yüzilliyinin son rübünü tək partiya və tək liderlə başa vurması demokratik rejimlərdə nadir haldır və böyük nailiyyət hesab edilməlidir: "Daxili və xarici siyasətdə millətin inamını və etimadını qazanmış bir hökumət bu etimadı taclandırdı".

Siyasətçi, Türkiyənin COVİD-19 pandemiyası dönəmində də böyük çətinliklərə baxmayaraq iqtisadi baxımdan böyüyə bildiyini deyib: "Dünya ölkələri pandemiyanın yaratdığı iqtisadi problemlərlə məşğul olduğu bir vaxtda Rusiya-Ukrayna müharibəsinin başlaması dünya enerji və taxıl qiymətlərində böhrana səbəb oldu. Son 3 ildə dünyada makroiqtisadi tarazlıqların pisləşməsi nəticəsində yaranan problemlərin Türkiyə iqtisadiyyatına da mənfi təsir göstərməsi qaçılmaz idi. Türk xalqı bu gün bu böhranın yaratdığı iqtisadi problemlərin çətinliklərini yaşayır. Bu problemin həllinə olan inam böhranlardan əvvəlki 18 ildə qazanılan uğurlara baxaraq bir qiymətləndirmə edir. Əslində bu dövrdə xalqın rifahı nəzərəçarpacaq dərəcədə yüksəldi. 15 iyul çevriliş cəhdindən əvvəl adambaşına düşən gəlir 12 min dollara çatmışdı. Bu rəqəm respublika tarixində ən yüksək göstəricidir. Bu sərvət payı ilə Türkiyə inkişaf etmiş ölkələr sırasına daxil olub. Belə bir tarixi qırılma anından dərhal sonra dövlət çevrilişinə cəhd oldu və Türkiyə bu hadisənin mənfi nəticələri ilə mübarizə apararkən dünya miqyasında epidemiya, müharibə və qlobal böhran içində olan bir ölkəyə çevrildi. Təbii ki, hər bir iqtidar belə böyük problemlərlə məşğul olarkən yıpranır. Bu gün Türkiyə bunu yaşayan bir prosesdən keçir".



Siyasətçilərin seçkilərə bir yarış kimi baxdığını vurğulayan Rasim Koç, türk xalqının bu prosesləri çox fərqli və daha geniş prizmadan qiymətləndirdiyini bildirib: "Xalqımızın dəyər mühakiməsi təkcə gündəlik qayğılardan ibarət deyil, insan həyatına təsir edən bütün amilləri nəzərə alaraq, mövzuya bütünlüklə baxır. Ona görə də millətimizin siyasi uzaqgörənliyi həmişə siyasətçilərin qarşısında olub. İnsan həyatında çörək qədər, iş qədər vacib olan bir duyğu, şübhəsiz ki, təhlükəsizlik məsələsidir. Bu qayğı bəşəriyyətin məskunlaşdığı gündən bəri həmişə mövcud olmuşdur. Xüsusilə Anadolu coğrafiyası kimi bir çox sivilizasiya və millətin yoxa çıxdığı bir bölgədə yaşayanların təhlükəsizlik qayğıları ən yüksək nöqtədədir. Bu narahatlıqlar paranoyanın məhsulu deyil. Konkret və acı faktlara əsaslanır. Separatçı terror, xarici təhlükə bəzən gizli, bəzən də açıq şəkildə özünü həmişə hiss etdirib. Bu səbəbdən türk millətinin təhlükəsizlik qayğısı Skandinaviya ölkəsi və ya Avropa ölkəsi kimi ola bilməz. O, hər an ayıq-sayıq olmalıdır. Xüsusən də son beş ildə bu torpaqların sahibləri bəlkə də ilk dəfə olaraq daxili və xarici təhlükələrə qarşı özlərini təhlükəsiz hiss edirlər. Müdafiə sənayesindəki uğurlu inkişaflar bu vəziyyətə təsir edən ən mühüm amillərdən biri olmuşdur. Türkiyənin müdafiə sənayesi indi xarici mənbələrdən daha az asılıdır və öz milli layihələrini həyata keçirir. Uğurla həyata keçirilən layihələrin başında "İHA", "SİHA" və hava hücumundan müdafiə və hücum təyyarələri, milli tank "Altay" və güclü döyüş gəmiləri dayanır. Bundan başqa, Türkiyə nüvə enerjisinə keçən ölkəyə çevrilib. Bütün bunlar qısa və uzunmüddətli perspektivdə Türkiyənin təhlükəsizlik qayğılarını aradan qaldırmaqla yanaşı, dost və qardaş ölkələrin müdafiə siyasətlərinə də böyük töhfə verəcək".

Bu kontekstdə Türkiyənin Azərbaycan başda olmaqla digər türk dövlətləri ilə həm müdafiə, həm də iqtisadi sahədə tam əməkdaşlığa başladığını qeyd edən həmsöhbətim iki qardaş ölkənin Orta Asiyaya da müsbət təsir edə biləcək bir nüfuza sahib olduğunu vurğulayıb: "Həm türk, həm də İslam dünyası ilə bu balanslı və qardaşlıq münasibətləri rasional və sabitliyə töhfə vermək üçün Cümhuriyyəti iki yüzillik ilini Asiya və Avropanın ən parlaq ölkəsi olaraq davam etdirəcək".

***M.SULTANOVA, Ankara***

**Ağ Ev və ABŞ Konqresi dövlət borcu tavanının artırılması ilə bağlı razılığa gəlməsələr, ölkədə iyunun 1-də defolt elan ediləbilər.**

# ABŞ-da defolt təhlükəsi hələ də qalır

ABŞ-ın maliyyə naziri Canet Yellenin Konqresin rəhbərliyinə ünvanladığı məktubda daha sonra hesablamalara əsaslanaraq bildirilir ki, Konqres iyunun əvvəlinə bu məsələni gerçəkləşdirməsə, Maliyyə Nazirliyi artıq ABŞ hökumətinin üzərinə götürdüyü öhdəlikləri yerinə yetirə bilməyəcək.

Prezident dövlət borcunun tavanının artırılması ilə bağlı keçirdiyi danışıqların məhsuldar olduğunu, lakin hələlik razılaşma əldə edilmədiyini bildirib. Co Bayden, eyni zamanda, ölkəsində defoltun elan olunmasına yol verməyəcəyini vəd edib. Amerika lideri bu barədə Merilend ştatında keçirilən tədbirdə çıxışı zamanı deyib: "Birləşmiş Ştatlarda defoltun elan edilməsi fəlakət ola bilər. Hadisələrin bu cür inkişafından qaçmaqdan ötrü Konqres heç bir şərt qoymadan dövlət borcunun həddini artırmaq təklifimizi bəyənməlidir". Qeyd edək ki, hazırda ABŞ-ın dövlət borcu son 200 il ərzində yığılaraq, 31,4 trilyon dollara çatıb.

Nümayəndələr Palatasının spikeri Kevin Makkarti isə Nümayəndələr Palatasına dövlət borcunun tavanının artırılmasını "heç vaxt" təklif etməyəcəyini qeyd edərək qanunvericilərin federal xərclərin "istiqamətini dəyişdirməsinin" vaxtı çatdığını vurğulayıb.

Xatırladaq ki, Ağ Ev rəsmiləri və Respublikaçı Konqres nümayəndələri arasında federal hökumətin 31,4 trilyon dollarlıq borc tavanının artırılması ilə bağlı ikinci görüş tərəflərin heç bir irəliləyiş əldə etməməsi ilə başa çatıb.

Konqresin Xəzinədarlıq Departamentinin federal hökumətin bütün borclarını ödəyə bilməyəcəyi barədə xəbərdarlıq etdiyi günə – iyunun 1-nə sayılı çox az vaxt qalmasına baxmayaraq, tərəflər qətiyyən güzəştə getmək niyyətində deyillər. Bu isə defoltun reallaşması ehtimalını getdikcə artırır.

Ağ Ev Nümayəndələr Palatasına nəzarət edən respublikaçılarla ciddi fikir ayrılıqlarının olduğunu etiraf etsə də, prezident Co Bayden hələ də defoltdan qaça biləcəklərinə inandığını diqqətə çatdırıb.

ABŞ-da mümkün defolt ssenarisində 8 milyona yaxın insanın işsiz qalması, birjalarda kəskin çöküşlərin yaşanması, sosial müavinətlərin kəsilməsi və kredit faizlərinin artması kimi hallar gözlənilir.

Cari həftə ərzində tərəflər razılıq əldə edə bilməsələr, ABŞ hökuməti ölkəni növbəti həftələrdə defolt elan etmək məcbutiyyətində qala bilər. Bu isə öz növbəsində birjalarda risk iştahının ciddi dərəcədə azalması səbəbi ilə ikin




mərhələdə "cash" dollara tələbin kəskin artmasına və nəticədə dollar indeksində müşahidə olunan artım tendensiyasının daha da aqressivləşməsinə gətirib çıxarar.

ABŞ-da baş verəcək defoltun Azərbaycan iqtisadiyyatına təsiri ola bilərmi? İqtisadçı-ekspert, İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri Eyyub Kərimli ABŞ-da mümkün defoltu baş verdiyi halda bunun Azərbaycan iqtisadiyyatına ola biləcək təsirləri haqqında danışarkən deyib: "Neft Fondunda böyük məbləğdə xarici valyuta (65 milyard dollar) vəsait toplanıb. Bunun da çox hissəsi dollarda saxlanır. Həmçinin Neft Fondunun vəsaitləri ABŞ-ın müxtəlif banklarında saxlanılaraq investisiya kimi yatırılıb. Bu da Neft Fondunun gəlirlərinə də mənfi təsir göstərə bilər".

Eyyub Kərimlinin sözlərinə görə, bu proses dolların mövqeyinin zəifləməsi və dəyərdən düşməsi prosesi kimi də həyata keçə bilər: "Bu baxımdan hesab edirəm ki, gözlənilən təhlükəni dəf etmək üçün ABŞ konqresmenləri konsensusa gələcək və ABŞ-ın bu baxımdan borclanma limitini də artıracaq".

Ekspert qeyd edib ki, ilin əvvəlindən ABŞ-ın maliyyə naziri həyəcan təbili çalır, ABŞ-ın defoltla üzləşə biləcəyi haqqında danışır: "Bu onunla bağlıdır ki, Konqres tərəfindən ABŞ-ın borc həddi müəyyənləşib və 34 trilyon dollar civarındadır. Həmin borc artıq 2023-cü ilin yanvar ayına qədər əldə olunub. Artıq ABŞ xəzinəsi borc kağızlarının buraxılışını dayandırıb və borclanma əldə edə bilmir.

Hazırda Konqresdə Respublikaçılarla Demokratlar arasında böyük anlaşılmazlıq və müzakirələr gedir. Əgər konsens yaranmasa, dövlət borcunun həddi artmasa ABŞ-da şərti defolt elan edilə bilər. Bu, sözsüz ki, həm ABŞ iqtisadiyyatına, həm Amerika ilə əlaqəsi olan digər ölkələrə, Avropa, Asiya ölkələrinin iqtisadiyyatına mənfi təsir göstərə bilər. Defolt o deməkdir ki, həmin ölkənin ödəmə qabiliyyəti məhdudlaşır. Bu baxımda digər ölkələrə ödənilən dividentlər, borclar sual altında olur.

ABŞ tarixində bu hadisələr dəfələrlə təkrarlanıb və son anda razılığa gəlinərək borc həddinin artması ilə bağlı razılaşdırılıb. Bu gün ABŞ dünyanın ən çox borclanmış ölkələrdən biridir.

***V.BAYRAMOV, "Xalq qəzeti"***

Sənətdən həyata baxış

# Mansurovların bəstəkar oğlu – Eldar Mansurov

*Bəstəkarla musiqi yaradıcılığı və erməni oğurluqları haqqında fraqmental söhbət*

**Sevilən bəstəkarımız, Xalq artisti Eldar Mansurov və mərhum qardaşı, kinooperator Aydın Mansurovla bir vaxtlar dövlət televiziyasında birlikdə çalışmışıq. Eldar müəllim musiqi baş redaksiyasına rəhbərlik edirdi. Daha çox yaxınlığım olan Aydınla mən ədəbi-dram verilişləri baş redaksiyasında işləyirdik və birgə ezamiyyətlərimiz zamanı tanınmış Mansurovlar şəcərəsi, o cümlədən atası – tarzən Bəhram Mansurov, qardaşları – Eldar və Elxan Mansurovlar haqqında maraqlı söhbətlərimiz olurdu. Aydın bu barədə fəxrlə, həvəslə danışırdı...**

Bu gün "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin nəzdindəki bədii şuranın üzvü olan Eldar Mansurov çox ünlü sənətkarlarımızdandır. Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) bəstəkarlıq fakültəsində professor Cövdət Hacıyevin sinfində təhsil alıb. 2005-ci ildə "Əməkdar incəsənət xadimi", 2012-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülüb. Həmin illər aralığında Bəstəkarlar İttifaqının katibi vəzifəsində işləyib. Ötən il milli musiqi sənətinin inkişafında xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilib. Prezidentin fərdi təqaüdçüsüdür.

Bəstəkarla bizim "Xalq qəzeti"nə də ünvan olan Bülbül prospektindəki "göydələn" binanın 12-ci mərtəbəsindəki mənzilində görüşdük. İlk sualım 70-ci illərin əvvəllərində Bakıda "Məşəl" ansamblında iştirakı haqda oldu. Gülümsəyərək dedi:

– Bəli, 1970-ci ildə "Məşəl"ə qatılmışam. Sənət yanğısı o vaxtdan canımdadır. 1971-ci ildən "Qızıl payız" festivallarında çıxış edirdik. Ansamblın iki üzvü vəfat edib, digərləri ilə tez-tez görüşürük...



Bəstəkar zəngin musiqi xəzinəsinə malikdir. 3000-dən artıq mahnı və instrumental musiqisi var. Nəbi Xəzrinin "Gecə döyülən qapılar" dram əsərinə və daha 27 tamaşaya, 28 filmə musiqilər bəstələyib, İki dəfə Səmərqənddə keçirilən Beynəlxalq simpoziumda muğamların tarixi barədə məruzələrlə çıxış edib. "Yeddi gözəl" rok-operası, "Kleopatra" və "Olimp" rok-baletləri, 5 simfoniya, "Mahur-hindi" simfonik muğamı, skripka və simfonik orkestr üçün konsert, bir çox simfonik, kamera və xor əsərlərinin müəllifidir.

Onun mahnı janrında daha geniş şöhrət qazanan əsəri "Bayatılar"dır. Vahid Əzizin sözlərinə bəstələdiyi həmin mahnını ilk dəfə 34 il əvvəl gənc ulduz Brilyant Dadaşova oxudu. Dərhal populyarlıq qazanan və tezliklə "Melodiya" firması tərəfindən val şəklində böyük tirajla çap olunan mahnı keçmiş sovet məkanında geniş yayıldı. "Bayatılar" bu gün də ən sevimli mahnılar sırasındadır. İndiyədək bu uzunömürlü mahnı dünyanı gəzir. Amma Eldar Mansurovun sənətin zirvəsinə daha möhtəşəm və ciddi musiqi əsərləri onu qaldırıb.

– "Bayatılar"ı xatırlatdınız, – deyə bildirdi. – Bilirsiniz, elə musiqi əsərləri var ki, bəxtlərinə daha çox sevilmək düşür. Leanordo da Vinçinin Cokondadan – "Mona Liza"dan başqa əsəri yox idimi? Var idi. Amma ən çox sevilən o portret oldu. Hər yaradıcı adam tarixdə bir şeylə qalır. Həsənağa Salayevin ən məşhur rolu Oqtay Eloğlu idi. Onun kimi bu rolu heç kim oynaya bilməz. Həmin tamaşaya anam aparırdı məni. Təsir edirdi, baxıb ağlayırdım. "Leyli Məcnun"da Leylini o qədər oynayan olub ki... Biri deyir Nəzakət yaxşı oxuyub, digəri deyir Zeynəb yaxşı oxuyub. Əslində, hamısı yaxşı olub. Amma yadda qalanı, adamı silkələyən tərzdə oxuyanı Rübabə Muradova olub. Onun kimi ikinci Leyli olmayıb. Bəstəkar Arif Məlikovun da xeyli parlaq əsəri olub, lakin "Məhəbbət dastanı" ən yaddaqalanıdır.

Mənim üçün də öz yazdıqlarımın hamısı əzizdir. Təvazökarlıqdan uzaq olmasın, mürəkkəb kompozisiyalı, simfoniya, rok, caz və muğamın sintezini ehtiva edən xeyli sanballı əsərim var. Sadəcə, "Bayatılar"ın üzü daha çox gülüb. Amma yaşımın bu vaxtında istərdim ki, bunlar daha çox ifa olunsun, geniş tanınsın.

Bəstəkarın həmin səpkili əsərlərindən biri atası, UNESCO-da valları çıxan ilk tarzən Bəhram Mansurovun xatirəsinə həsr etdiyi "Bəhramnamə"dir. Layihəsi əvvəlcə albом şəklində musiqisevərlərə təqdim olunub. Sonra layihənin efir ömrü başlanıb: bir il ərzində yerli radiostansiyalarda bu ecazkar musiqi səslənib. Nəhayət, layihə möhtəşəm konsertlə tamamlanıb. 2005-ci ildə Heydər Əliyev Sarayında, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın dəstəyi ilə "Bəhramnamə"-nin təqdimatı keçirilib. Musiqiçilər tamaşaçıları adı simfo-folk-rok olan yeni janrla tanış ediblər. Bəstəkarın qardaşı Elxan Mansurov orkestrin müşayiətilə "Mahur-hindi", "Segah", "Şüştər", "Rast", "Bayatı-Şiraz", "Bayatı-kürd", "Çahargah", "Humayun" muğamları əsasında yazılmış kompozisiyaları atasından yadigar qalmış tarda ifa edib. Bu muğamlar fərqli interpretasiyada – vokal-instrumental variantda populyar müğənni Manana və xanəndə Elbrus Abdulzadənin ifasında səslənib. "Bəhramnamə 2"-də isə ilk dəfə böyük simfonik orkestrdən istifadə edilib. Şərq və Qərb motivləri vahid formada qovuşub.

Yenə də xatirələrə daldı:

-Atam vəfat edəndən sonra çox fikirləşdim ki, ona nə həsr edim. Musiqisinə ən yaxşı forma tarla simfoniyanın əmələ gətirdiyi konsert formasıdır. Elə fərqliliklər axtardım ki, başqaları etməmiş olsun. Fikrət Əmirov muğamı simfonik musiqi ilə qarışdırıb simfonik muğam janrı yaratmışdı. Vaqif Mustafazadə cazla muğamı qarışdırıb caz-muğam janrı qoymuşdu ortaya. Mənsə roker olmuşam, rok musiqini sevmişəm. Odur ki, rokla muğamı qarışdırdım. Bunun sayəsində "Bəhramnamə" janrı yarandı.

Eldar Mansurovun kitabxanasında öz yazdığı "Azərbaycan dəraməd və rəngləri" "Azərbaycan diringi və rəngləri" (Azad Kərimovla), "Azərbaycan qədim el havaları" kitabları xüsusi yer tutur. Diqqətimi ingilis dilində çıxmış təzə bir kitab da cəlb etdi. Baxdım ki, bu, ingilis musiqişünas Mayk Diksonun "Geri dön və təzim et! Mənim musiqili həyatım" kitabıdır. "Burada, orada və hər yerdə" yarımbaşlığında Azərbaycan bəstəkarlarından söhbət açılır. 329-cu səhifədə olan bir abzası olduğu kimi təqdim edirəm:

**"Mən iş prosesində gözgörəti heyrət doğuran Azərbaycan bəstəkarlarının yazdığı ecazkar musiqi mətnləri haqqında çox şey öyrəndim. Onlar əsərləri təkcə orada deyil, dünyanın bütün konsert salonlarında səslənməyə layiq bəstəkarlardır. Üzeyir Hacıbəyli, Qara Qarayev, Eldar Mansurov, Vasif Adıgözəlov, Tofiq Quliyev, Arif Məlikov, Maestro Niyazi və inanılmaz Fikrət Əmirov kimi adları biz Qərbdə, sadəcə olaraq, tanımırıq. Bir qisminə Azərbaycansayağı rus irsi hopsa da, bu, zəngin ənənədir, olduqca çox musiqi fərdi şəkildə səslənir. Rus, İran və türk dilləri qarışığıdır, amma Azərbaycanın coğrafi vəziyyətini nəzərə alsaq, gözlənildiyi kimi, tamamilə nadir tərzdə səslənir. 2022"**

Eldar Mansurov dedi ki, adının elə böyük korifeylərlə yanaşı çəkilməsi ilə fəxr edir...

Görüşümüz zamanı ona ermənilərin özlərininkiləşdirdiyi "Koçəri" Azərbaycan rəqsi barədə də sual verdim. Bununla bağlı fikirlərini bölüşdü:

– "Köçəri" türkcə köç sözündəndir. Bu sözün ermənilərə aidiyyəti yoxdur. "Köçəri"ni nəyə görə öz adlarına çıxırlar? Çünki dişlərinin dibində şirə qalıb. Keçmişdə, yaxın XIX əsrdə, XX əsrin əvvəllərində onlar bizdən çox şey götürüblər. Özü də az müraciət etdiyimiz, az çalıb-oxuduğumuz, az qala unutduğumuz musiqiləri mənimsəyiblər. Baxın, "Sarı gəlin" nə vaxt dəbə düşdü? Akif İslamzadə oxuyandan sonra. Ondan əvvəl "Sarı gəlin" harada idi? Ermənilər götürmüşdülər onu. Eynilə "Köçəri" kimi. O, kənd musiqisidir, şəhər folkloru deyil. Ermənilərin götürdüklərinin əksəriyyəti kənd folklorudur. Şəhərdəki musiqilər tez-tez səsləndirilir, götürə bilmirlər. Yaxud aşıq havaları. Sayı xeyli var, dəbdə olan isə cəmi 5-6-sıdır. O musiqiləri ki, toz basır, az ifa olunur, ermənilər onları oğurlayır bizdən. Üzərində azca dəyişiklik edib özəlləşdirmək istəyirlər. Ermənilərin öz musiqisi yoxdur. Hamısı ordan-burdan götürmədir.

E.Mansurov daha sonra qeyd etdi ki, ermənilər dolmadan, küftə-bozbaşdan, başqa xörəklərimizdən tutmuş, xalq mahnılarımıza, rəqslərimizə, bəstəkarlıq əsərlərimizə qədər hər şeyə sahib çıxmağı arzulayırlar. Halbuki, bunların heç birinin haylara aidiyyəti yoxdur: "Onların burada vətənləri, dövlətləri olmayıb. Rusların əli ilə bizim torpaqlara gətiriliblər. Ermənilərin oğurluğunun qarşısı daha yüksək səviyyədə alınmalıdır, beynəlxalq mexanizmlər işə düşməlidir. Çünki onlar oğru, yalançı toplumdur. Elə mənim özümün də musiqilərimi oğurlayıblar".

Əlavə edək ki, sırf Azərbaycan yallısının bir növü olan "Köçəri" UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısına daxil edildikdən sonra da bu havaya əsassız iddialı olan oğru qonşularımız saxtakarlıqlarından əl çəkməyiblər.

*Əli NƏCƏFXANLI,*
*"Xalq qəzeti"*

# 35 peşə üzrə 57 hazırlıq kursu təşkil edilib




**Dövlət Məşğulluq Agentliyi bu ay 37 peşə üzrə 57 hazırlıq kursu təşkil edib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən məlumat verilib.**

Bildirilib ki, əmək bazarının aktual istiqamətləri üzrə təşkil edilən həmin kurslara 644 şəxs cəlb olunub. Onlardan 472 nəfəri üçün agentliyin Bakı, Gəncə və Göyçay peşə hazırlığı mərkəzlərində, 172 nəfəri üçün özəl tədris müəssisələrində peşə kursları təşkil edilib.

İşəgötürənlərlə əməkdaşlıq çərçivəsində təşkil olunan kurslarda rəqəmsal media və marketinq mütəxəssisi, insan resursları mütəxəssisi, proqramla idarə olunan dəzgahların operatoru, təchizat üzrə agent, backend developer, elektron tibbi cihazların təmiri və xidməti elektromexaniki, elektrik qaz qaynaqçısı və digər peşələr üzrə nəzəri biliklər tədris edilməklə yanaşı, müəssisələrdə təcrübə keçmək imkanı da yaradılıb.

Qeyd edək ki, kursların sonunda məzunlara sertifikatlar təqdim ediləcək və onların işlə təmin olunmalarına dəstək göstəriləcək. Yeri gəlmişkən deyək ki, peşə hazırlığı müddətində müdavimlərə minimum əməkhaqqı məbləğində aylıq təqaüd də verilir.

*Zərifə BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*

# Əmanətlərin Sığortalanması Fonduna üzv bankların reyestrində dəyişiklik edilmişdir

Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurasının qərarına əsasən 25 oktyabr 2007-ci il tarixdə 35 nömrəli reyestr nömrəsi ilə Fonda üzv olan "Günay Bank" ASC "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 22.3.1-ci maddəsinə uyğun olaraq Əmanətlərin Sığortalanması Fonduna üzv bankların reyestrindən çıxarılmış və banka verilmiş şəhadətnamə ləğv edilmişdir.

Bildiyiniz kimi, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 16 may 2023-cü il tarixli Qərarı ilə məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimum miqdarından az olduğuna, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olmasına, habelə cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyinə görə "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 16.1.6-cı, 16.1.7-ci, 16.1.9-cu və 61.1-ci maddələrinə əsasən "Günay Bank" ASC-nın lisenziyası 17 may 2023-cü il tarixindən etibarən ləğv edilmiş və Bakı Apellyasiya Məhkəməsinin 18 may 2023-cü il tarixli 2-3(103)-42/2023 saylı qərarı ilə "Günay Bank" ASC müflis elan edilmiş və barəsində iflas proseduruna başlanmışdır.

Əmanətlərin Sığortalanması Fondu «Əmanətlərin sığortalanması haqqında» Azərbaycan Respublikası Qanununun 30.1-ci maddəsinə əsasən iştirakçı bankların 24 may 2023-cü il tarixinə olan reyestrini ictimaiyyətin diqqətinə çatdırır:

| | Reyestrə daxil olma tarixi | Bankın adı |
|---|---|---|
| 1 | 30.07.07 | ASC «XALQ»Bankı |
| 2 | 30.07.07 | «Azərbaycan Beynəlxalq Bankı»ASC |
| 3 | 30.07.07 | "ACCESSBANK" QSC |
| 4 | 30.07.07 | Melli İran Bankı Bakı filialı |
| 5 | 30.07.07 | «Azər-Türk Bank» ASC |
| 6 | 30.07.07 | «Bank of Baku» ASC |
| 7 | 30.07.07 | «Bank Respublika» ASC |
| 8 | 30.07.07 | «Kapital Bank» ASC |
| 9 | 30.07.07 | «Muğanbank» ASC |
| 10 | 30.07.07 | «YELO BANK» ASC |
| 11 | 30.07.07 | «Rabitəbank» ASC |
| 12 | 30.07.07 | «TURANBANK» ASC |
| 13 | 30.07.07 | «UNİBANK» KB ASC |
| 14 | 30.07.07 | Yapı Kredi Bank Azərbaycan QSC |
| 15 | 07.08.07 | «Expressbank»ASC |
| 16 | 10.09.07 | «Azərbaycan Sənaye Bankı» ASC |
| 17 | 04.12.07 | «Bank Avrasiya» ASC |
| 18 | 04.12.07 | «Paşa Bank» ASC |
| 19 | 29.08.08 | «Naxçıvanbank» ASC |
| 20 | 16.01.09 | «AFB BANK»ASC |
| 21 | 26.02.09 | BANK VTB (AZƏRBAYCAN) ASC |
| 22 | 28.04.09 | PREMIUM BANK ASC |
| 23 | 15.04.10 | Bank «BTB» ASC |
| 24 | 15.05.15 | «Ziraat Bank Azərbaycan» ASC |


## "Şüşəplastmas "ASC səhmdarlarının nəzərinə!

"Şüşəplastmas "ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı

14 iyul 2023-cü il saat 10.00-da "Şüşəplastmas "ASC-nin yerləşdiyi, Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, Qəsəbə küçəsi 24 nömrəli ünvanda keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin 2022-ci ilin yekunlarının müzakirəsi və mühasibat balansının təsdiqi.

**2.** İdarə heyəti sədrinin seçilməsi.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə (012) 496-43-72 nömrəli telefonla əlaqə saxlayıb, yaxud cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

***Müşahidə şurası***

## "ALMET" ASC səhmdarlarının nəzərinə!

"ALMET" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 14 iyul 2023-cü il saat 11.00-da " Şüşəplastmas " ASC-nin yerləşdiyi Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi , Qəsəbə küçəsi 24 nömrəli ünvanda keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin 2022-ci ilin yekunlarının və mühasibat balansının təsdiqi.

**2.** Mənfəətin istifadəsinə dair məsələnin müzakirəsi.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə (012) 496-43-72 nömrəli telefonla əlaqə saxlayıb , yaxud cəmiyyətin yerlıəşdiyi ünvanda tanış olmaq mümkündür.

## "Nəsimi Məişət Malları "ASC səhmdarlarının nəzərinə!

"Nəsimi Məişət Malları "ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 14 iyul 2023-cü il, saat 11.30-da "Şüşəplastmas " ASC-nin yerləşdiyi Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, Qəsəbə küçəsi 24 nömrəli ünvanda keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin 2022-ci ilin yekunlarının müzakirəsi və mühasibat balansının təsdiqi.

**2.** Mənfəətin istifadəsinə dair məsələnin müzakirəsi.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə (012) 496-43-72 nömrəli telefonla əlaqə saxlayıb ,yaxud cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

***Müşahidə şurası***

## "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

*boyaların satın alınması məqsədilə*

## Satınalma Müsabiqəsi Elan Edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 16 iyun 2023-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- +994 12- 599- 00-03 (daxili 3704).

Ünvan- AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

## "Moskviçtexxidmət" ASC səhmdarlarının nəzərinə!

Səhmdarların 2023-cü il mayın 20-də keçirilmiş növbəti ümumi yığıncağında aşağıdakı qərarlar qəbul edilmişdir:

**1.** "Moskviçtexxidmət" ASC-nin 2022-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına aid hesabat təsdiq olunaraq qənaətbəxş hesab edilsin.

**2.** "Moskviçtexxidmət" ASC-nin 2018-2022-ci illərə aid fəaliyyəti nəticəsində yaranmış mənfəətdən səhmdarlara dividend verilsin.

**3.** Digər məsələlər barədə qərar qəbul edilməmişdir.

***Rəhbərlik***

SON SƏHİFƏ
Xalqın qəzeti!
# Xalq qəzeti
№ 109 (30225) 25 may 2023-cü il, cümə axşamı
veb-sayt: www.xalqqazeti.az

*İdman xəbərləri*

## Cüdoçularımız mübarizəyə başlayırlar



**Cüdoçularımız bu gün Avstriyanın Linz şəhərində Qran-Pri yarışında mübarizəyə başlayırlar. Turnirdə kişilərdən ibarət komandamız Nazir Talıbov, Əhməd Yusifov (60 kq), Kamran Süleymanov (66 kq), Rəşid Məmmədəliyev, Nurlan Osmanov (73 kq), Zelim Tskayev (81 kq), Elcan Hacıyev, Murad Fətiyev (90 kq) təmsil olunacaq.**

Cüdoçu qızlarımızdan isə Leyla Əliyeva, Şəfəq Həmidova (48 kq), Gültac Məmmədəliyeva (52 kq), Fidan Əlizadə (57 kq) mübarizə aparacaqlar.

Yarış mayın 27-dək davam edəcək.

## İki avarçəkənimiz Avropa çempionatında



**Bu gün Sloveniyanın Bled şəhərində start götürən akademik avarçəkmə üzrə Avropa çempionatında Azərbaycan komandası iki idmançı ilə təmsil olunacaq.**

Turnirdə Bəhmən Nəsiri və Ziya Məmmədzadə mübarizə aparacaqlar. Ziya Məmmədzadə yüngül, Bəhman Nəsiri isə ağır çəkili avarçəkənlər arasında çıxış edəcəklər. Hər iki idmançı 2 min metr məsafədə yarışacaq.

Avropa çempionatına mayın 28-də yekun vurulacaq.

## Fiziyevin reytinqi – dünya altıncısı



**Yüngül çəkili MMA döyüşçümüz Rafael Fiziyevin öz kateqoriyası üzrə reytinq cədvəlindəki mövqeyi müəyyənləşib.**

Otuz yaşlı azərbaycanlı idmançı 6-cı pillədə qərarlaşıb. Braziliyalı Çarles Oliveyra yüngül çəki üzrə reytinqə başçılıq edir. İkinci yerin sahibi amerikalı Dastin Poryedir. Bu ilin mart ayında baş tutan döyüşdə ona qalib gələn ABŞ təmsilçisi Castin Geyci isə üçüncü yerdədir.

*Leyla QURBANOVA,*
*"Xalq qəzeti"*

*Texnologiya yenilikləri*



## "Xiaomi" yeni televizor təqdim edib

**"Xiaomi" şirkəti Mi TV A75 Competitive Edition adlı yeni 4K televizorunu təqdim edib. Həmin televizor 120 Hz-lik təsvir yenilənməsinə sahib 4K UHD keyfiyyətli 75 düym ekran ilə təchiz olunub. Televizorun gövdəsi metal materialdan hazırlanıb və ekranı maksimal dərəcədə nazik çərçivələrə malikdir.**

Şirkətin verdiyi məlumata əsasən ekran televizorun ön panelinin 97,7 faizini əhatə edir. Televizorun internetə qoşulması üçün ona Wi-Fi 5 adapteri quraşdırılıb. Bununla yanaşı, Mi TV A75 Competitive Edition iki ədəd USB və iki ədəd HDMI girişə sahibdir. Televizor 4 ədəd Cortex-A32 nüvəsinə sahib prosessor, 2 GB RAM və 32 GB daxili yaddaş həcmi ilə təchiz olunub. Mi TV A75 Competitive Edition Çin bazarında artıq satışa çıxarılıb.

*Z.BAYRAM, "Xalq qəzeti"*

## Çin imperatorunun bahalı saatı

**Çinin sonuncu imperatoru Pu İyə məxsus "Patek Philippe" saatı Honkonqda keçirilən hərracda 5,1 milyon dollara satılıb.**



"Reference 96 Quantieme Lune" adlı saatın ümumi qiyməti 48,9 milyon Honkonq dolları (təxminən 6,27 milyon dollar) təşkil edib.

Hərrac zamanı saatla yanaşı, imperatorun digər şəxsi əşyaları - yelpik, kitabça, həmçinin onun qohumlarından birinin rəsmləri də satışa çıxarılıb.

Qeyd edək ki, bundan əvvəl hərracda satılan ən bahalı saat Misir şahzadəsi Məhəmməd Əli Paşaya məxsus olub. 1946-cı il istehsalı olan "Patek Philippe" saatı 2021-ci ildə 9,5 milyon dollara satılıb.

*F.HÜQUQQIZI, "Xalq qəzeti"*

## Cənubi Koreya orbitə 8 peyk çıxaracaq

**Cənubi Koreya kosmos proqramı çərçivəsində özünün milli istehsalı olan KSLV-2 ("Nuri") kosmik raketinin üçüncü buraxılışına hazırlaşır.**

Raketdaşıyıcının buraxılışı Naro kosmodromunda yerli vaxtla saat 18:24-ə planlaşdırılıb. Çəkisi 200 ton olan raketin 8 peyki orbitə çıxarması gözlənilir. Bunlardan biri şərti peyk, biri raketin imkanlarını test etmək üçün nəzərdə tutulan peyk, digərləri isə ən son nəsil müxtəlif təyinatlı peyklərdir.

Cənubi Koreyanın Elm və İnformasiya-Kommunikasiya Texnologiyaları Nazirliyinin məlumatına əsasən, son yoxlama işləri başa çatıb, hava raketin buraxılışı üçün əlverişlidir.

*Sosial şəbəkələrdən seçmələr*

## "Apple Watch"da yaşıl kölgə

**Reddit istifadəçilərinin mediaya verdikləri məlumatda deyilir ki, watchOS 9,5 yenilənməsindən sonra onların "Apple Watch" smart saatlarının ekranlarında yaşıl rəngli kölgə əmələ gəlib. İstifadəçilər qeyd ediblər ki, bu problemə yalnız bəzi "Apple Watch" modellərində rast gəlinir.**



Söhbət, Watch Series 8 və ondan daha əvvəlki modellərdən gedir. Watch SE və Watch Ultra modelləri arasında sözügedən problemə çox nadir hallarda rast gəlinir. Bildirilib ki, bu problemin yaşandığı "Apple Watch" modellərində ekranlar şifrənin daxil edilməsi, idarəetmə mərkəzinə keçid və bildirişlərin deaktiv edilməsi zamanı yaşıl rəngli kölgə ilə əhatə olunurlar.

Apple bu barədə hələ rəsmi bir məlumat verməyib. Qeyd etmək lazımdır ki, buna bənzər problem öncə iPhone-larda da yaşanmışdı və səbəbi proqram təminatında idi.

## Fransada uşaqlara sosial media qadağası



**Fransa Senatı sosial mediada zorakılığın qarşısının alınması üçün yeni qanun layihəsi qəbul edib. Belə ki, 15 yaşından kiçik istifadəçilərin sosial media platformalarından istifadəsi üçün valideynlərinin icazəsi tələb ediləcək. Xəbəri "cnn.com" saytı verib.**

Yeni qanun layihəsinə görə, platformalar istifadəçilərin yaşını və yetkinlik yaşına çatmayanların valideynlərindən razılıq alıb-almadığını yoxlamaq üçün sistemdən istifadə etməlidirlər. Həmçinin valideynlər 15 yaşdan kiçik uşaqlarının sosial media hesablarının dayandırılmasını tələb edə biləcəklər.

Qeyd edək ki, qanun layihəsi çərçivəsində sosial media və onlayn platformalar elektron məzmunla bağlı hüquqi müraciətlərə 10 gün ərzində cavab verməlidirlər. Qaydalara əməl etməyən platformalar ciddi şəkildə cərimələnəcəklər.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

## 417 Mayya şəhəri aşkar edilib

**Alimlər Qvatemala ərazisində, təxminən, eramızdan min il əvvələ aid 417 qədim Mayya şəhəri aşkar ediblər.**



Bu barədə ABŞ–Qvatemala birgə arxeoloji ekspedisiyasının tədqiqatçıları "The Washington Post" qəzetinə müsahibə veriblər. Məlumatda bildirilir ki, "magistral yollar" şəbəkəsi ilə birləşən şəhərlərin uzunluğu 177 kilometr (109,9 mil) təşkil edir.

2015-ci ildən bəri bu layihə üzərində işləyən heyət şəhərlərə məxsus ən kiçik detalları belə aşkar etmək üçün arxeoloji lazer xəritələşdirmədə əhəmiyyətli vasitə olan "lidar" texnologiyasından istifadə ediblər.

Araşdırmaya görə, bu texnologiya alimlərə qədim bəndləri, su anbarlarını, piramidaları, platformaları, yol şəbəkələrini və hətta top meydançalarını belə görməyə imkan verir.

Qeyd olunur ki, layihədə növbəti addım Misir piramidalarına bənzər digər sirli piramidaları aşkar etməkdir.

*Sağlamlıq guşəsi*

## Beyni nə gücləndirir?

**Möcüzəvi həblərin köməyi olmadan beynin işləmə qabiliyyətini artırmaq olar. Beyinə daxil olan və çıxan sinir impulslarının sürəti saatda 274 kilometrə bərabərdir. Bu impulsların sürəti, təxminən, Formula avtomobillərinin sürəti ilə müqayisə olunur.**



Beyin üçün 10 voltluq lampa gücündə enerji tələb olunur. Alimlərin fikrincə, insanın intellekt səviyyəsi nə qədər yüksəkdirsə, bir o qədər çox yuxu görür. Əksər insanlarda beyin deyəndə qoz ləpələrinə oxşar boz maddə assosiasiyası yaranır. Lakin canlı beyin tünd qəhvəyi rəngli, su və qandan təşkil olunmuş yumşaq orqandır.

Beynə qidalanma və su təsir edir: yaşıl yarpaqlı tərəvəzlər, xüsusən kələm, ispanaq; yağlı balıq – qızılbalıq, siyənək, skumbriya; giləmeyvələrdən moruq, yaban mərsini, mərcangilə, zoğal; beynin düzgün işləməsi üçün lazım olan ən çox yağa sahib – qoz; beynin böyük miqdarda məlumatı daha sürətli emal etməsinə kömək edən qəhvə və çaydır, əsas odur ki, həddi aşmayın.

*Z.HÜSEYN,*
*"Xalq qəzeti"*

*Proqnoz*



## Bəzi yerlərə leysan yağacaq, dolu düşəcək

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən mayın 25-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Şimal-qərb küləyi əsəcək. Gecə 17-22°, gündüz 25-30°, bəzi yerlərdə 33°-dək isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 30-35°, dağlarda gecə 7-12°, gündüz 12-17°, bəzi yerlərdə 20-24° isti olacaq.

*Q.QASIMOV,*
*"Xalq qəzeti"*

## "Whatsapp"da redaktə...

**"Whatsapp" mesajlaşmada "redaktə funksiyası" nı təqdim edir.**



Belə ki, istifadəçilər proqram vasitəsilə mesaj göndərdikdən sonra mətndə 15 dəqiqəyə qədər düzəliş etmək imkanı əldə edəcəklər. Bu barədə "Meta şirkəti" xəbər yayıb. Məlumatda bildirilir ki, mətni düzəltmək üçün göndərilən mesajı basıb saxlamaq və "redaktə et" funksiyasını seçmək lazımdır.

Düzəlişlərdən sonra isə ekranda "redaktə edilmiş" yazısı göstəriləcək. Mesajı düzəldilmiş variantda qarşı tərəfə göndərə biləcəksiniz.

Lakin mesajı alanlar redaktə tarixçəsini görə bilməyəcəklər.

*Fidan SALMANOVA,*
*"Xalq qəzeti"*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5183
SİFARİŞ 1321
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00